"DİASPOR VƏ LOBBİ" ELMİ
ARAŞDIRMALAR MƏRKƏZİ

ZAUR ƏLİYEV

# BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ DİASPORLARIN ROLU

Bakı - 2001

E l m i  r e d a k t o r u: **Mirzə ƏNSƏRLİ,**
*jurnalist-publisist, Azərbaycan Milli Elmlər Akademiyasının Beynəlxalq Münasibətlər İnstitutunun əməkdaşı. "Diaspor və Lobbi" Elmi Araşdırmalar Mərkəzinin təsisçisi və prezidenti.*

T e x. r e d a k t o r u  v ə
k o m p ü t e r  t ə r t i b ç i s i: **İbrahim ÖMƏROV**

Əliyev Zaur. **Beynəlxalq münasibətlərdə diasporların rolu.** Bakı, "Nurlan" - 2001. 150 səh.

*Kitabda dünyanın böyük ölkələrində fəaliyyət göstərən yəhudi, erməni və azərbaycan diasporu haqqında yığcam məlumat verilir. Burada həmçinin yəhudi-ərəb, erməni-türk və erməni-azərbaycan münaqişələrində diasporların rolu və 907-ci düzəliş geniş əks olunmuşdur.*

Ə $\frac{0504000000 - 93}{N - 098 - 2001}$ Qrifli nəşr

© "Nurlan", 2001

## GİRİŞ

- XX əsrin son onilliyi bəşər tarixinə Sovetlər Birliyi kimi nəhəng imperiyanın dağılması, Berlin səddinin aradan götürülməsi, NATO-nun Şərqə doğru genişlənməsi və ən başlıcası dünya birliyinin yeni müstəqil olan dövlətlər hesabına zənginləşməsi kimi daxil olmuşdur. Müasir tarixin bu cahanşümul hadisələri beynəlxalq münasibətlər sistemində də təsirsiz qalmamış, dövlətlərarası münasibətlərə yeni məzmun və forma gətirmişdir.

Azərbaycan Respublikası da böyük siyasi proseslərin uğurlu sonluğu nəticəsində müstəqillik əldə etmiş, dünya birliyinin bərabərhüquqlu üzvü olmuşdur. Qazanılmış müstəqilliyi əbədi etmək üçün ölkənin daxili və xarici siyasətində dövlətin milli maraqları hər şeydən üstün tutulmalı və bu məqsədin reallaşdırılması üçün bütün vasitələrdən kifayət qədər səmərəli istifadə edilməlidir.

Siyasi proseslərdə iştirakın fəallaşması üçün isə mütləq beynəlxalq münasibətlər sistemində mövcud siyasi fenomenlərin qavranılması tələb olunur. Bu sistemdə xüsusi bir çəkiyə və rola malik olan diaspor problemi də var.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra dünya ölkələrində pərakəndə halda olan azərbaycanlı diaspor qrupları ilə daha ciddi, sıx və qarşılıqlı faydalı əlaqələr qurmaq yolunda kövrək addımlarını atır. Azərbaycan respublikasına Heydər Əliyev kimi dünyada tanınan görkəmli dövlət xadiminin, güclü siyasətçi, nüfuzlu şəxsiyyətin rəhbərlik etməsi, xarici ölkələrdə yaşayan soydaşlarımızın fəaliyyətin də ciddi təsir göstərir. Heydər Əliyev çıxışlarının birində xüsusilə vurğulamışdır:

***«Azərbaycan müstəqil bir dövlətdir. Başqa bir dövlətin tərkibində deyil. Hər bir azərbaycanlı buraya ata ocağı kimi baxmalıdır. Mən müraciətlərimdə çalışmışam ki, bütün dünyada - Avropada, Asiyada, Amerikada və s. yerlərdə yaşayan azərbaycanlıların bu hissiyyatlarını oyadaraq onları Azərbaycana cəlb edib, Azərbaycana doğma münasibət bəsləmələrinə nail olum. Hər kəs bilməlidir ki, onun Vətəni Azərbaycandır»****(1; səh.321)*

Diasporun sağlamlaşmasına, güc mərkəzi kimi təşkilatlanmasına dövlətlərarası əlaqələrin genişlənməsi mühüm təkan verir.

Dünya praktikasında diaspor anlayışına ikili baxış mövcuddur. Bu ikili baxışlardan birincisi «diaspor» anlayışı, onun mənşəyi və hərfi tərcüməsi baxımından qəbul olunur və şərh edilir. İkinci qrupdan olan baxışlar sistemi isə diasporu öz ölkəsinin və xalqının köklü milli maraq və mənafelərinə ardıcıl şəkildə xidmət edən qüvvə faktoru, hərəkətdə və fəaliyyətdə olan institut və qurumlar şəbəkəsi kimi təssəvvür edir. (2; səh.10-11)

Diaspor probleminin aktuallığının bir neçə mühüm səbəbi vardır və onlar bir-birlərini tamamlayaraq, şərtləndirir.

Birinci səbəb odur ki, hər bir dövlət yarandığı ilk gündən etibarən təkcə öz vətəndaşlarının deyil, ümumiyyətlə vətəndən kənarda məskunlaşan xalqın yeganə milli varlıq simvolu, etibarlı istinad mərkəzi, himayədarı və milli-siyasi mövcudluq vasitəsi kimi çıxış edir. Dünyanın bütün dövlətləri öz diasporlarına maliyyə yardımı göstərirlər. İnkişaf etmiş dövlətlərdən Yaponiya, Rusiya, Almaniya və s. hər il diasporları üçün milyonlarla dollar vəsait sərf edirlər. Çin, İsrail, Ermənistan, Macarıstan kimi dövlətlərdə isə



qanunvericilikdə «diaspor» anlayışı qanunla müəyyən edilməsə də, dövlət tərəfindən uğurla yeridilən «diaspor siyasəti» var.

Bunun ikinci mühüm səbəbi ondan ibarətdir ki, hər bir dövlət diasporla qarşılıqlı faydalı, intensiv əlaqələr qurmaqda, açıq əməkdaşlıq etməkdə maraqlıdır. Dövlətimiz də diaspor ilə qarşılıqlı əlaqə yaratmaqda maraqlı olmaqla diaspor probleminin önəmini yüksək dəyərləndirir.

Üçüncü isə hər bir dövlətin daxili problemləri mövcuddur və o həmin problemlərin həll edilməsinə ciddi ehtiyac duyur. Buna görə də diaspor ilə əlaqə yaradaraq inkişaf etmiş dövlətlərdən, xüsusən Amerika Birləşmiş Ştatlarından iqtisadi, hərbi və humanitar yardım alırlar.

Dördüncüsü, diaspor ayrı-ayrı ölkələrlə öz dövləti arasında faydalı dostluq və əməkdaşlıq münasibətlərinin qurulmasında və mövcud münasibətlərin genişləndirilməsində pozitiv, bəzən hətta müstəsna rol oynaya, stimul kimi çıxış edə bilər. Xüsusilə çoxsaylı Azərbaycan diasporu müstəqil Azərbaycan Respublikasının inkişaf etməsi və daxili problemlərin həll edilməsində intensiv rol oynaya bilər və Azərbaycan diasporunun rəhbərləri də bu faktı dəfələrlə təsdiqləmişlər.

Beşincisi və ən mühüm səbəblərdən biri də budur ki, diasporlar öz tarixi vətənlərinin mənafeyi uğrunda geniş təbliğatçılıq işi apararaq dövlətlərinin lobbisinin formalaşmasında **«qızıl-açar»** rolunu oynamaq və vasitəçi olmaq imkanlarına malikdirlər. Xüsusilə Qərb ölkələrində qanunvericilik tərəfindən təsdiq olunan və qəbul edilən lobbiçilik diasporlar üçün geniş imkanlar açır. **Azərbaycan diasporunda lobbi siyasətinin formalaşmasında böyük rolu olan ölkə prezidenti Heydər Əliyevin neft siyasəti işgüzar**

**adamların və siyasi dairələrin diqqətini Azərbaycana cəlb etmiş və bununla da lobbimizin yaranması istiqamətində böyük xidmət göstərmişdir.**

Altıncısı isə belə əlaqələr həm də diasporun özünün sağlamlaşmasına, daha da milliləşməsinə, monolitləşməsinə və həm də ciddi milli-siyasi güc amili kimi təşkilatlanmasına nail olmaq baxımından zəruri və təxirəsalınmaz sayılır.

- Diaspor problemilə elmi şəkildə məşğul olmaq zəruridir. Diasporun beynəlxalq münasibətlərdəki rolunun öyrənilməsi və dövlət-diaspor münasibətlərinin düzgün qurulmasının yolları və üsulları müəyyənləşdirilərkən diasporun özünün ciddi, elmi- tədqiqat obyektinə çevrilməsi irəli gəlir. Diasporlar, onların problem və çətinlikləri, diaspor -dövlət münasibətləri İsrail, Ermənistan, Yunanıstan,Çin, Macarıstan və s. dövlətlərdə yüksək səviyyədə öyrənilmiş və bu gündə öyrənilir. Bizim ölkəmizdə isə bu problem yeni-yeni öyrənilir. Diasporların beynəlxalq münasibətlər sistemindəki rolu və regional etnosiyasi konfliktlərdə aktiv fəaliyyət göstərməsilə bağlı elmi məsələlər araşdırılır.

Diasporu «hərəkətdə olan qüvvə kimi» qəbul edən bir çox dövlətlər diaspordan istifadə etməklə öz maraqlarını əsas tuturlar. Tarixi hadisələrin gedişi və bir çox dövlətlərin təcrübəsindən göründüyü kimi dövlət üçün diaspor əhəmiyyətli mövqe tutur. Diasporun hər bir dövlət üçün vacib və lazımlı olduğunu vurğulayan Rusiyanın Xarici İşlər Nazirliyinin-nin Diplomatik Akademiyasının «Dünya diasporu»bölməsinin rəhbəri T. Poloskova diasporun öz ölkəsi üçün ilk növbədə xaricdə mədəni və informasiya təmsilçisi, təbliğatçısı missiyasını daşıdığını qeyd edir. Poloskovaya görə hər bir ölkənin «Dövlət siyasəti» konsepsiyasında diaspor ilə



dövlət arasındakı münasibətlərin dəqiqləşdirilməsi mühüm yer tutur. (3; səh.3-4)

Diaspor probleminin etimoloji yanaşma üsulu vasitəsilə öyrənilməsinin əsas səbəblərindən biri ölkəmizin ən azı son iki yüzillik tarixinin kifayət qədər keşməkeşli olmasıdır. **«Vətən» və «dövlət» anlayışlarının sərhədləri azərbaycanlıların təsəvvüründə heç də üst-üstə düşmür: Azərbaycan bir ölkə kimi iki yerə parçalanmışdır.**

Bu gün «Azərbaycan diasporu» anlayışının şərhi zamanı xalqımızın tarixinin bu cəhətləri nəzərə alınmalıdır. Say-demoqrafik və ya kəmiyyət göstəriciləri baxımından həqiqətən də böyük diaspora malik xalqımızın azsaylı erməni diasporu ilə mübarizədə qalib çıxması üçün güclü yəhudi, Çin və s. diasporlarla əlaqələr qurması tələb olunur.

Kitabın yazılması prosesində Amerika Birlşmiş Ştatlarının respublikamızdakı səfirliyinin informasiya xidmətinin materiallarından, Amerikada, Fransada, İsraildə, Türkiyədə, Rusiyada və ölkəmizdə nəşr edilən kitablardan, jurnal və qəzetlərdən geniş istifadə olunmuşdur. İstifadə olunan ədəbiyyatlar, qəzetlər və jurnallardakı materiallar Azərbaycanda ilk dəfə olaraq elmi dövriyyəyə gətirilmişdir.

Eyni zamanda Beynəlxalq Kompüter Şəbəkəsi olan İnternet məlumatlarından da kitabın yazılması prosesində istifadə olunmuşdur.

Beynəlxalq münasibətlərdə diasporların rolunun öyrənilməsinə həsr olunmuş kitab bu istiqamətdə ilk addımlardan biri kimi şübhəsiz, nöqsanlardan xali deyil və güman edirik ki, gələcəkdə aparılacaq araşdırmalarda onlar aradan qaldırılacaqdır

Diasporumuzun vəzifələri iki əsas məqsədə: **1) həm özünü**

**tanımaq, milli kökünə bələd olub milli sərvətlərinə, milli varlığına sahib olmaq və azərbaycançılıq məfkurəsini mənimsəməyə, 2) həm də Azərbaycanın mövqeyin xarici dövlətlərdə müdafiəyə xidmət edir.** Kitabda beynəlxalq münasibətlər sistemində diasporların rolu, diasporların formalaşması tarixi, yəhudi və erməni diasporları arasındakı ziddiyyətlər, güclü yəhudi diasporu ilə azərbaycan diasporu arasında olan münasibətlər araşdırılır. Regional etnosiyasi münaqişələrdə adları çəkilən diasporların iştirakı və dünyanın qüdrətli dövlətlərində diasporlararası mübarizənin bəzən kəskin, bəzən də qarşılıqlı anlaşma şəkli alması və s. məsələlər tədqiqat predmeti kimi seçilmişdir. Kitabda beynəlxalq ictimaiyyətin diqqətini uzun illər cəlb etmiş Ərəb-İsrail münaqişəsinin tənzimlənməsində bu dövlətlərin diasporlarının öz tarixi vətənlərinin müdafiəsi üçün apardıqları mübarizədən də bəhs edilir. Azərbaycanlılar və türklər, eyni zamanda digər xalqlar üçün tarixi fəlakətə çevrilmiş olan «erməni genosidi», sonralar isə «Qarabağ problemini» yaradan erməni diasporunun siyasətinin araşdırılması da kitabda diqqətdən yayınmamışdır.



I FƏSİL

## Diasporların formalaşması tarixindən

Vətənlərindən başqa ölkə və regionlara köçüb getmə - mühacirət hadisəsi bütün xalqların və millətlərin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında ən azı son bir neçə yüzillik tarixi dövr ərzində həmişə ən mühüm amillərdən biri olmuşdur. (4; səh.3).

Bəs «diaspor» sözü nə deməkdir və o, hansı mənanı ifadə edir? Bu suala cavab vermək «diaspor» anlayışının məna tutumunu aydınlaşdırmaq kifayət qədər vacib məsələdir. Çünki son bir neçə il ərzində ölkə mətbuatında həmin anlayış yanlış şəkildə işlədilir, bəzən lobbiçilik anlayışı və s. ilə qarışdırılır. Bu cür hallar isə təbii ki, yanlışdır və onlar problemin mahiyyətini dərk edib anlamağa «diaspor» dedikdə məhz nəyin nəzərdə tutulduğunu aydınlaşdırmağa mane olur. Elə onun nəticəsidir ki, bizdə diaspor probleminin öyrənilməsilə bağlı münasibət və fikirlərdə ciddi məlumatsızlıq, məsələyə birtərəfli yanaşma meylləri hələ də aparıcı yerdədir. (2;səh.10-11).

Yeri gəlmişkən, deyək ki, dünya praktikasında «diaspor» anlayışına münasibətdə ikili baxış mövcuddur. Birinci halda «diaspor» anlayışı onun mənşəyinin hərfi tərcüməsi və etimoloji baxımdan şərh və qəbul olunur. İkinci qrupdan olan baxışlar sistemi isə diasporu öz ölkəsinin (dövlətinin) və xalqının (millətinin) köklü mənafelərinə ardıcıl şəkildə xidmət edən və fəaliyyətdə olan institut və qurumlar (şəbəkəsi) kimi

təsəvvür edir. (5; səh.11).

Məsələyə hər iki baxış və münasibət sistemində ciddi həqiqətlər, mübahisəsiz məqamlar vardır. Bu baxış sistemlərini bir-birindən fərqləndirən yeganə cəhət odur ki, birinci qrupdan olan baxışlar «diaspor» anlayışına ümumiləşdirilmiş bir məfhum kimi yanaşaraq onun məhz mahiyyətini, xüsusiyyət və əlamətlərini daha çox məhz tarixilik prinsipləri nöqteyi-nəzərindən izah etməyə çalışırlar. İkinci qrupdan olan baxışlar isə «diaspor» məfhumunu «hərəkətdə olan qüvvə» anlamında qəbul edərək onu aktiv ictimai-siyasi proseslərin elementi kimi təsəvvür etməyə daha çox meyillidir. Başqa sözlə «diaspor» anlayışını ilkin məna baxımından şərh edənlər üçün diasporun hərəkətdə və fəaliyyətdə olub-olmamasının heç bir fərqi yoxdursa, hər hansı bir xalqın mühacirətdə olan hissəsinin yalnız fəal təbəqəsini, yalnız öz ölkəsi üçün çalışan təbəqəsini diaspor hesab edirlər. (2; səh.11).

Bunları nəzərə alaraq diaspor məfhumunun hərfi tərcüməsindən alınan mənaya diqqət yetirməyi lazım sayırıq. **«Diaspor» termini yunan dilindən alınmadır və o, «diasrora» sözündən olub hərfən «dağılma, səpələnmə, yayılma» kimi tərcümə olunaraq aşağıdakı mənanı verir - «xalqın və ya etnik birliyin müəyyən hissəsinin mənsub olduğu ölkənin hüdudlarından kənarda yaşaması».** (6; səh.68-69).

Onu da bildirmək lazımdır ki, diasporun yaranması üçün mühacirət prosesi mütləq baş verməlidir. Çünki hər hansı bir xalqın diasporu yalnız iki üsulla təşəkkül tapıb formalaşır ki, bunlardan da birincisi, həmin xalqın nümayəndələrinin öz ölkəsinin etnik torpaqlarının hüdudlarından kənara mühacirət



etməsi, ikincisi isə onun artıq xaricdə olan hissəsinin təbii-bioloji yolla artıb çoxalmasıdır. Lakin burada qətiyyən nəzərdən qaçırmaq olmaz ki, bu proseslərin ilkin şərhini və əhəmiyyətli çıxış nöqtəsini məhz mühacirət aktının baş verməsi təşkil edir. Əgər diasporu yarada biləcək səviyyədə mühacirət aktı (prosesi) baş verməsə, onda hər hansı diasporun təşəkkül tapıb formalaşmasından danışmaq yersiz olardı. Diasporun formalaşma və mövcud olma tarixi öz başlanğıcını məhz mühacirət hallarının kütləvi xarakter olmasından götürür. Bu da öz növbəsində diasporun istər-istəməz yaranıb ortaya çıxmasını zəruri və qaçılmaz edir. Özü də bu zaman xaricdə olanların, mühacirət edənlərin məhz diaspor şəklində fəaliyyət göstərib-göstərməməsinin heç bir prinsipial əhəmiyyəti olmur və mövcud vəziyyətin dəyişməsinə ehtiyac duyulmur. Bu halda ki, onlar öz ölkələrindən mühacirət ediblər, yəni səpələniblər, dağılıblar, deməli, öz-özlüyündə aydındır ki, onlar məhz diasporun nümayəndələridir. (2; səh.12).

Mühacirət aktının diasporun meydana gəlməsində ilkin və əsas şərt olduğunu nəzərə alaraq bu mənada demək olar ki, Fransa, İsveçrə və Hollandiyadakı almanları, Bolqarıstandakı türkləri, İsveçdəki fransızları da diaspor hesab etmək yanlış olardı. Onlar bu ölkələrdə konkret tarixi-siyasi səbəblər ucbatından baş vermiş irimiqyaslı ictimai-siyasi dəyişikliklər və coğrafi-siyasi sərhədlərin yenidən qurulması nəticəsində birdəfəlik olaraq qalmışlar (lakin səpələnmiş və dağılmışlar) . (7; səh.333).

Son illər «diaspor» termini əvvəlki işlərə nisbətdə daha geniş mənada işlənməyə başlanmışdır. Müasir dövrdə diasporlaşdırma fenomenini şərh edərkən hansı milli azlıqların

diaspor kimi qəbul edilməsi üçün aşağıdakı kateqoriyaları bir-birindən fərqləndirmək lazımdır:

***1) Diaspor, 2) Mühacirət, 3) Müstəmləkələşdirmə, 4) Xalq, Dövlət sərhədlərilə iki hissəyə parçalanmış xalq (məs. Cənubi və Şimali Azərbaycan), 5) Müstəqil dövlətinə malik olmayan xalq, 6) Səpələnmə halında yaşayıb, önlərinə dövlət qurmaq məqsədi qoymayan xalq (qaraçılar), 7) Xalq və ya etnik qrup hansı ki, öz tarixi vətənilə əlaqələrini itirmişdir. (Amerikanın qara dərili əhalisi) (8; səh. 34).***

Yuxarıda adları sadalanan kateqoriyalar içərisində mühacirət bir çox cəhətdən diaspor ilə oxşardır, ancaq mühacirət bütün göstəricilərinə görə diaspordan geniş masştablıdır. Tarixin gedişi nəticəsində mühacirət diaspora transformalaşa bilər. (7; səh. 334).

Diasporun formalaşması - uzunmüddətli prosesdir, lakin tarixin gedişi zamanı diaspor adları çəkilən kateqoriyalardan özünə icma seçə bilər. Ancaq diaspor anlayışının özündə də müəyyən fərqlər vardır və diaspor anlayışının məhz bu cür şərhindən aydınca görünür ki, bu terminin müasir interpretasiyası onun hərfi tərcüməsindən alınan mənadan bir qədər fərqləndirən strukturun əhatə dairəsini qismən məhdudlaşdırır. Belə ki, adı çəkilən anlayışın müasir şərhi diaspor adlandırdığımız strukturu sosial-siyasi və milli-ictimai mədəni fəallıq baxımından aktiv elitar və passiv potensial təbəqələrə bölməyi tələb edir. Bu şərhlərə görə, birinci təbəqəyə nüfuzlu elmi-intellektual güclər, geniş imkanlara malik olanlar, ikinci təbəqəyə isə bir o qədər də fəal, və imkanlı olmayanlar daxil edilir. (9; səh. 299-300).

Bu məsələ bu kateqoriyadan olanların diaspor hesab edilib-



edilməməsində heç bir rol oynamır. Elə buradan da çıxış edib deməliyik ki, diaspor süni şəkildə və kənardan yaradıla bilməz, o, öz-özlüyündə mövcuddur və onun mövcudluğu öz başlanğıcını bu qurumu yaradanların öz ölkəsinin xaricinə köçüb yeni yerlərdə məskunlaşmasından götürür. (10; səh. 133)

Qeyd edildiyi kimi çox zaman " diaspor" və "lobbi" terminlərini bir mənada qələmə verərək bu iki termin arasında oxşarlıq axtarırlar. Düzdür, bu iki struktur və onların fəaliyyətinin məzmunu və xarakteri arasındakı bütün oxşarlıqlara baxmayaraq lobbi diaspora demək deyil. **Çünki lobbi bilavasitə öz dövlətinin daha yüksək səviyyəli siyasi elitasına, diaspor isə ən yaxşı halda məhz lobbinin özünə təsir göstərib onu yönəldir.** (9; səh. 301-302).

Bəs "lobbi" və "diaspor"anlayışları arasında fərqli və oxşar cəhətlər hansıdır?

Lobbi terminin yeri gəldi-gəlmədi, işlətmək məqbul deyil və hətta yanlışdır. Məsələn, bu gün İtaliya, Böyük Britaniya, yaxud Almaniyada lobbi axtarmaq bir çox aspektlərdən məntiqsiz görünə bilər. Çünki Avropa ölkələrinin dövlətçilik ənənələri, siyasi idarəetmə institutları ondakı mövcud siyasi əxlaq və mədəniyyət, demokratik dəyərlər sistemi ABŞ-dakı analoji sistemlərdən fərqlidir. Bu da klassik lobbizm ənənələri baxımından məsələyə baxdıqda buradakı, Avropa dövlətlərində lobbizmlə məşğul olmaq, mövcud sistemlə əlaqədardır. ABŞ-da isə lobbiçiliklə məşğul olan iqtisadi qruplaşmalar və siyasi dairələr üçün bu cür maneələr sadəcə olaraq yoxdur. Hər şeydən əvvəl bu ABŞ-da dövlətin, dövlətçilik, idarəetmə və siyasi hakimiyyət ənənələrinin təşəkkülü və formalaşması prosesinin spesifik sosial-siyasi-

iqtisadi-ictimai şərtlər çərçivəsində baş verməsilə bağlıdır. (10; səh. 134).

Buna tam əmin olmaq üçün «lobbi» anlayışının hərfi tərcüməsinə nəzər salmaq kifayətdir. **İngilis dilindən alınan «Lobby» sözünün hərfi tərcüməsi " üstü örtülü gəzinti meydançası kuluar, vestibül, dəhliz, koridor" - mənasını verir.** (11; səh.26-27).

Lobbi termini 1553- cü ildə monastrlarda gözətçi meydançası kimi, 100 il sonra isə İngiltərədə parlamentin icmalar palatasında parlament üzvlərinin kəzinti meydançası kimi işlədilməyə başladı. Bu termin siyasi mənada daha aktiv olaraq 300 il sonra Amerika Birləşmiş Ştatlarında müxtəlif maraqların «müdafiəçisi» olan maliyyə və siyasət kuluarlarında siyasi mənada işlədilməyə başlandı. Yəni "lobbiləşmə" Konqresin dəhlizləriində pulla səs almağı bildirirdi. Bu barədə çoxlu fikirlər olsa da, bir çox mütəxəssislər sübut etmişlər ki, lobbizmin əlaqələri U.S.Qrantın (1869-1877) prezidentliyi dövrünə təsadüf edir. Amerikanın 18-ci prezidenti və onun komandası hər gün işdən sonra otellərin birində "**lobbi**" adlanan vestibüldə dincəlməyi xoşlayırdılar.

Daha sonralar isə Amerikada 1946-cı ildən lobbizmin Ədliyyə Nazirliyində qeydə alınması və qanunvericilikdə maliyyə nəzarəti altına keçməsindən sonra lobbi termini keniş mənada işlənməyə başlanmışdır. (12; internet məlumatı).

Bu da öz növbəsində ABŞ-ın siyasi terminlər leksikonunda parlamentdə nümayəndələrin, senatorların görüşməsi, fikir mübadiləsi aparması və s. üçün iclas zalı xaricində olan otaqlar kimi nəzərdə tutulur. (13; səh. 186)

«Lobbi» və «lobbiçilik» məfhumları hazırkı, müasir kütləvi



təcirdə kifayət qədər təkmilləşdirilmiş şəkildə hər hansı bir dövlətin mənafe və maraqlarını başqa bir ölkədə, əsasən ABŞ-da daşıyıcısı olan və ABŞ Konqresinin üzvlərini bu və ya digər qərarı qəbul etməyə sövq və məcbur edən xücusi adamlar qrupu kimi başa düşülür.

Lobbinin əsas funksiyası diasporun qarşısında duran vəzifələrlə prinsip etibarı ilə üst-üstə düşür və demək olar ki, kəsişir. Belə ki, lobbinin missiyası diasporunku kimidir, ictimai vəkili və müdafiəçisi olduğu xalq-dövlət haqqında ABŞ-da ictimai fikirdə, eləcə də beynəlxalq aləmin ictimai fikrində müsbət rəy formalaşdırmaq, həmin xalqı-dövləti ən müxtəlif üsullarla təbliğ edib tanıtmaq və ona qarşı rəğbət oyatmaq lazımdır. Öz ölkəsi ilə müdafiəçisi olduğu xalqın ölkəsi arasında hərtərəfli normal əlaqələrin yaradılmasına və ya mövcud əlaqələrin gücləndirilməsinə çalışmaq, ölkəsinin qlobal milli torpaqlarına zərbə vurmadan başqa cür ölkənin də milli mənafelərini müdafiə etməkdir. (14; səh.3)

Burada digər, ikinci mühüm oxşarlıq ondan ibarətdir ki, diasporun da, lobbinin də aparıcı qüvvəsini bir qayda olaraq orta və yuxarı təbəqələrdən olan ziyalılar, iş adamları, vəkillər, elm, mədəniyyət və incəsənət xadimləri, Kütləvi İnformasya Vasitələri işçiləri, orta məmurlar və digərləri təşkil edir.

Lobbi diasporun fəal iştirakı olmadan da yaradıla bilər. Bu halda həmin işin ağırlığığın bunda maraqlı olan dövlətin özü öz üzərinə götürməlidir. Əldə olunan təcrübə bu variantın daha səmərəli və etibarlı (uzunmüddətli) olduğu sübuta yetirilib. ABŞ-dakı Səudiyyə Ərəbistanı, Küveyt və s. lobbisi belə təşəkkül tapıb formalaşmışdır. Bundan başqa ABŞ-da güclü olan və ictimai fikrə təsir etmə dairəsi və fəaliyyətinə görə

prespektivli və təlimatlı model üzrə getməkdə olan erməni, yəhudi, yunan, çin, polyak, yapon lobbiləri bu ölkədəki müvafiq diasporların səmərəli və məqsədyönlü ictimai-siyasi fəaliyyətinin məhsuludur. ( 11; səh. 605).

Lobbi nümayəndələrinin bir qayda olaraq (əslində isə mütləq) məhz başqa millətlərə mənsub şəxslərdən ibarət olması faktı lobbi və diaspor arasındakı ikinci mühüm və prinsipial fərqi təşkil edir. Bu isə lobbi fəaliyyətinin yüksək faydalı əmsalını şərtləndirən ən başlıca cəhətlərindən biridir. Məsəl üçün erməni diasporunu və çin diasporunu götürək. Konqres və Senatda onların lobbisini təmsil edən qeyri-millətlər Çin və Ermənistan tərəfindən güclü maliyyə yardımları alırlar. Buna aid olaraq başqa diasporların da fəaliyyətini misal göstərmək olar. ABŞ-da fəaliyyət göstərən güclü diasporlardan italyanları, yəhudiləri, irlandları, çinliləri, erməniləri, yunanları, afrikalıları, yaponları, polyakları, türkləri və s. olaraq yenicə formalaşmağa başlayan diasporları gürcü, ukrayna, çex, rumın və s. ilə yanaşı azərbaycanlıları da misal göstərmək olar. Bütün bu diasporlar beynəlxalq həyatda tutduqları alternativ və perspektivli model üzrə fəaliyyət göstərərək ABŞ-da yaşayan digər millətlərlə qaynayıb-qarışaraq, mədəni etnik və siyasi fikirlərini ictimai rəydə müsbət istiqamətdə tanıtmaqla məşğuldurlar. Diasporlar özlərinin bütün iqtisadi, hüquqi, siyasi vasitələrdən istifadə etməklə ABŞ-tərəfindən öz vətənlərinə hərbi, humanitar, iqtisadi maliyyə yardımı göstərilməsinə çalışırlar. ABŞ-dakı diasporların əsas vəzifələri öz vətənləri barədə ictimai fikirdə müsbət rəy yaratmaqla öz mədəniyyətləri, müxtəlif sahədəki uğurlarını, həyat təzyiqi yaymaqla, öz lehlərinə təbliğat aparmaq, ABŞ-la öz ölkələri arasında münasibətləri



yaxşılaşdırmağa çalışırlar.Amerikada diasporların məskunlaşmasına görə seçilən yəhudi diasporuna bənzər dörd diaspor xüsusi ilə seçilir.***1)19-cu əsrin ortalarında zəncilərin qul ticarəti məqsədi ilə Amerika qitəsinə gətirilən Afrika diasporu.2) 1848-52-ci illərdə İngilis siyasəti nəticəsi olaraq İrlandların Amerikaya mühacirəti. 3)1915-16-cı illərdən sonra Amerikaya axını güclənən Erməni diasporu. 4)1948-ci ildə İsrail dövləti elan edildikdən sonra Amerikaya və Yaxın Şərqin müxtəlif ölkələrinə səpələnən Fələstin diasporu. (15; səh. 116).***

ABŞ-da məskunlaşmış və fəaliyyət göstərən diasporlar arasında da qarşıdurma mövcuddur və bu diasporlar arasında olan konflikt ABŞ-ın siyasi dairələrində də narahatçılıq hissilə qəbul edilir. Xüsusilə İkinci Dünya müharibəsindən sonra ABŞ-a mühacirət edənlər burada mərkəzləşmiş diaspor cəmiyyətlərində birləşərək dövlətlərinin mənafeləri üçün bütün vasitələrdən istifadə edirlər. (16; səh.289).

Xüsusilə ABŞ-da 1970-ci illərdən sonra güclənməyə başlayan yunan və türk diasporları arasında olan qarşıdurmanın konflikt halına gəlib çıxmaması üçün Amerika daxili siyasətində bu iki diaspor üçün müəyyən güzəştlərə getməli olur. Xüsusən türk-yunan diasporları arasında qarşıdurma 1974-cü ildə Türkiyə tərəfindən Kiprin Qüzey hissəsinin azad olunub burada Qüzey Kıprız Türk Cümhuriyyətinin qurulmasından sonra daha da kəskinləşdi. Bu günə qədər də ABŞ-da yaşayan 7 milyona yaxın yunan diasporu türk diasporu ilə münasibətdə düşmən mövqedə durmuşdur. ABŞ-da isə son illər ərzində türk diasporu güclənməyə başlamış və güclü yunan və digər diasporlara qarşı öz sözünü söyləmək qüvvəsini əldə etmişdir. Son məlumatlara görə ABŞ-da türkcə

danışan xalqların 50-dən artıq cəmiyyəti vardır. Bu cəmiyyətlər iki böyük federasiya halında birləşmişlər. **Türk-Amerikan Assosiasiyasının** fəaliyyəti ABŞ-dakı türk diasporu ilə bağlı işlərin görülməsinə yönəldilib.(17; səh. 122).

ABŞ-da digər diasporlardan Şərqi Avropa diasporunun da özünəməxsus nüfuzu və təsiretmə gücü vardır. ABŞ-ın özündə Şərqi Avropa diasporlarına xüsusi hörmətlə yanaşılır və buna da əsas səbəb bu diasporun üzvlərinin sovet rejimi əleyhinə çıxanların təşkil etməsidir. 1959-cu ildə ABŞ Konqresində iyul ayının birinci həftəsini Şərqi Avropa və Baltik günü elan edilməsi ABŞ-ın özündə bu dövlətlərə və bu dövlətlərin diasporlarına hörmət edilməsinin bariz nümunəsidir. Xüsusilə son 12 ilin hadisələri nəticəsində Şərqi Avropa və Baltik dövlətlərinin müstəqillik əldə etməsindən sonra dövlət-diaspor münasibətlərinin yüksək səviyyədə təşkil edilməsi nəticəsində Şərqi Avropa və Baltik diasporunun ABŞ-da möhkəmlənməsinə şərait yaradılmışdır. (9; səh. 304)

ABŞ-da fəaliyyət göstərən digər diasporlar barədə də geniş yazmaq olar. Ancaq, ABŞ-da fəaliyyət göstərən 3 diaspor - yəhudi, erməni və azərbaycan diasporu barədə yazmaqla bu üç diaspor arasında olan münasibətlər və qarşıdurmaların ABŞ-ın özündə narahatçılıq hissi ilə qarşılanmasının tarixini və müasir dövrdəki fəaliyyəti barədə həqiqətlərin aşkara çıxarılmasıdır. Mühacirlərin oxşar təcrübəsi ilə ümumi xatirələrlə birləşmiş olan Amerikanın yəhudi və erməni diasporları tarixi vətənlərinin maraqları müdafiəsi üzrə ABŞ-ın xarici siyasət çarpışmalarında bəzən çiyin-çiyinə, bəzən də bir-birlərinin əleyhinə mübarizə aparmışlar. (17; səh. 125).

Yəhudilərin Amerikada məskunlaşması ermənilərdən öncə olmuşdursa, Amerikada hər iki diasporun vahid bir siyasi xətt



üzrə formalaşması, yəni burada ictimai fikirdə özləri və tarixi vətənləri üçün müsbət fikir oyatma və ABŞ-la öz ölkələri arasında olan münasibətlərin yaxşılaşdırması və ölkələri mənafeyi uğrunda apardıqları mübarizə xətti eyni olmuşdur. Yəhudilər burada diasporun köməkliyi ilə İsrail dövlətinin qurulması uğrunda mübarizə aparması və İsrailin qüvvətlənməsi, Amerika tərəfindən İsrailə hərbi, humanitar və iqtisadi yardım göstərilməsinə çalışdıqları kimi, erməni diasporu da həmçinin eyni xətti tutaraq Ermənistanın mənafeyini müdafiə edirlər. Təəssüf ki, biz azərbaycan diasporunun Amerikadakı fəaliyyəti ilə bağlı bu sözləri deyə bilmərik. Azərbaycan diasporu Amerikada fəaliyyət dərəcəsinə görə ermənilərə xeyli güzəştə gedir və bir çox məsələlərin həll edilməsi yolunda siyasi mübarizədə passivlik göstərməklə çox zaman uduzur. Son zamanlar isə Amerikada azərbaycan diasporunun yəhudi diasporu tərəfindən dəstəklənməsi Amerikadakı erməni diasporu və Kapitoli təpəsində «xeyli vəlvələyə» səbəb olmuşdur. Çünki bu iki diaspor əvvəllər heç zaman elə bir vəziyyətə düşməmişdir ki, üçüncü tərəfin maraqları əngələ çevriləydi. (18; səh.4).

Biz Amerikada fəaliyyət göstərən və getdikcə də fəaliyyət dairəsini Amerikadan kənarda da genişləndirən yəhudi və erməni diasporu ilə yanaşı yeni-yeni güclənən azərbaycan diasporu barədə də demək olar ki, tam məlumatsızıq. Araşdırmalar nəticəsində əldə olunan bu üç diaspor barədə məlumatlar aşağıdakı ardıcıllıqla qeyd edilir.

## Yəhudi diasporu

«Diaspor»- termini ilk dəfə eramızdan əvvəl 6- cı əsrdə Anadolu və Ağdəniz ərazilərində yaşayan yunanların iqtisadi səbəblər nəticəsində bu ərazilərdən köç edib müasir Yunanıstan ərazisində diaspor halında yaşamasından sonra işlədilməyə başlanıb. Ancaq, tarixi baxımdan «diaspor» termini qədim yəhudilərə aid edilir. Eramızdan əvvəl 8-ci əsrdə Assuriya çarı II Sorqon tərəfindən İsrail çarlığının paytaxtı Samariyanın işğalından sonra vətənlərindən qovulub digər ərazilərdə yerləşən qədim yəhudilər bu ərazilərdə icma halında birləşərək «diaspor»-ların yaratmışlar. Ancaq, yəhudilərin geniş şəkildə digər ərazilərdə diaspor kimi formalaşmasına Babilistan çarı II Navuhadonosar tərəfindən eramızdan əvvəl 586-cı ildə İudeya çarlığının paytaxtı Yerusəlimin işğal edilməsindən sonra yəhudilərin kütləvi surətdə Babilistana və buna yaxın ərazilərə sürgün edilməsi səbəb idi. (19; səh.305-306).

Daha sonra yəhudilərin səpələnib digər ölkələrdə diaspor halında fəaliyyət göstərməsi romalılar tərəfindən eramızın 60-70-ci illərində Yerusəlimin işğalından sonra Fələstindən kənarda zorla yerləşdirilməsi səbəb olmuşdur. (6; səh.69-70).

Bu hadisələrdən sonra 6-cı əsrə qədər hökmranlıq edən xaçpərəstlər antiiudey qonşularla öz torpaqlarında milli azlıq kimi yaşayırdılar Ərəbistanda İslam dininin təşəkkül tapmasından sonra Fələstin və digər ərazilər ərəblərin nəzarəti altında keçdi. Birinci xaç yürüşlərinə qədər (XI əsr) İsraildə yəhudilərin sayı olduqca azalmış idi.

Baş verən hadisələr proseslərində yəhudilər diaspor halında məskunlaşdıqları ərazilərdə qapalı həyat sürməklə yanaşı özlərinə heç bir xalqı yaxın buraxmırdılar. Məskunlaşdıqları ərazilərdə isə assimlasiyaya məruz qalmamaq üçün yerli **ləhcəylə** öz dillərini birləşdirirdilər.



Belə ki, Almaniyada məskunlaşanlar idiş, Sefardimlar-İspaniyaya mühacirət edən yəhudilər; yəhudi-ispan, məğrib ölkələrinin yəhudiləri isə yəhudi-ərəb dillərində danışırdılar. (20; səh.11-12).

Tarixin gedişi dövrdə yəhudi diasporu Amerika kəşf edilənə qədər Avropada və Asiyada məskunlaşaraq etnik yekcinslik, dini və siyasi qəbuledilməzlik vasitəsi kimi müəyyən maneələrlə qarşılaşmış və bu cəhətdən qəbul olunmadığı halda Böyük Britaniya koloniyalarında siyasi azadlıq ənənələrilə tanış olan yəhudilər müxtəlif mühacirələrlə birlikdə öz mədəniyyətlərini sürətlə inkişaf etdirməyə, yəhudi lobbizminin rüşeymlərini seçməyə başladılar (21; səh.509).

Yəhudilik tarixinin və yəhudi həyatının digər mühüm faktorlarından biri də Amerika kəşf edildikdən sonra Şərqi Avropadan və digər ərazilərdən okeanın o tayına doğru hərəkət edən mühacirət axını olmuşdur. Bu ərazilərdə yeni siyasi və mədəni şərtlər zəminində yəhudi həyatının və yəhudi diasporunun yeni mərkəzlərinin yaradılmasına şərait yaratdı. (22; səh.251).

Yeni Dünya-Amerikanın kəşf edilməsində də yəhudilərin xüsusi rolu olmuşdur.Məhz kral xəzinadarı olan yəhudi Qabriel Sanxes kralı və kraliça İzabellanı Xrstofor Kolumbun bu səyahətinin onlar üçün əhəmiyətli olduğuna inandıra bilmişdir.Kolumbun səyahəti zamanı astronomik əşyaları və dəniz xəritələrin maliyyələşdirən Qabriel Sanxes Alonzo de la Kalle ilə birgə kralın nümayəndəsi kimi, digər yəhudilər Luis de Torres tərcüməçi, Marko feldşer, Bernan

isə həkim kimi onu müşayət etmişlər.İlk dəfə olaraq Amerika qitəsinə ayaq basan Kolumbun tərcüməçisi Luis de Torres olmuşdur.

İlk dəfə olaraq ABŞ-a kütləvi şəkildə 1495-cü ildə köçən yəhudi mühacirləri Yeni Amsterdam (Nyu-York)da məskunlaşmışlar. Burada ilk yəhudi diasporunun təməlini quran yəhudilər Amerikanın digər şəhərlərində yerləşərək yəhudi təsirini, yəhudi nüfuzunu şəhərlərin sosial-iqtisadi həyatında yəhudi məfhumunun böyütdüyü kimi, eləcə də bu şəhərlərin məxsus olduğu ölkələrdə də bu qanunauyğunluğun təcəssüm etdirilməsinə zəmin yaratmışdır, başqa sözlə desək, yəhudi diasporunun ölkənin ictimai-siyasi həyatında nüfuzunu labüd etmişdir. (23;səh.132).

XIX əsrin sonu XX əsrin əvvəllərinə qədər ABŞ-da yəhudi diasporuna xüsusi əhəmiyyət verilmirdi. Lakin yəhudi əhalisinin sayının (dünyada) nəzərə çarpması, eyni zamanda dünyanın müxtəlif ölkələrindən yəhudi mühacirətinin ABŞ-a axını, Amerikada antisemitizmin güclənməsinə səbəb olmuşdur. Yəhudi diasporunun varlı təbəqəsinin ABŞ-ın maliyyə müəssisələrində rəhbərlik əldə etməsi və bununla da ölkənin iqtisadiyyatında mühüm təcir etmə qüvvəsinə malik olması, Amerikanın maliyyə dairələrində narazıçılıqla qarşılaşırdı. Xüsusilə yəhudi diasporunun Amerikada güclənməsinin əleyhdarlarından avtomobil maqnatı Henri Ford seçilirdi.

Fordun maliyyəsi ilə ölkədəki antisemitist hərəkat müxtəlif şəhərlərdə güclənirdi. Fordun bir sıra əsərlərində yəhudilər dünyada şər qüvvələrin təmsilçisi kimi göstərilir.(24; səh.11-12).

Lakin bütün bunlara baxmayaraq yəhudi diasporu



qüvvətlənir və fəaliyyət dairəsini daha da genişləndirirdi. 1881-ci ildən 1924-cü ilə qədər ABŞ-da mühacirət nəticəsində 3 milyon 500 min yəhudi məskunlaşmışdı və bunlar yəhudi diasporunun əsas hissəsini təşkil edirdilər. Cahan müharibəsinin qurtarmasından sonra (1918) dünyada yəhudi əhalisinin sayına görə fərqlənən dövlətlər içərisindən 1-ci yeri ABŞ tuturdu. Daha sonrakı yerləri Polşa, Rusiya, Almaniya tuturdu. Bundan başqa yəhudilər Cənubi və Mərkəzi Amerikada, Avstraliyada da məskunlaşaraq yəhudi disporunu burada gücləndirmişlər. Yəhudilərin ərəb-müsəlman ölkələrindən isə Avropa və Amerikaya mühacirəti geniş vüsət almışdır. Güclü dövlətlərdə yəhudi diasporu yəhudi təsirini gücləndirməklə bərabər yəhudilərin yeni həyat şəraitinə uyğunlaşmaq bacarığını və mobilliyini (sürətlə hərəkət etmə qabiliyyətini) nümayiş etdirirdi və yəhudilik tarixində nəinki onların dövlətinin yaradılmasının, hətta dövlətçiliyin dayaqlarının möhkəmlənməsinin labüdlüyünü və bu aspektdə lobbizm fəaliyyətinin danılmazlığını sübut etdi. (25; səh.134).

ABŞ-da yəhudi diasporunun bu ölkədə və dünyada güclü fəaliyyət göstərən bir neçə iri təşkilatları və cəmiyyətləri də mövcuddur. Bu təşkilat və cəmiyyətlərin vəzifələri dünyada və Amerikada diasporun fəaliyyətini gücləndirmək, yəhudi millətı arasında təşkilatlandırma işi aparmaq, həmin ölkələrdə olan yəhudi icmalarına sionizmin, yəhudi millətçiliyinin əsas məqsəd və məramlarını aşılamaq, müvafiq dövlətin yəhudi diasporunun sosial-siyasi iqtisadi mühitinə təsirini gücləndirmək, həmin dövlətin maliyyə strukturlarından «bərk-bərk yapışmaq», icmalar arasında institutlar təşkil etmək və bu institutlarda milli şüurun yüksəldilməsi, gələcək yəhudi icmaları üçün yeni əsaslar hazırlamaq və bu ideyanı həm

yəhudilər, həm də qeyri-yəhudilər arasında təbliğ etmək və s. bu kimi işlər görmək idi (26; səh.140).

Amerikada fəaliyyət göstərən yəhudi diasporunun aşağıdakı təşkilat və cəmiyyətləri qarşılarına qoyduğu məqsəd və vəzifələrin öhdəsindən uğurla gəlirlər.

*1. "Birləşmiş Yəhudi Çağrışı" (Yu-Ci-Ey)* 1938-ci ildə Almaniyada yəhudilərə qarşı tarixdə «Billur gecə» adı altında qalan törədilən hərəkatdan sonra yaradılmışdır. Bu təşkilatın əsas fəaliyyət istiqaməti İsrailə yardım kompaniyasına rəhbərlik etməkdir. ABŞ-da fəaliyyət göstərən bütün yəhudi diasporu bu təşkilatın kompaniyasında daima iştirak edir və hər il ən azı 700 milyon dollar İsrailə yardım edilir.

2. *"İctimai İşlər Üzrə Amerika-İsrail Komitəsi" (Ey-Ay-Pi-Ey-Si)* 1940-cı ildə yaradılıb. Bu təşkilatın əsas fəaliyyət istiqamətini İsrail yönlü lobbiçiliklə məşğul olmaqdır. Ağ ev və Konqresdə güclü təcir qüvvəsinə malik olan bu təşkilat İsrailin mənafeyini yetərincə müdafiə edir.

3 *"Antidiffamision Liqa" (Ey-Di-Ei)* - Amerika və dünyanın digər ölkələrində antisemit qüvvələrə və birliklərə qarşı mübarizə aparır. Xüsusi ilə ku-klus-klan və rasist yönümlü qruplara qarşı güclü müdafiə və əks tədbir qüvvəsinə malikdir.

4 *"Bney-Brit" (niyyət oğulları)* 1843-cü ildə yaradılmışdır. Bu cəmiyyətin əsasını Almaniyadan köçmüş yəhudi mühacirləri təşkil edir. Bu cəmiyyətin əsas fəaliyyət istiqaməti yəhudi gəncləri və yəhudi diasporu arasında maarifçilik və elmi, mədəni işlərlə məşğul olmaqdır. Eyni zamanda dünyadakı sinaqoq və dini cəmiyyətləri maliyyələşdirməkdir.



*5 "Amerikanın Əsas Yəhudi Təşkilatları Prezidentlərinin Konfederasijası" (Si-Pi-Em-Ci-Ou)* əsas fəaliyyət istiqaməti ümumdünya yəhudi diasporlarına rəhbərlik etmək və bu diasporları nəzarətdə saxlamaqdan ibarətdi.

6 *"Şimon Vizental Mərkəzi"* 1977-ci ildə yaradılıb. Əsas fəaliyyət istiqaməti müsəlman ölkələrində yəhudilərə qarşı antisemit və rasist fikirlərə və hərəkətlərə qarşı mübarizə aparmaqdır (27; səh.343-347).

Bu təşkilatlardan əlavə ***«Böhtanlara Qarşı Liqa»***, **«Sovet Yəhudiləri Üzrə Milli Konfrans»**, ***«Amerika Yəhudi Konqresi»***, ***«Yəhudi Milli Araşdırma Mərkəzi və Rəhbərliyi»*** və s. təşkilat və cəmiyyətlər də fəaliyyət göstərirlər.

Göründüyü kimi, İkinci Dünya müharibəsinə qədər yəhudi milləti həm mərkəzdə, də diasporda güclü iş aparırdı. Necə deyərlər, yəhudi milləti oyanmış idi və hərəkətdə idi. Lakin İkinci Dünya müharibəsi ərəfəsində Almaniyada hakimiyyətə gələn Adolf Hitlerin Avropada yəhudi icmalarının kütləvi məhv etməsi və bu kimi digər hadisələr, okeanarxası ərazilərdə yəhudi həyatının daha da güclənməsinə və eləcə də yəhudi mədəniyyətinin, başqa sözlə desək, «Qır qazanında» daha da sürətli qaynamasına zəmin yaratdı .(28; səh.613-614).

Almanlar tərəfindən genosidə məruz qalan yəhudilərin sayı İkinci Dünya müharibəsi nəticəsində 11-12 milyon nəfərə qədər azaldı. **«Yəhudi qəzası»nın sosioloji və psixoloji effekti təbii artımın azalmasına səbəb oldu.** Ancaq bütün bu çətinliklərə, dünyanın bir çox ölkələrində antiyəhudi sosial iqtisadi siyasətin yeridilməsinə baxmayaraq yəhudilər İkinci Dünya müharibəsindən sonra dünyanın ən böyük şəhərlərində

və sənaye mərkəzlərində yerləşərək və fəaliyyətlərini daha da genişləndirmişdilər. (29; səh54).

Yəhudi diasporunun strukturunda dərin dəyişikliklər İkinci Dünya müharibəsindən sonra baş verdi. Kütləvi aliya diasporun sionizm və müstəqil İsrail dövlətinə münasibətində dəyişiklik etməsinə şərait yaratdı. Bu gün yəhudi diasporu ölkələri 3 qrupa bölünüb:

***1. Yəhudi ailəsinin ailə tərkibinin azalıb, qarışıq nikah və siyasi-inzibati siyasət nəticəsində əvvəlki yəhudi əhalisinin saylarının az qaldığı ölkələr.***

***2. Yəhudilərin gedişi bir çox çətinliklərlə üzləşən və bu baş verərsə dünya ictimaiyyətinin təzyiqi və yəhudilərin mübarizəsi sayəsində həyata keçən ölkələr.***

***3. Sionist fəaliyyət azad olan və çətinliklərlə qarşılaşmayan ölkələr. Lakin bu ölkələrdə gələcək yəhudi icmaları assimilyasiyaya məruz qalır. (21; səh. 603***).

1-ci qrupa Polşa, Rumıniya və Macarıstan, 2-ci qrupa İslam ölkələri və keçmiş SSRİ, 3-cü qrupa isə Amerika, Avropa və Latın Amerikası aiddir.

Hal hazırda dünyada yəhudilərin sayı 15 milyona yaxındır.Bunların 34%-i İsraildə,50%-i Şimali və Cənubi Amerikaya, 45%-i Avropaya, qalan hissəsi isə müxtəlif ölkələrin payına düşür.

Müasir dövrdə yəhudilərin diaspora münasibəti müxtəlifdir. Sionistlər arasındakı debatlarda belə bir fikir səslənir ki, milli problemin həll edilməsi üçün diaspor və «muxtariyyət» tərəfdarı olan millətçilərlə qurtarmaq lazımdır. Diaspora olan bu fikir onunla əsaslandırılır ki, yəhudi səpələnmiş halda xalq kimi inkişaf edib yaşaya bilməz. Əgər yəhudi bir xalq kimi yaşamaq və digər mədəniyyətlər tərəfindən assimilyasiyaya



məruz qalmaması üçün mütləq diaspordan əl çəkməlidir. Əgər hər hansı bir yəhudi iudaizmdən assimilyasiya yolu ilə əl çəkmək istəyir qoy istədiyi kimi yaşasın, yox əgər assimilyasiyaya məruz qalmaq istəmirsə və bu xalq kimi qüdrətli dövlətə malik olmaq istəyirsə, vətənə qayıtsın. Ancaq, bu fikirlər arasında diaspora subyektiv baxanlar da mövcuddur. Onlar «muxtariyyət»in ancaq diasporda olacağı təqdirdə problemlərinin həll ediləcəklərinə inanırlar. (30; səh.52).

## Ermәni diasporu

Ermәni tarixini vә ermәni diasporunu öyrәnmәk asan deyil. Bu namәlum, çәtin vә mübahisәli mәsәlәlәrlә zәngindir. Ermәni diasporu barәdә dәqiq mәlumatlar demәk olar ki, yox dәrәcәsindәdir. Mәnşә etibarı ilә Hind-Avropa dillәr qrupuna daxil olan vә tarixi vәtәnlәrinә malik olmayan ermәnilәr bir yerdәn başqa yerә mühacirәt edәrәk yaşamışlar. (31; sәh.17).

Mәlumdur ki, ermәni tarixi ermәnilәr tәrәfindәn yazılmış vә öyrәnilmişdir. Elә bunun nәticәsidir ki, öz tarixlәrini yazan ermәnilәr keçmişlәrini vә onlar barәdә olan obyektiv fikirlәri gizlәtmişlәr. Ermәnilәr tarixlәrini öz bildiklәri kimi yazmış vә belә bir saxta konsepsiyanı irәli sürmüşdülәr ki, guya onlar dünyanın «әn qәdim sivil xalqıdırlar» vә bu «sivil xalqın dәnizdәn-dәnizә qәdәn uzanan böyük әrazilәri» olmuşdur. Ermәnilәrin diaspor halında digәr әrazilәrә sәpәlәnmәsinә isә «barbar köçәrilәr» olan türklәr, әrәblәr vә azәrilәr tәrәfindәn onların «qüdrәtli böyük Ermәnistanına» edilәn hücum vә basqınlar sәbәb olmuşdur. Ermәni tarixçilәrinin yazdıqlarına görә Qafqaz sıra dağlarının o biri tәrәfindәn Dәclә vә Fәrat çaylarının başlanğıcına qәdәr Qara dәnizdәn Xәzәr dәnizinә qәdәr qәdim Ermәnistan deyilәn yer olub. Samxetiya - haykların ölkәsindә isә erasi (gürcü) , barbar-türk vә Azәri cücәribsә o da ermәnilәrin tәqsiri ucbatından onlarca "pәyә sahәlәri" tutub vә daha sonradan onlara qarşı müharibәlәr aparmışlar. (32; sәh.304).

Tarixdәn mәlumdur ki, 66-cı ildә romalılar tәrәfindәn Tiqranın rәhbәrliyi ilә kiçik dövlәt olmuş vә daha sonra qısa zaman әrzindә içәrisindәn parçalanaraq öz köhnә әrazilәrini



belә itirәrmişlәr. Bir daha tarixdә müstәqil dövlәtә malik olmayaraq başqa dövlәtlәrin tәrkibindә knyazlıq kimi yaşayan ermәnilәr zamanla dünyanın müxtәlif regionlarına sәpәlәnmiş vә diasporlarını yaratmışlar.

Ermәnilәr vә yәhudilәr kimi әsrlәr boyu «diaspor xalqı» olmuşdur. Bu xalqın hәr ikisi dövlәt müstәqilliyinә, tarixi torpaqlarına malik olmamışlar. Bu iki xalq xarakterlәrinә görә daima digәr xalqlardan fәrqlәnmişlәr. Xarakterlәrinә görә yәhudilәr vә ermәnilәr nә qәdәr ki, bir-birlәrinә yaxındırlarsa, bir o qәdәr dә fәrqlәri vardır. Bu fәrq subyektiv xarakter daşıyır. Tarix elmlәri doktoru Dmitri Furman bu barәdә düzgün fikir söylәmişdir. **«Ermәnilәr bir diaspor xalqı kimi yәhudilәrә çox yaxındırlar. Ancaq ermәnilәrdә tarixi sәbәblәrdәn yaranan ümummilli «nevroz» vardır. Yәhudilәrdә isә belә nevroz yoxdur. Onlara nevrozdan qaçmağa dinlәri kömәk etmişdir.** (33; sәh.17).

İtaliyanın 20-ci illәrdә baş naziri olmuş Françesko Nittinin ermәni vә yunanları bir-birinә yaxın xalq hesab edirdi. Nittinin kitablarında vә memuarlarında ermәni vә yunanlar alverçi, sәlәmçi vә başqa xalqların hesabına yaşayan qәddar, yalançı, amansız, yaltaq xalq kimi qәlәmә verilir. Nitti qeyd edir ki, Avropa nә zaman Türkiyәdәn nә isә tәlәb edәndә mütlәq ermәni vә yunanlardan oyuncaq kimi istifadә edir.

İngilis Lordlar Palatasının üzvü ser Mark Sayks 1915-ci ildә Londanda nәşr etdirdiyi " Xәlifәnin sonrakı irsi" kitabında ermәnilәr düşüncәsiz,siyasi cinayәtlәr törәdәn vә başqalarına ziyan vurmaqdan hәzz alan qәddar, qaniçәn vә murdar millәt kimi qәlәmә verilir.

Ermәnilәrin bir çox alim vә tarixçilәri özlәri haqqında da

mənfi münasibətdə olmuşlar. **5-ci əsr erməni tarixçisi Movses Xorenatsi "biz haylar kiçik,azsaylı zəif və çox zaman özgəsinin hakimiyyəti altında olan xalqıq".**"Erməni xalqının tarixi" kitabında isə ermənilərin Zaqafqaziyada deyil məhz yuxarı Fərat və Dəclə vadisində məskunlaşdıqları qeyd olunur.Akademik M.Nalbadyan, M.Aqenbekyan və s.tarixçilərin əsərlərində də ermənilərin zəif xalq olması barədə yazılar vardır.

Eramızın 301-ci ilində ermənilərin xristianlığı qəbul etməsi nəticəsində erməni kilsəsi erməni diasporunun həyatında mühüm rol oynamağa başlamışdır. Kilsə bu gün də erməni diasporu üçün önəmli xarakter daşımaqla yanaşı, onları yönəldir və onlara daim rəhbərlik edir. Hətta diplomatik missiyanı daşıyan səfirlik rəhbərləri kilsənin razılığı olmadan heç bir addım ata bilməzlər.

Hələ Bizans dövründən ətraf regionlara səpələnən ermənilər iqtisadi cəhətdən güclü olan xristian dövlətlərində diaspor halında yaşayırdılar. VII əsrdən yaranan İslam dini zamanla Zaqafqaziyada da güclənməyə başladı. Şimali Qafqaz və Azərbaycandan fərqli olaraq İslam dinini qəbul etməyən erməni millətçiləri onlara məxsus riyakarlıq və ikibaşlı siyasət yeritmək sayəsində islamlaşma siyasətindən canlarını qurtara bilmişlər. Demək olar ki, «iki dünya» arasında (İslam və Xaçpərəst) yaşayan erməni diasporu bu iki dini qarşı-qarşıya qoymağa çalışmışlar. Daha çox Bizansda məskunlaşan erməni diasporu sayına görə digər ərazilərdə**kilərdən** yerləşməyə görə fərqlənirdilər. (34; səh121-122).

XI-XIV əsrlərdə erməni diasporu Misir, Suriya, Livana mühacirət edərək bu dövlətlərdə yerləşməyə başlamışlar. Erməni diasporunun iri koloniyaları Moldova və Macarıstanda



yerləşmişdir. XV əsrin əvvəllərindən isə ermənilərin Rusiya, Krım, Orta və Kiçik Asiyaya mühacirəti çoxalmış və erməni diasporları bu ərazilərdə məskunlaşaraq yerli əhali ilə yaxınlaşmağa başlamışlar. XVIII əsrin əvvəllərində isə Rusiya rəsmi olaraq ermənilərə sığınacaq vermişdir. Rusiya ərazisində məskunlaşmağa başlayan erməni diasporlarının iri koloniyaları Moskva, Həştərxan və Peterburq olmuşdur. Rusiyada güclənən erməni diasporu burada ictimai-siyasi işlərlə məşğul olmaqla yanaşı öz dillərində məktəb, mətbəə və teatrları açaraq öz mədəniyyətlərini yerli xalq içərisində təbliğ etməyə başlamışlar. (8;səh 36).

XIX əsrin əvvəllərindən başlayaraq ermənilər daha çox Amerikaya mühacirət etməyə başlamışlar. Xüsusilə Amerikanın iri şəhərlərində yerləşən erməni diasporları burada özlərinin bir neçə icma və birliklərinin yaratmışlar. Amerika missionerləri tərəfindən onlar üçün yaranan yaxşı şəraitdən istifadə edən ermənilər bu ölkədə bir çox məktəb, kitabxana, dini və mədəni cəmiyyətlər, universitetlərdə erməni dili və tarixi kafedraları açmışlar. Demək olar ki, bütün sahələrdə kadr yetişdirən erməni diasporu yəhudilərdən sonra Amerikada özlərinə müsbət imic qazanan etnik xalq olmağa çalışırdılar. (5; səh.13).

Təkcə 1920-ci ilə qədər 100000-dən çox erməni dünyanın müxtəlif regionlarından ABŞ-a mühacirət edərək bir-biri ilə sıx əlaqə yaradaraq Kaliforniya, Massaçusset, Boston, Nyu-York və s. şəhərlərdə məskunlaşmışlar. Ümumiyyətlə, müasir dövrdə Amerikada 1 milyona yaxın erməni yaşayır.(36; səh 13).

ABŞ-dakı erməni diasporu siyasi cəhətdən çox fəaldırlar. ABŞ ermənilərinin əksəriyyəti Respublikaçılar Partiyasının

üzvləri və tərəfdarlarıdırlar. Bu özünü ölkədə gedən seçkilər zamanı daha açıq şəkildə nəzərə çarpır. Amerikada Demokrat Partiyasının üzvləri olan erməni diasporunun üzvləri qubernator, senator və nəhayət prezident seçkiləri zamanı hamısı bir nəfərə qədər Respublikaçılar Partiyasına yazılır və seçkilər onların istəyi ilə sonuclananda təzədən ermənilər Demokrat Partiyasına geri qayıdırlar. (35; səh.5).

ABŞ-da erməni diasporu iki əsas istiqamətdə fəaliyyət göstərir.

**1 Erməni mədəniyyətini qorumaq və inkişaf etdirmək, ABŞ-da mühüm siyasi-iqtisadi mövqe qazanmaq.**

**2 Türkçülük əleyhinə mübarizə aparmaq, Türkiyə ilə ABŞ-ın münasibətlərini pozmaq.**

1973-85- ci illər arası erməni terrorunun gücləndiyi bir dövrdə dünyanın müxtəlif ölkələrində olan erməni diasporları "Dünya erməni konqresləri "adlanan 1979-cu il Paris,1983-cü il Lozanna və 1985-ci ildə Sevr şəhərlərində görüşlər keçirmişlər.Sevr görüşündə rahib Cames Karnuzyanın təklifi ilə " ümummili erməni konustitusiyası " qəbul edilmişdir.Başdan ayağa xülyalarla dolu olan bu konustitusiyanın əsas müddəaları aşağdakı kimidir

***Dağınıq halda olan ermənilərin birləşdirilməsi***

***Konqreslərin qərarlarını dünyada tanıtmaq***

***Türk işğalı altında olan erməni torpaqlarının geri alınması***

***Ermənilərin vətənə dönüşlərini təşkil etmək***

***ASALA-nı dəstəkləmək***

***Sovet Ermənistanında yaşayan ermənilərə köməklik göstərmək və erməni mədəniyyətini qoruduğuna görə Sovetlər Birliyinə təşəkkür elan etmək***



***Erməni mədəniyyətini dünyada tanıtmaq və** s .

ABŞ-dakı erməni diasporunun 100-dən çox milyoneri var. Bunlara misal olaraq yazıçı Vilyam Saroyan, Kaliforniya qubernatoru olmuş Corc Dükmacyan, Kirk Kirkoryan və s. göstərmək olar. Hazırda ABŞ-da fəaliyyət göstərən 18 erməni gündüz məktəbi, 30-dan artıq dövrü mətbuatı (bunlara misal olaraq ***«Hayrenik» («Vətən») «Armenian Uikli», «Asbarez», «Ararat»*** və s. göstərmək olar) fəaliyyət göstərir. Bunlarla yanaşı 4 elmi tədqiqat mərkəzi, 400-ə yaxın erməni təşkilatları, bir neçə kilsəsi və ***Sosial Demokrat «Hinçak» Partiyası, Erməni Demokratik Liberal Partiyası, Erməni İnqilab Partiyası və*** s. partiyaları fəaliyyət göstərir və ölkədəki ictimai-siyasi vəziyyətə təcir edə bilirlər. Daha çox aşağıdakı təşkilatlar sırf diaspor ilə əlaqədar olan lobbi fəaliyyəti ilə məşğul olurlar:

1 ***"Ermənilərin Amerika İcması"*** Diaspor ilə sıx əlaqə yaradaraq ölkədə təbliğat işilə məşğul olur. Xüsusi ilə Amerika ermənilərinin yerli mətbuatda təbliğ edilməsi və yerli mətbuat və televiziyaya yol axtarırlar.Bu təşkilatın 25 ölkədə 45 nümayəndiliyi vardır.

2 ***"Erməni Milli Cəmiyyəti"*** Vaşinqtonda yerləşir. Ölkə daxilində erməni diasporuna müsbət imic qazandırmaqdan ötəri lobbiçiliklə məşğul olur.

3 ***"Ermənilərin Milli Assambleyası"*** - birbaşa ölkə Konqresində lobbiçiliklə məşğul olmaqla, Amerikanın xarici siyasətinə təzyiq göstərərək Ermənistan və ABŞ arasında münasibətlərin yaxşılaşdırılmasına çalışırlar.

***4 "Amerikada Erməni Missioner Assosiasiyası"*** Bilavasitə erməni kilsəsinin rəhbərliyi altında: «xristian erməni qardaş və bacılar» - devizi altında ABŞ və dünyanın

xristian ölkələrinin Ermənistan yardımını təşkil edir və diaspora *«acı gələn xristianlar»* - imicini qazandırmağa çalışırlar.

5 "***Erməni Film Fondu***" kinobiznesində fəaliyyət göstərirlər. Mərkəzi Hollivuddadır. Bu sahədə müəyyən qədər nəzərə çarpacaq iz qoyan erməni diasporu məşhur kino ulduz və kino biznes sahəsində çalışanlarla erməni диаспору arasında əlaqə yaradırlar.

6 "***Erməni Kültür Assosiasiyası***" Amerikada erməni mədəniyyətini təbliğ edir və inkişaf etdirərək yerli əhali arasında özlərinə müsbət fikir qazanmaqla məşğul olur. Erməni sənətçilərinin ABŞ-da çıxışlarını himayə edir. (37; internet məlumatı).

Bundan başqa Amerikada erməni diasporunun « ***Yaxın Şərq Kültür Klubu»***, ***«Apapam- Erməni Evi»***, ***«Erməni Assosiasiyası»*** və s.də fəaliyyət göstərir.

Ancaq ABŞ-dakı erməni diaspor təşkilatları arasında da həmrəylik yoxdur. Erməni Assambleyası Ter-Petrosyan və onun mövqeyini müdafiə edirsə, erməni Milli Cəmiyyəti daşnakları müdafiə edir. Eyni zamanda diaspor ilə Ermənistan rəhbərliyi arasında sərhədlər dəqiq müəyyənləşməyib. Diasporun maraqları çox şeydə Amerikanın siyasi elitasının maraqlarıyla üst-üstə düşür. Lakin Ermənistanın siyasət və dövlət maraqları ABŞ və s. ölkələrin diasporlarına tamam ziddir. Erməni diasporu öz fəaliyyətini ABŞ-ın dövlət maraqlarına uyğun aparır. Ermənistan isə öz hərəkətləriylə bu maraqların əksinə çıxış edir. (38; səh.14).

Ancaq bütün bu didişmələrə və daxili çəkişmələrə baxmayaraq, ermənilər ümumi məqsədlər naminə daima həmrəydirlər. Ermənistanın diasporla olan ziddiyyətlərinə



baxmayaraq Ermənistan Xarici İşlər Nazirliyinin diaspor ilə əlaqələr departamenti fəaliyyət göstərir. 1999-cu ilin sentyabr ayında İrəvanda Dünya Ermənilərinin Konfransı keçirilib və burada erməni diasporu qarşısında dünya problemləri, dövlət ilə xaricədə yaşayan həmvətənlər arasında əlaqələrin genişlənməsini müdafiə edib. Onlar aşağıdakı məsələləri müzakirə edib gələcəkdə atacaqları addımları müəyyənləşdiriblər:

***1 İnformasiya mübadiləsi***

***2 İqtisadi əməkdaşlıq***

***3 Mədəni tədbirlər***

***4 Qarabağ məsələsi***

Son illər ərzində erməni diasporu ABŞ-da daha da fəallaşmış və erməni məsələləri üzrə işçi qrupu Nümayəndələr Palatasının ən səmərəli etnik diasporlarından birinə çevrilmişlər. Erməni diasporuna xidmət edən lobbi Konqresin 1996-98-ci il tərkibində 72 üzv və 1999-2000-ci il tərkibində bundan yalnız bir qədər az üzv toplanmışdır (39; səh3).

Lakin son zamanlar erməni diasporu Rusiya və İrandan daha da asılı vəziyyətə düşmüşdür. Bu da Amerikanın xarici siyasətinə uyğun gəlmir. Ancaq, ölkə daxilində ermənilərin nüfuzu və milyonları Amerika hökumətinə, tam imkan yaratmır ki, onlarla əlaqəni kəsərək Ermənistanın xarici siyasət kursunun hansı istiqamətdə yönələcəyini bilsin. Erməni diasporu isə hələ də fəaliyyətini genişləndirir və digər güclü lobbilərlə əlaqə yaradaraq Türkiyə və Azərbaycan əleyhinə təbliğat müharibəsində hələlik qələbə qazanmaqdadırlar. (34; səh.41-42).

## Azərbaycan diasporu

Xalqların tarixi inkişafının səviyyəsi, xüsusiyyətləri və istiqamətləri ilə sıx bağlı olan mühacirət prosesi, təbii ki, azərbaycanlılardan da yan keçməyib. Bu proses azərbaycanlıların timsalında XX əsrin əvvəllərindən ta bu günə qədər xüsusi ilə intensiv şəkildə davam etməkdədir. Heç də təsadüfi deyil ki, Azərbaycan xalqı özünün say-demoqrafik göstəriciləri baxımından həqiqətən də böyük diaspora malik xalq hesab edilə bilər - bu xalqın nümayəndələrindən hər 5 nəfərdən biri məhz mühacirətdə yaşayır və 10 milyonluq Azərbaycan diasporunu təşkil edir.

Azərbaycan diasporunun yaranmasına üç müxtəlif ölkənin vətəndaşı olan azərbaycanlılar - Şimali Azərbaycandan, Cənubi Azərbaycandan (İran) və Türkiyədən olan azərbaycanlı mühacir qrupları iştirak edirlər. Diasporumuz hazırda üçamilli bir sistemi kimi mövcuddur. Bu elementlər həmin sistemdə müəyyən mənada bərabər şəkildə və yanaşı mövcud olsalar da onların keyfiyyət göstəriciləri də, diaspor olaraq təsiretmə gücü, potensialı da həmin elementlərin sözügedən sistemdəki xüsusi rolu, çəkisi və yeri də fərqli təsir bağışlayır. Azərbaycanlı mühacirlərin əsas «ixracatı» olan həmin üç ölkə bir-birindən kəskin fərqlənən ictimai-siyasi, mədəni-mənəvi inkişaf səviyyəsinə fərqli sosial-mədəni xüsusiyyətlərə, malikdir. Bütün bunlar isə azərbaycanlıların nəinki mühacirət prosesinin özünə, eləcə də bugünkü azərbaycan diasporunun bütün cəhətlərinə, xarakterik xüsusiyyətlərinə, onun keyfiyyətinə, məzmununa öz ciddi və dəyişdirici təsirlərini buraxmışdır. (2; səh.10).



Diasporumuzun birinci cinahını dünyanın ayrı-ayrı ölkə və regionlarına Şimali Azərbaycandan səpələnən şimali azərbaycanlı mühacir qrupları təşkil edir. Sayca müəyyən bir qüvvəni təşkil edən şimali azərbaycanlılar tam nizamsız və pərakəndə şəkildə Qərb ölkələrinə səpələnmiş və bir çox səbəblər ucbatından demək olar ki, tamamilə qapalı bir həyat yaşamaqla, cüzi bir azlıq istisna olmaqla əksəriyyəti passiv mövqedə durmuşdur. 40-50-ci illərdən bəri Avropa və Amerika ölkələrində yaşayan həmin insanlar, mühacir dairələri özlərindən sonra azərbaycanlılar icmasını formalaşdıra bilmədilər. Yəni şimali azərbaycanlı mühacir qrupları diasporun bir nəslini, təbəqəsinin etno-sosial funksiyasını yerinə yetirməli olan xalis azərbaycanlı ailələri strukturundan məhrum idilər. (2; səh.12).

Şimali azərbaycanlıların Qərbə axınının növbəti dalğası 80-ci illərin sonu, 90-cı illərin əvvəllərini əhatə edir. Bu da 30-40-cı illər dövrü mühacirətindən sonra ikinci böyük mərhələsini təşkil edir. Bu proses çox da irimiqyaslı və əhatəli olmasa da hər halda davam etməkdədir.

Azərbaycan diasporunun ikinci ən böyük və mühüm qanadını Qərbdə hələ XX əsrin əvvəllərindən etibarən 5 böyük dalğa ilə səpələnən cənublu soydaşlarımız təşkil edir. Bu dalğalar, onların səbəbləri isə aşağıdakı kimi müəyyən edilir.

*1 - 20-ci illər - siyasi mühacirət dövrü.*

***2 - 20-40-cı illər - sosial iqtisadi xarakterli motivli mühacirət***

***3 - 50-ci illər - mürtəce hərbi diktatura rejiminə etiraz əlamətinə əsaslanan siyasi dalğa***

***4 - 60-70-ci illər - təhsil və təkmilləşmə məqsədi ilə bağlı***

***mühacirət***

***5 - 80-ci illərdən bəri ta bu günə qədər - İran inqilabından sonra başlanan rejimə siyasi etirazın total şəkil alaraq siyasi mühacir dalğalarının güclənməsinə səbəb olmuşdur. (41; səh.5).***

Azərbaycan diasporunun Cənubi azərbaycanlılardan ibarət qanadı özünün son dərəcədə ziddiyyətli, çoxşaxəli və çoxçalarlı olması ilə seçilir, bir çox aspektlərdən isə hətta idarəolunmaz kütlə təsiri bağışlayır. Bu təbəqənin daxilindəki münasibət və baxışlar o qədər də problemsiz deyildir. Burada açıq şəkildə toqquşan iqtisadi maraqlar, ideoloji-siyasi baxışlar və fikir cərəyanları sistemləri, Azərbaycan dövləti faktoruna çoxmənalı və ziddiyyətli münasibət əlamətləri vardır. Bu qanad bütövlükdə məhz xalis siyasi mühacirət sayılmalıdır. Çünki o, məhz sonuncunun parametrlərinə həddən artıq ziddiyyətli və çox problemli olmaq vəziyyətinə uyğun gəlir. (42; səh.10).

Diasporumuzun üçüncü mühüm cinahı Qərb ölkələrinə Türkiyədən mühacirət edərək müvəqqəti olaraq məskunlaşan, lakin hələ də geri qayıtmaq haqqında düşünməyən Türkiyə azərbaycanlılarından təşəkkül tapmışdır. Bu qrupdan olan azərbaycanlıları mühacirətə başlamasının konkret tarixi vardır - onların Qərbə kütləvi axını 50-ci illərin sonu - 60-cı illərin əvvəllərində başlamış və bu proses ta 70-ci illərin ortalarına qədər yalnız mərkəz xətt üzrə davam və inkişaf etmişdir. Türkiyəli azərbaycanlılarının mühacirəti icmalaşdırılmış, razılaşdırılmış, məqsədli mühacirət idi. Ancaq, Azərbaycan diasporunun bu cinahında məsələni mürəkkəbləşdirən iki mühüm məqam da nəzərdən qaçırılmamalıdır. Birinci - mühacirətdəki Türkiyə azərbaycanlıları azsavadlı və nisbətən



də avam olan kütlədir. İkincisi isə onların aparıcı faktoru türkiyəçilik kompleksidir (2; səh.15).

Diasporumuzun yayılma coğrafiyası bütövlükdə məlum olsa da, onun dəqiq sayı barədə konkret rəqəm söyləmək bu gün əslində mümkün deyildir. Çünki nə bizdə, nə də xaricdə belə bir hesablama işi indiyə qədər aparılmayıb və diasporumuzun statistik-demoqrafik mənzərəsi yaradılmayıb. Bütün qeyri-müəyyənlik hallarına baxmayaraq bütün bilavasitə mühacirətdə yaşayan azərbaycanlıların ümumi sayının təxminən 10 mln. nəfər olmasını söyləmək mümkündür. (43; səh.4).

Diasporumuzun Qərbdən başqa Yaxın və Orta Şərq, Aralıq dənizi hövzəsi və Şərqi Avropa regionlarına, hətta Hind-Çin, eləcə də Şimali Afrika ölkələrinə mühacirəti müşahidə edilməkdədir. Konkret Kanada, Almaniya, Amerika, Asiya ölkələri və s. dövlətlərdə yerləşmişdir.

Azərbaycan diasporunun çoxsaylı olduğu dövlətlər içərisində Amerika xüsusi yer tutur. ABŞ dünyada inkişaf etmiş dövlətlər içərisində liderliyini qoruyub saxlamaqla, eyni zamanda bura gələn mühacirlər nisbətinə görə də ön yerdədir. Azərbaycanlıların ABŞ-a mühacirəti XX əsrin əvvəllərindən başlamış və müasir dövrə qədər davam edir və güman ki, davam edəcəkdir. Son məlumatlara görə ABŞ-da yaşayan azərbaycanlıların sayı 3 milyona yaxındır və kompakt halda Kaliforniya, Nyu-Cersi, Nyu-York, Miçiqan, Los-Anceles və Vaşinqtonda yerləşərək diaspor halında fəaliyyət göstərirlər. Siyasət və idarəçilik sistemində sayları çox az olan Azərbaycan diasporu ən çox biznes və xidmət sferasında üstünlük təşkil edirlər. Bu da bir neçə mühüm faktorla sıx bağlıdır.(44; səh.7).

*1. Azərbaycan diasporu ABŞ-da azsaylı və gəncdir.*

*2. Diasporumuz daxili konsolidasiya mərhələsindədir və eyni zamanda diasporumuzun üzvlərinin Amerika ictimaiyyətinə adaptasiya və inteqrasiyası gedir.*

*3. Azərbaycan diasporu hələlik bu ictimaiyyətdə öz yerini tam olaraq müəyyənləşdirməyib.*

*4. Azərbaycan diasporunun tərkibi bir dövlətli deyil, yəni üstünlüyü türkiyəli və cənublu azərilər təşkil edir.*

*5. Bu üç diaspor qanadı arasında ümumi fikir yoxdur və onlar çox məsələdə ümumi dil tapa bilmirlər. (45; səh. 56-57).*

Lakin son zamanlar ABŞ ictimaiyyətində və siyasi maliyyə dairələrində Azərbaycana və Azərbaycan diasporuna münasibət müsbət istiqamətdə dəyişməkdədir. ABŞ-ın bu münasibətinə ilk olaraq pozitiv əlaqələr daxildir. 1) Ağ evin geopolitik və dünyavi strateji maraqlarının reallaşdırılması 2) Azərbaycanın əlverişli coğrafi məkanda yerləşməsi və zəngin təbii resurslarının olması 3) Dünyanın mühüm yeri olan Asiya-Sakit okean regionununda Azərbaycanın rolunun artması .(46; internet məlumatı).

ABŞ-da bir neçə Azərbaycan diaspor cəmiyyətləri də fəaliyyət göstərir. Bu cəmiyyətlər əsasən mədəni, elmi-ictimai işlərlə məşğul olurlar.

*1 "Azərbaycan Cəmiyyəti"* - Los Ancelesdə yerləşir, Mədəni və maarifçilik işi ilə məşqul olur.

2 *"Azərbaycan Evi"-* 1988-ci ildə Los-Ancelesdə yaradılmışdır. İctimai təşkilat kimi fəaliyyət göstərir.

*3 "Türk-Azərbaycan Qrupu"* -Los-Ancelesdə yaradılıb. Amerika mətbuatında türk xalqları və Azərbaycan barədə təbliğat işi aparır. Siyasi hadisələrə fəal münasibət bəsləyir.



4. *"Azərbaycan Kültür Cəmiyyəti"* -Los-Ancelesdə yaradılıb. Amerikada erməni təcavüzkarlığını mətbuatda işıqlanmasına imkan yaradaraq Azərbaycan barədə kitablar nəşr etdirir.

4 *«Azərbaycan Mədəniyyət Mərkəzi»* - San-Fransiskoda 1989-cu ildə yaradılmışdır. Ermənilər tərəfindən Amerikada azərbaycanlılar barədə yaydıqları yanlış informasiyaları ifşa etməyə çalışırlar.

5 *«Azərbaycan Mədəniyyət Ocağı»* -1989-cu ildə Vaşinqtonda yaradılmışdır. Azərbaycan mədəniyyətini tarixini və incəsənətini amerikalılara təbliğ edir.

6 *«Azərbaycan Cəmiyyəti»* -ABŞ-da yaradılan ilk Azərbaycan mədəniyyət ocağıdır. Müsəlman diaspor cəmiyyətləri ilə sıx əlaqə yaradır.

Bunlardan başqa ***"Vətən" Amerika-Azərbaycan Mədəni Mərkəzi və "Azərbaycanın Amerikalı Dostları"*** cəmiyyəti və s. cəmiyyətləri də ABŞ-da fəaliyyət göstərir .(47; səh. 27-33).

Göründüyü kimi adları sadalanan bütün bu təşkilat və cəmiyyətlər siyasi işlə demək olar ki, məşğul olmurlar. Bunun da bir çox səbəbləri vardır. Ən başlıcası isə bütün diasporlarda nəzərə çarpan icma daxili konfliktlərlə bağlıdır. Onlar isə Azərbaycan diasporunda əsasən iki formada - mənəvi-psixoloji atmosferin ziddiyyətli olması, şəxsiyyətlər və qruplararası münasibətlərin problem xarakter daşıması ideoloji-siyasi fikir ayrılıqlarının ön planda dayanması şəklində təzahür edir. Liderlik uğrunda kəskin rəqabət hallarının üzə çıxıb ümumi işə ziyan vurması da elə buradan irəli gəlir .(48; səh.3)

Azərbaycan diasporunun pərakəndiliyi ABŞ və Avropada özünü açıq biruzə verir. ABŞ və Avropada

yaşayan azəri türklərinin pərakəndiliyi iki dəfə keçirilən Dünya Azərbaycanlılarının qurultayında da özünü göstərmişdir.Birinci qurultayda mübahisə salonda İran bayrağının olub-olmaması üstündə,ikinci qurultayda isə qarşıdurma nəticəsində baş vermişdir.Lakin bu pərakəndiliyə baxmayaraq güclü azəri diasporunun formalaşmasına geniş imkanlar vardır Kolumbiya universitetinin professoru azərbaycanpərəst Tadeuş Svyatçovski, Corcstaun universitetinin professoru Zöhrab Sübhani və s. ABŞ-da Azərbaycan diasporunun və lobbisinin formalaşması üçün geniş imkanlar olduğunu bildirmişlər.Əgər Azərbaycan diasporunun və lobbisi güclənsə müvafiq haqq ödəməklə istənilən konqresmeni ələ ala və istənilən qərarı parlament də qəbul elətdirə bilər.

Fikrimizcə, diaspor siyasətində əsas götürülməsi vacib olan həmin birləşdirici faktorlar aşağıdakı kimi olmalıdır.

***1) Vahid milli mədəniyyət faktoru. 2) Müstəqil Azərbaycan dövlətçilik və milli-siyasi azlıq faktoru 3) Tarix, dil, kültür və soykökü birliyi faktoru 4) Demokratiya və insan haqları uğrunda mübarizə eləcə də milli zülmə və avtoritarizmə qarşı müqavimət faktoru. 5) Milli faciələrimizin məhz öz faciələri kimi qarşılanıb həmrəyliyi açıq şəkildə ifadə olunması faktoru. 6) Azərbaycan dövlətinin mənəvi himayədarlığına daimi ehtiyac faktoru və s.(49; səh.4).***

Müstəqil Azərbaycan respublikasında baş verən bütün proseslər Azərbaycan diasporuna ciddi təcir göstərir. Azərbaycanda baş verən hər hansı dəyişiklik və hadisə onların xarakterindən asılı olmayaraq diasporumuzun ictimai-siyasi fəallığında olduğu kimi əks olunur. Azərbaycan diasporu



Azərbaycandakı mövcud atmosferdən, proseslərdən və hadisələrdən əslində məhz asılılıq vəziyyətindədir və respublikamızdakı proseslərə adekvat şəkildə fəallıq göstərir.

Azərbaycan diasporu kifayət qədər nəhəng bir qüvvədir, onun Azərbaycan dövləti faktoruna doğru yönəldilməsi isə vacibdir.(2; səh.19).

II FƏSİL

# Regional etnosiyasi münaqişələrdə diasporların rolu

ABŞ-ın beynəlxalq siyasi-iqtisadi proseslərə təsiri inkaredilməz olduğundan bu dövlətdə məskunlaşan diasporlar tərəfindən tarixi vətənlərinin mənafeyi uğrunda mübarizə apararaq özlərinin bütün siyasi, iqtisadi, hüquqi vasitələrindən istifadə etməsi diaspor fəaliyyətinin əsas tərəfidir. ABŞ-da fəaliyyət göstərən diasporların əsas vəzifələri tarixi vətənlərinə Amerika hökuməti tərəfindən iqtisadi, hərbi və humanitar yardım göstərilməsinə çalışırlar. Amerika hökumətinin dəstəyini almaq beynəlxalq təşkilatlarda, hətta BMT-də işlərin yaxşı gedəcəyinə işarədir. Dünyanın bütün inkişaf etməkdə olan və kasıb ölkələri bu ölkədəki diasporların köməyi ilə ABŞ-dan humanitar və s. yardımları alırlar. Əgər bir diasporun təsiretmə gücü çoxdursa, rəqib ölkəyə edilən yardımı azalda, hətta ləğv etdirə bilər. ABŞ Konqresinin və Ağ evin kluarlarında uduzan, şübhəsiz ki, qanunvericilik prosesində də məğlub olurlar. (50; səh.9).

Amerikada isə daxili siyasətin müəyyən olunmasında seçicinin nə qədər təsiri varsa, xarici siyasətin də müəyyən olunmasında diasporun bir o qədər rolu var. Amerikada güclü diasporu olmayan dövlət onun sədaqətini və sədəqəsini görə bilməz. Hökumət özü isə ölkədə fəaliyyət göstərən və yaşayan diasporların inkişafı üçün şərait yaratmağa hazırdır. Hətta diasporların lobbiçilik fəaliyyəti haqqında qanunu təkmilləşdirərək yenidən qəbul etdi. (51; səh.53).

Hazırda Amerikada onlarla diaspor və onlara xidmət edən



67000-dən artıq lobbi təşkilatları hökumətə siyasi təzyiq göstərmək istiqamətində fəaliyyət göstərirlər. Heç şübhəsiz ki, dövlət hər hansı daxili və yaxud xarici qərar qəbul etməzdən əvvəl bu çoxsaylı vətəndaşları özündə birləşdirən diaspor təşkilatlarının lobbilərinin təkliflərini əsas götürür. Lobbiçilər isə müəyyən bir məsələni hakimiyyət elitası qarşısında öz təmsilçiləri tərəfindən qaldırmazdan əvvəl ətraflı təhlil edirlər. Diasporlar çalışırlar ki, hər hansı bir vasitə ilə parlamentdəkilərlə və hökumətin digər postları ilə əlaqə yaratsın, onun fikrini palata və ya komissiyalarda müzakirə olunan konkret məsələylə bağlı istədikləri səmtə yönəldə bilsinlər. Diasporların əsas istəyi öz nümayəndələrinin hakimiyyətin bütün pillələrində təmsil olunmasıdır. Diasporların təşkilatlanma işində ilkin mərhələ üçün tələb olunan vəsait maraqlı iş adamları, diasporun üzvləri arasından və yaxud da proqramlar hesabına toplanır.(3; səh.35).

Amerika Birləşmiş Ştatlarının Konstitusiyası Qanunvericilik hakimiyyətini önə çıxarır, prezidentin belə müdaxilələrini mümkünsüz hesab edir. Onun funksional azadlığını siyasi sərhədlərini müəyyən edir. Lakin parlament təkcə siyasi faktorlar siyasi partiyalar, komissiyalar tərəfindən təzyiqə məruz qalmır. Parlamentdə konkret məsələylə bağlı səsvermə zamanı qrupların adından digər qüvvələr də üzə çıxır. Onlar əsasən müəyyən iqtisadi və siyasi məsələlərin həll olunmasında maraqlıdırlar. Bu, həm də siyasi məsələdir. Parlamentə təsir göstərən bu çoxlu qeyri-rəsmi qüvvələr diasporla sıx əlaqədədirlər. Diasporları təmsil edən bu qüvvələr, lobbistlər öz gücünü iclas zalında deyil, parlamentin foyesində, parlament binasının divarlarından kənarda, qeyri-rəsmi yerlərdə göstərir.(52; səh.215-216).

ABŞ siyasi sistemində Konqres mühüm rol oynayır. Konqresdə qanun layihəsinin qanuna çevrilməsi uzun prosesdir və bu işdə 533 konqresmenlə yanaşı bu və ya digər dərəcədə sayı 25 minə qədər olan Konqres personalı da iştirak edir.Nümayəndələr Palatası və Senatın üzvüləri qanun layihəsi barədə təklif vermə hüququna malikdirlər.Qanunvericilik təşəbbüsündə isə hakimiyyətin icra qanadı Ağ ev, Federal İdarələr, Həmkarlar təşkilatları və Sahibkarlar Assosiasiyaları daha çox fəallıq göstərirlər. Konqresin iki illik sessiyaları dövründə minlərlə qanunverijilik təşəbbüsü edilir,lakin onların əksəriyyəti qanuna çevrilə bilirlər. Buna səbəb lazım olan mərhələrin aşıla bilinməməsidir.

Nümayəndələr Palatasında konqresmen qanun layihəsi təqdim edəndə, sənədi katibin stolu üstündə yerləşən kiçik qutuya buraxır.Qısa izahla məqsəd və vəzifələr qeyd olunan sənədi katib nömrələdikdən sonra hökumət nəşriyyatına göndərir.Sənəd nəşr edilir, Nümayəndələr Palatası və Senata göndərilir.Sənəd növbəti gün Konqresin protokolunda əks olunur.

Konqresin iclaslarında komitələr xüsusi rol oynayır. Senatda 16, Nümayəndələr Palatasında isə 22 komitə vardır.Bu komitələrin hər biri qanunvericiliyin müvafiq spesifik sahələrində ixtisaslaşır.Hər hansı bir palatanın təklif etdiyi hər bir qanun layihəsi komitətə müzakirə olunur.Sənəd bu komitədə yenidən hazırlana və rədd edilə bilər.Əgər komitədə qanun layihəsinə müsbət münasibət bildirilərsə layihə açıq müzakirə üçün palatalara göndərilir.Qaydalar komitəsinin təyin etdiyi vaxtda layihə müzakirə olunur. Layihə ya qəbul və ya rədd,yaxud da rədd



edilməyə bərabər hərəkət olan stolun siyirtməsinə qoyulur.Layihə komitəyə yenidən işlənmək üçün qaytarıla da bilər.

Layihə hər iki palatada qəbul edildikdən sonra prezidentə imzalanmağa göndərilir.Prezident veto hüququ olmaqla layihəyə imza atır.Əgər prezident layihəni imzalamayıb veto qoysa 10 gün müddətindən sonra qanun prezident imzası olmadan belə qüvvəyə minir.Və yaxud da prezident ***«Cib Vetosu»*** adlı addım da ata bilər.Bunun üçün prezident qanun layihəsi barədə fikrin bildirmir.

Dünyada baş verən regional etnosiyasi münaqişələrdə diasporlar aktiv fəaliyyət göstərərək ABŞ hökumətinə təzyiq göstərməklə bu regionda baş verən münaqişələrdə öz tarixi vətənlərini müdafiə etməklə məsələni onların xeyrinə müsbət həll edilməsinə çalışırlar. Hal-hazırda ABŞ-da dünyanın bir çox ölkəsinin diasporları fəaliyyət göstərməklə yanaşı hökumətə təzyiq etməklə öz xeyirlərinə Amerikanın diqqətini cəlb etməkdən ötrü bir-birləri ilə rəqabət halındadırlar. Dünyanın müxtəlif regionlarından məhz ABŞ-a mühacirəti daha çox onunla bağlıdır ki, ictimai həyatın bütün sahələrində geridə qalan və zəif inkişaf etmiş ölkələrindən başlanan mühacirət prosesləri bir qayda olaraq eyni səviyyəli ölkə və regionlara deyil, əksinə məhz daha çox inkişaf etmiş ölkələrə doğru istiqamətlənməsini məntiqi və qanunauyğun hal kimi qəbul etməliyik. (53;səh.377).

ABŞ-ın siyasi nümayəndələrini və dövlət xadimlərinin çoxunu narahat edən əsas məsələlərdən biri də diasporların ölkənin daxili və xarici siyasətində əhəmiyyətli yer almaqda olmasıdır. Ölkənin xarici və daxili siyasətinə təsir etmə qabiliyyətinə yiyələnən diasporlar qısa zaman çərçivəsində

siyasi qrupa çevrilərək lobbi yaradır və öz milli maraqlarına uyğun olaraq siyasət yeridirlər. Amerikanın tanınmış yazarlarından Frenk Qriv «Knight-Ridder Newsrarers» qəzetində 17 avqust 1995-ci ildə yazdığına görə praktiki olaraq nəzərə çarpmayan qruplar və diasporlar formalaşırlar və çox zaman Amerika üçün əhəmiyyətli olan qərarların ləğv olunmasına nail olurlar.

Nümayəndələr Palatasının Beynəlxalq Əlaqələr Komitəsinin azlıqlar lideri konqresmen Li Hamiltonun fikrincə diasporların Amerika siyasi həyatında rolunu partlayış hesab etmək olar. Tayvan, Kuba, Erməni, Şərqi Avropa mənşəli amerikalıların ABŞ-ın xarici siyasətinə təsiretmə qüvvəsi yəhudi diasporunun qüvvəsindən heç də geri qalmır.(54;səh.4).

Son illər ərzində ABŞ-da fəaliyyətini genişləndirən diasporlar arasında yunan diasporu daha çox fərqlənir. Xüsusilə Kipr problemi yaranandan sonra yunan diasporu ABŞ hökumətinə təzyiqini gücləndirmişdir. Yunan diasporunun üzvlərinin siyasi aktivliyi və material, maddi bacarıqları bir də kilsə faktoru Amerikada onların yəhudilərindən sonra ikinci güclü etnik diaspor sayılmasına səbəb olub. **Yunan kilsəsi - Amerikadakı yunan diasporu arasında milli faktorun saxlanmasının yeganə səbəbidir.** (55;səh.42).

Amerikada yunan diasporunun bir neçə güclü təşkilatları da fəaliyyət göstərir. Bunlara 1922-ci ildə yaranan və 35 milyon yunanı birləşdirən ***Amerika-Yunan proqressiv assosasiyası*** və ***Amerikan-Yunan İnstitutu*** bilavasitə lobbiçiliklə məşğul olur. Yunan diasporunun Kipr problemi ətrafında birləşərək türklər əleyhinə mübarizə aparması 70-ci illərdə Türkiyəyə Amerika silah yardımına embarqo qoyurması ilə nəticələnmişdir.(9;səh.303).



Yunan diasporunun Konqresə təzyiq etməsi sayəsində Amerika hökuməti yunanlarla danışıqlara getməyə məcbur olmuşdur. 1974-cü ilin oktyabr ayında Ağ evdə prezident C. Ford dövlət katibi H. Kissincer və Şimali və Cənubi Amerika Arxiyepiskopu L. İakovosun görüşü keçirilmişdir. Görüşdə Ford İakovosu inandırmışdır ki, Amerikanın Türkiyəyə silah satışı olmayacaq və Amerika Yunanıstanın milli maraqlarına zidd heç bir siyasət yeritmir. (53; səh.42).

Türkiyə ilə yanaşı 1992-ci ildən etibarən Makedoniya ilə münasibətləri kəskinləşən Yunanıstan hətta müharibə hazırlığı belə görmüşdür. Yunan diasporu dərhal fəaliyyətə başlayaraq siyasi hücuma keçmiş və Amerikanın Afina mövqeyindən çıxış etməsinə nail olmuşlar.(54; səh.4).

Bu gündə Yunan diasporu Amerika Konqresində Türkiyə əleyhinə lobbiçilik fəaliyyətini davam etdirməkdədir və senatda Türkiyə xeyrinə məsələlərin bir çoxunun müzakirələrinin ləğv edilməsinə nail olmuşdur.

Yunan diasporu ilə sıx əlaqəsi və anti-Türkiyə mövqeyinə görə onlardan heç də geri qalmayan erməni diasporu "erməni genosidi" məsələsində onların mövqeyini qazanmışlar. Yunan diasporunun mövqeyi də erməni diasporunun mövqeyilə çox zaman üst-üstə düşür.

Yunan diasporu ilə yanaşı Amerikada digər müəyyən qədər güclü diaspora malik olan irlandiyalılar milli çərçivədə olan Olster konfliktində Amerikanın mövqeyini qorumağa çalışırlar. 1974-cü ildə ABŞ-da müəyyən nüfuza malik olan ***«İrlandların Qədim Ordeni»*** cəmiyyəti ***«İrland Milli Fraksiyasını»*** yaradaraq rəsmi olaraq qarşılarına məqsəd qoymuşlar; İnsan hüquqları və irland xalqının özünün müqəddəratının təyin edilməsi. Bu fraksiyanın əsas məqsədi Konqresə təzyiq

göstərməkdir. Bu fraksiyanın siyasəti nəticəsində 1978-ci ildə Konqresin «*İrland Milli Fraksiyası*» yaradılmış və bura 104 Nümayəndələr Palatasının üzvü daxil olmuşdur. Bu fraksiyanın işi nəticəsində 1979-cu ildə «İrlandiyada sülh uğrunda» forumu keçirilmişdir. 1984-cü ildə isə irland diasporunun irəli sürdüyü «Olster məsələsi» Amerikada prezident seçkiləri zamanı əsas məsələ olmuşdur. **«Nə qədər ki, Olster problemi İrlandiya üçün müsbət istiqamətdə həll edilməyib, biz mübarizəmizi davam etdirəcəyik»** - deyə açıqlama verən irland diasporunun fəalları indiyə qədər praktik heç bir iş görməmişlərg. (55; səh.43-45).

70-ci illərin sonundan etibarən Amerikada fəaliyyətlərini genişləndirən diasporlardan biri də qaradərili amerikalılardır. Qaradərili diasporun əsas siyasi kursu irqçilik probleminin Amerikada aradan götürülməsi və Afrika dövlətlərinə Amerika hökumət yardımının artırılmasıdır. Qaradərili diasporun Nümayəndələr Palatasından yaratdığı «Qara Fraksiya»ya 16 konqresmen daxildir. Bu fraksiyanın işi nəticəsində konqresin tərkibində 13 müxtəlif komissiya yaradılmış və bu komissiyalar siyasi qətllərin araşdırılması ilə məşğul olur. Qaradərili konqresmen və qaradərili amerikalılar diasporunun sədrlərindən biri olan Çarlz Diqqs demişdir: **«Bütün qaradərili amerikanlar Afrika qitəsinin güclənməsində və ABŞ-ın rəsmi nümayəndələrilə danışıqlar stolunda əyləşmək hüququnun qazanması üçün bütün potensial qüvvələrindən istifadə etməkdə maraqlıdırlar»**. (9; səh.306-307).

Qaradərili amerikanlar diasporu Amerikada siyasi-ictimai və lobbiçilik fəaliyyəti görməklə yanaşı Afrika dövlət başçıları ilə görüşlər keçirir və onların maraqlarını Amerikada müdafiə edirlər.



ABŞ-da son illər ərzində güclənən diasporlar içərisində Şərqi Avropa ölkələrinin bura mühacirətinin artmasından sonra güclənən Şərqi-Avropa diasporlarıdır. Bu mühacirətin artması və xarici siyasət fəaliyyəti xüsusi aspekt daşıyır. Ancaq Şərqi Avropa diasporunda tarixi köklərə bağlı olan ikitirəliyin artması bu qruplar arasında birliyin yaranmasına *maneə olur. Bu ikitirəlik iki istiqamətdə fəaliyyət göstərir:*

**Proqressiv demokratik və milli burjua** lagerlərə bölünmə. Bu da bəzi məsələlərdə vahid bir fikrə gəlməkdə maneçilik yaradır. Qalan məsələlərdə isə bu iki lager dövlətçilik istiqamətində birgə fəaliyyət göstərir. Burada ***Ukrayna Amerikanları Liqası, Polşa Milli Konqresi*** вə s. Şərqi Avropa təşkilat və cəmiyyətləri yaradılmışdır. Onu da qeyd edək ki, Şərqi Avropa diasporlarına Amerika hökuməti tərəfindən xüsusi diqqət göstərilir və siyasi simpatiya daha çox bunlar tərəfindədir.(55; səh.40-42).

Amerika Birləşmiş Ştatlarında fəaliyyət göstərən bu diasporlarla yanaşı digər diasporlar; Çin, Tayvan, Kuba, Hind və s. barədə geniş yazmaq olardı. Ancaq müasir dövrdə regional etnosiyasi konfliktlərin Yaxın Şərq və Qafqazda dərinləşməsi eyni zamanda bu regionlardakı münaqişələrin Amerikanın xarici siyasətində geniş yer ayrılması, yəhudi, erməni, ərəb, türk və azərbaycan diasporları arasında münasibətlərin bəzən kəskinləşməsi və bəzən də yaxınlaşması Amerikanın daxili siyasətinə təsir etdiyindən bu məsələ barədə geniş yazmağa səbəb olmuşdur.(54; səh.4).

Ərəb-İsrail münaqişəsinin həll edilməsi yolunda Amerikadakı yəhudi və ərəb diasporlarının fəaliyyəti "erməni genosidi "məsələsində erməni-türk diasporlarının qarşıdurması

eyni zamanda Qarabağ məsələsinin həll edilməsi istiqamətində erməni-azəri diasporlarının qarşıdurması son illərin Amerika hökumətini narahat edən məsələlərdən biridir. Bu diasporlar arasında olan ziddiyyətlərin aradan götürülməsi üçün göstərilən cəhdlər və boşa çıxan cəhdlərlə yanaşı, əldə olunan uğurlar Amerikanın daxili və xarici siyasətinin müəyyənləşməsində əhəmiyyətli rol oynamışdır. Bu diasporlar arasındakı nifaqlar Kapitoli təpəsində vəlvələyə səbəb olmuş lobbiçilərin mübarizəsini kəskinləşdirmişdir. Adları sadalanan diasporlar Vaşinqton və Amerikada xarici siyasət çarpışmalarında bəzən çiyin-çiyinə, bəzən də bir-birlərinə əks mövqedə mübarizə aparmışlar.



## 1. Ərəb-İsrail münaqişəsi və ərəb-yəhudi diasporlarının mövqeyi

Yəhudi milli hərəkatının tarixində yeni mərhələnin başlanğıcı bilavasitə Teodor Hertsl ilə bağlıdır ki, bu şəxsiyyətin də «yəhudi məsələsi» ideyasının formalaşması və bu məsələnin milli məsələsinin ortaya atılmasında yəhudilik tarixində əvəzedilməz rol oynamışdır. T. **Hertsl milli məsələnin həllini «yəhudi dövlətlərinin yaradılmasında» və yəhudi diasporunun bu ərazilərə köçürülməsində görürdü.** Hertsl yəhudi milli hərəkatının genişlənməsində siyasi sionizm elementindən istifadə etməyi qərara almış və onun bünövrəsini qoyanlardan biri olmuşdur.(29; səh.55).

**Sionizm** - sion sözündən alınmışdır və Yerusəlim və İsrail torpağının sinonimidir. **Sionizm ideyasının əsasın qədim tarixə malik yəhudi xalqının tarixi vətənlərində yenidən məskunlaşmağa nail olmaq təşkil edir.. Diaspor halında yaşayan xalqın tarixi vətənlərində müstəqil dövlət qurulması uğrunda siyasi fəaliyyət göstərməsi sionizmin əsas xəttidir .** (56; səh.25).

Sionizmlə yanaşı yəhudi ədəbiyyatında yəhudi maliyyə dünyası, yəhudi diplomatik dünyası, yəhudi siyasi dünyası və s.yarandı.Bu " dünyalar"-içərisində ardıcıl olaraq üç cəryanın - filiantrop, kosmopolit və milli-dininin güclənməsini labüd etdi.

*Filiantroplar*-maliyyə dünyasının köməyinə arxalanaraq yəhudi indivudualhğının və milli hisslərin mədənələşməsinə çalışır və assimliyasiyaya məruz qalmağın əleyhinə idilər.

*Kosmopolitlər*-yəhudilərin dünya dövlətlərinə

mühajirətini dəstəkləyərək yəhudilərin mütəlif xalqlar tərəfindən assimlasiyaya məruz qalmasının tərəfdarları idilər.

***Milli-dini-cəryan tərəfdarları*** isə Bibliyanın geniş təbliğ olunmasını və bunun sayəsində dünya xalqlarının yəhudi millətinə müsbət münasibət bəslənməsini irəli sürürdülər.

1897-ci ilin avqustunda Bazeldə açılan birinci sionist konqresində sionizmin əsas vəzifəsi kimi «Fələstində yəhudi xalqı üçün ictimai hüquqla təmin edilmiş sığıncağın» yaradılması müəyyən edildi. Hertsl bildirdi ki, bütün dövlətlərdə diasporun fəaliyyətini gücləndirmək, yəhudi milləti arasında təşkilatlandırma işi aparmaq, həmin ölkələrdə yəhudi lobbisinin sosial-siyasi, iqtisadi mühitinə təsirini gücləndirmək, hakimiyyət strukturlarına müəyyən təzyiq göstərmək, milli şüurun yüksəldilməsinə və İsrail dövlətinin qurulması uğrunda aparılan mübarizənin əsas şərtlərindəndir.

**Bazel konqresindən sonra Hertsl bildirmişdir: «Mən yəhudi dövlətinin əsasın qoydum»** - doğrudan da Hertsl bu yolda bütün hüquqi vasitələrdən istifadə edərək filiantrop, kosmopolit və milli dini cərəyanları bir araya gətirməklə güclü yəhudi maliyyə, siyasi və diplomatik qüvvələrin vahid rəhbərlik altında «dünya siyasəti» prinsiplərinə əməl edilməsi üçün birləşdirməyə nail oldu. Bu qüvvələrin köməyi ilə Hertsl Şərq milli ideologiyasına Qərb mədəniyyətini və dövlət quruculuğu yollarını sintez edərək Yəhudi dövlətinin qurulması üçün hüquqi əsaslara arxalanaraq qanuni milli dövlətin tanınmasını rəsmiləşdirmək istəyirdi. Beynəlxalq hüquqi müdafiə təmin etməklə Hertsl yəhudilərin Fələstin ərazisinə köçməsini və burada möhkəmlənməsini



planlaşdırırdı. Hertsl Osmanlı imperiyasına aid olan Fələstinin 70 min kvadrat kilometr ərazisində yəhudi dövlətinin qurulması üçün razılıq alır. Rəsmi qanunlar əsasında yəhudilərin Fələstin ərazisində yerləşməsinə şərait yarandı və ilk olaraq 76 min yəhudi bura köçdü. Fələstinin suverenitetinə əvvəlcə nail olmaq istəyən Hertsl beynəlxalq hüquq əsasında muxtariyyət qurmaq istəyirdi. Hertslin planları demək olar ki, birinci dünya müharibəsinə qədər uğurla irəliləyirdi və bu planlar sonrakı Sionist konqreslərində də müzakirə olunmuşdu.

III Sionist konqresində Hertsl Avropa dövlətlərinin əksəriyyətinin dəstəyinə nail olmadıqları üçün yəhudi lobbisinin və sionizminin daha güclü olduğu İngiltərəyə doğru istiqamətlənməyə başladı.

1913-cü ildə XI Sionist konqresində yalnız Ercs İsraildə məskunlaşma problemi deyil, eləcə də diasporda yəhudi tərbiyə problemi də müzakirə olunurdu. Siyasi və mədəni sionizim ideyaları isə filiantrop cəryanın təyziqi səbəbi ilə sintezə uğramağa başladı.(29; səh.56).

1917-ci il noyabrın 2-də İngiltərə kabinetinin üzvü lord Balforun Türkiyədən Fələstinin geri alınaraq burada yəhudi dövlətinin qurulması ilə bağlı deklarasiyasını qəbul etməsi yəhudi xalqının tarixində xoşbəxt an kimi xatırlanır. Bu deklarasiyanın qəbul edilməsi yəhudi diasporuna artan simpatiyanın nəticəsi idi. 1922-ci ildə Amerika Konqresi və Millətlər Cəmiyyətində ***Balfor deklarasiyasının*** qəbul edilib Fələstin ərazisində «yəhudi milli ocağının» yaradılması şərti ilə Britaniya mandatlığına verildi. Bu deklarasiya 1948-ci il BMT-də ***«ikiyə bölünmə səsverməsinə»*** qədər qüvvədə qaldı.(27; səh.222-223).

1933-cü il may ayında Britaniyada «***Ağ kitab***» ,1937-ci il

***Pittisburq platforması*** qəbul edilənə qədər yəhudi sionizmi və ərəb millətçiləri arasında mübarizə bir çox dövlətlərin ərazisində kəskinləşirdi. Ərəb diasporunun sayəsində qəbul edilən «**Ağ kitab**» da yəhudi mühacirlərinin 5 il ərzində sayı 75 mindən çox olmamaq şərti ilə Fələstində yerləşdirilməsin nəzərdə tuturdu. Yeni mühacirlərin sayını isə ərəblər təyin etməli idi. Bununla eyni zamanda İngiltərə hökuməti Fələstində yəhudi dövlətinin yaradılmasını ölkə xarici siyasətinin hissəsi olmadığını rəsmi olaraq bəyan edirdi.(57; səh.17-18).

1935-ci ildən sonra Avropada sabitlik pozulmağa başlandı. Avropanın bir çox dövlətlərində millətçi fikirlərin "rəsmi status"-qazanması yəhudilərin mövqeyini zəiflədirdi. Xüsusi ilə Almaniyada və İtaliyada faşizmin rəsmləşməsi Avropada münaqişə ocağının yaranmasından xəbər verirdi. Alman millətçiləri yəhudilərə başqa planetdən gələnlər kimi baxırdılar. Yəhudilərə qarşı xüsüsi nifrəti ilə seçilən Adolf Hitlerin Almaniyada hakimiyyətə gəlməsindən sonra yəhudilərə qarşı əsl soyqırım siyasəti yeridilməyə başlandı.Hitler Almaniyada yüksək dövlət postlarında və maliyyə birliklərinin başında yəhudilərin durmasını Almaniya və alman xalqı üçün əsas təhlükə hesab edirdi.

1938-ci il 9-10 dekabrında Hitlerin əmrilə Almaniyada yəhudilərə qarşı törədilən «Billur gecə» - Avropada yəhudi qəzasının başlanğıcı idi. Avropada yəhudi qəzası beynəlxalq ictimaiyyət tərəfindən genosid kimi qəbul edilir. Beynəlxalq aləmdə Holokost (tərcümə - Qəza) kimi tanınan yəhudilərə qarşı törədilən soyqırım müharibədən sonra bir çox ölkələrin qanunvericiliyində rəsmən tanınmış və müharibədən sonra bir



çox dövlətdə milli matəm kimi keçirilməyə başladı. Müharibədən sonra Almaniyanın yeni hökuməti rəsmən yəhudilərdən üzr istəmişdir. Yəhudilər öz faciələrini - şoa - adlandırırlar. Bu hadisədən sonra Avropadan yəhudi mühacirətinin ABŞ-a axını gücləndi. Alman faşistləri tərəfindən Avropada yəhudilərə qarşı törədilən genosid nəticəsində yəhudi əhalisinin sayı dünyada 11-12 milyon nəfərə qədər azalmış idi. Amerikada güclənən yəhudi diasporu almanlara qarşı mübarizə ilə yanaşı İsrail dövlətinin qurulması və faşistlər tərəfindən törədilən genosidin beynəlxalq ictimaiyyəti tərəfindən tanınması üçün qəti mübarizəyə başladılar. Amerikadakı yəhudi diasporunun əksəriyyətinin Almaniya və Şərqi Avropa yəhudiləri təşkil etdiyindən onlar hüquqlarının tanınması və genosidin məhz onlara görə tanınması üçün vahid siyasi xətt yeritməyə başladılar. (24; səh.11-12).

Bu məqsədlə 1941-ci ilin aprelində ABŞ-da ***Amerika-Fələstin Cəmiyyəti*** yaradıldı və 6 senatorla 143 konqresmen buraya daxil oldu. Elə bu il Avropa, Amerika və Fələstin yəhudiləri üçün əhəmiyyətli olan «Baltimor proqramı» - Konqresin fövqəladə iclasında qəbul edildi. «Baltimor proqramı» yəhudi diasporunun Fələstində yəhudi dövlətinin yaradılması yolunda apardığı siyasi kurs idi. Bu kursu dəstəkləyənlər arasında ABŞ prezidenti F. Ruzvelt xüsusilə seçilirdi. 1944-cü ildə yəhudi diasporunun təzyiqilə ***Vaqner-Tafta-Rayt-Kamp-Tion qətnaməsi*** qəbul edildi. Bununla yəhudi diasporu mühacirlərinin Fələstinə təhlükəsiz gedib-gəlmələrinin ingilis hökuməti tərəfindən təmin olunmasına nail oldular. 1945-ci ildə isə prezident Trumenin ətrafına toplaşan yəhudi diasporu 100 min yəhudi mühacirlərinin

Fələstində yerləşdirilməsinə Amerikanın razılığın aldı. (58; internet məlumatı).

1947-ci ilin yazında BMT-nin Fələstin məsələsi üzrə xüsusi nümayəndəsi Fələstinin 2 yerə bölünərək burada ərəb və yəhudi dövlətinin qurulması planın qəbul etdi. Ərəb diasporunun bu qərarın əleyhinə apardığı mübarizə istənilən nəticəni vermədikdən sonra BMT Baş Assambleyasının ikinci iclasında məsələ müzakirəyə qoyuldu. **1947-ci il 29 noyabrda BMT-nin 56 üzv dövlətinin iştirakı ilə çağırılan Baş Assambleyanın iclasında 33 səsə qarşı 13 əleyhinə və 10 bitərəf səs çoxluğu ilə Fələstin ərazisində yəhudilərə dövlət qurulması üçün 5500 kvadrat kilometr, ərəblərə isə 4500 kvadrat kilometr ərazi ayrılması üçün qətnamə qəbul edildi.** ABŞ-ın yardımının kəsiləcəyindən qorxan İran, Liberiya, Yeni Zellandiya və s.ölkələr məsələni lehinə səs verənlər içərisində idilər.(57; səh.18-19).

1948-ci il mayın 14-də İsrail medinəti (dövləti) yaradıldığı ölkənin ilk prezidenti Ben-Qurion tərəfindən beynəlxalq aləmə bəyan edildi. Dövlətin İsrail və ya İudeya adlandırılması uzun sürən mübahisələrdən sonra tarixi faktora əsaslandığından İsrail adının qələbəsi ilə nəticələndi. İsrail dövləti elan edildikdən 11 dəqiqə sonra ABŞ prezidenti Harri Trumen İsrailin dövlət müstəqilliyin tanıması barədə bəyanat verdi. (27; səh.238).

Baxmayaraq ki, İsrail dövləti elan edildikdən sonra 6 ərəb ölkəsi Suriya, Misir, İordaniya, Livan, İran və Səudiyyə Ərəbistanı bu ölkəyə qarşı Cihad müharibəsinə başladılar, dövlətin qurulması yəhudi diasporunun uzun illər apardıqları mübarizənin nəticəsi idi. Dövlət elan edildikdən və müstəqillik yolunda müharibə başlanan andan yəhudi diasporu



arasındakı «ikiqat loyallığa» son qoyuldu. Qərb ölkələrində yəhudi diasporunun üzvləri yeni dövlətin diplomatları ilə görüşlər keçirir və gənc dövlətin müstəqillik müharibəsinə yardımlarını gücləndirirdi. Dövlət elan edildikdən sonra sionizm millətçilər tərəfindən rədd edilməyə başlandı. Ancaq müharibə gedirdi və sionizm hələ yəhudi diasporu üçün lazım idi. (59; səh.512-513).

Sinay kampaniyası (1956) - yəhudi diasporu üçün gözlənilməz idi. İsrail ordularının Sinay kampaniyasında qələbə qazanması dövlət ilə diaspor arasında əlaqələri gücləndirdi. 1967-ci il 6 günlük müharibəsində qazanılan qələbə yəhudi diasporu tərəfindən rəğbətlə qarşılandı və milli özünüdərketmə diasporda artmağa başladı. (60; səh.768).

70-ci illərin ortalarından başlayaraq ABŞ-ın siyasi kuluarlarında yəhudi və ərəb diasporları arasında mübarizə kəskinləşməyə başladı. Xüsusilə ərəb diasporu gözlənilmədən fəaliyyət dairəsini genişləndirməyə başladı. 1977-ci ilə qədər ABŞ-da uğursuz fəaliyyət göstərən ərəb diasporunun maraqlarını müdafiə edən rəsmi təşkilat yox idi. Ərəb diasporu Vaşinqtonda 1978-ci ildən rəsmən təmsil olunmağa başladılar. Ərəb diasporunun ABŞ-da iki əsas təşkilatı vardır: **1) -** ***Amerika Ərəblərinin Milli Assosiasiyası (NAAA)-dır.*** 93000 üzvü var. NAAA - Amerika ilə ərəb ölkələri arasından iqtisadi, hərbi və siyasi əlaqələrin yaxşılaşdırılmasına çalışırlar. Təşkilatın digər vəzifəsi Amerika ilə İsrail əlaqələrinin zəiflədilməsinə çalışırlar. NAAA-nın digər diaspor təşkilatlarından fərqləndirən ərəblərin vətəndən azad olmağa heç bir etiraz etməməsidir.

***2) Amerika Ərəb Ayrıseçkiliyinə Qarşı Komitə (ADS)-dir.*** 1980-ci ildə yaradılıb. Bu təşkilat yəhudilərin

ayrıseçkiliyə qarşı komitəsinin modeli idi və əsas məqsədi təbliğat işi ilə məşğul olmaqdır. (61;səh.125-126).

ADS-in təsisçisi senator C. Aburezkin məqsədi ABŞ-dakı əsas ərəb əhalisinin bütün silklərini bu ölkənin yaxın Şərq siyasətinə siyasi təzyiqini cəlb etməkdir. Ərəb diasporunun əsas dayağı olan neft monopoliyası neft baykotundan 1973-cü ildə uğurla istifadə edərək Qərbdə iqtisadi böhrana səbəb olaraq bir çox dövlətin İsrail ilə əlaqələrinin kəsilməsinə nail olmuşdurlar. Ancaq bütün bu iqtisadi qüvvəyə baxmayaraq ərəb diasporunun yəhudilərlə münasibətdə siyasi fəallığı çox zəifdir. Eyni zamanda ərəb diasporunun bir qanadının yəhudilərlə biznes əlaqələri olduğundan və bu əlaqələrin kəsilməsi nəticəsində gəlirlərini itirməkdən qorxması onların yəhudilərə siyasi mübarizədə uduzmasın labüd edir. (62; səh. 147-149).

Ərəb diasporu Kapitoli zirvəsində yəhudilər üzərində yalnız 3 əsas məsələdə qələbə qazanmışlar. 1978-ci ildə Səudiyyə Ərəbistanına və Misirə F15 qırıcılarının satılması, 1981-ci il və 1986-cı ildə Səudiyyəyə silah satılmasında yəhudilər onlara mane ola bilmədilər.(61; səh.133-134).

ABŞ-da ərəb diasporu antisemit qüvvələrlə əməkdaşlıq edərək bu ölkədə yəhudilərə qarşı əks təbliğat işlərin görürlər. Xüsusi ilə alman əsilli birliklərlə ***«Lobbi Azadlığı»*** cəmiyyəti və ***«Ağların Milli-Sosialist Partiyası»*** ilə əlaqə yaradaraq antisemist kitab və jurnalların nəşrini maliyyələşdirirlər.(24; səh.18).

Ərəb diasporunun uğurları içərisinə 1975-ci ildə Meksikada keçirilən beynəlxalq qadın konfransında yəhudi diasporunun fəaliyyətinin pislənməsinə, 1975-ci ilin noyabrında BMT Baş Assambleyasında 3379 saylı qətnamə ilə sionizmi rasizm ilə



əlaqələndirilməsinə, 1974-cü ildə Beynəlxalq Əmək Təşkilatında İsrailin rasist siyasət yeridilməsinə qarşı qətnamə qəbul etməsi və s. daxildir.

İsrail BMT-yə 11may 1949-cu ildə 59-cu üzv kimi qəbul olunmuşdur.Ancaq burada 21 ərəb dövlətinin olması BMT-nin bir çox qərarlarının İsrail əleyhinə qəbul edilməsinə səbəb olmuşdur.Bunlara 1967-ci il 22 noyabrda 242 saylı və 1973-cü ilin 22 oktyabrında 338 saylı qətnamələri aid etmək olar.

Onu da qeyd etmək olar ki, 1964-1978-ci illər arasında YUNESKO-da ərəb-yəhudi diasporlarının mübarizəsi daha kəskin olmuşdur. İsraili bu təşkilatın bir çox fəaliyyətindən kənarlaşdıran iki qətnamənin qəbul edilməsinə nail olan ərəb diasporu daha sonra Amerika, İngiltərə və s. dövlətlərin təzyiqlərinə məruz qaldıqdan sonra geri çəkilməyə məcbur olmuş və İsrail əvvəlki hüquqlarını bərpa etmişdir. Hətta məsələ o qədər beynəlxalq aləmdə rezonansa səbəb olmuşdu ki, Roma papası VI Pavel bu təşkilatın fəaliyyətini tənqid etmiş və yəhudilərə qarşı obyektiv olmamaqda ittiham etmişdir. Qeyd etmək lazımdır ki, Roma papasını və iri dövlətləri ərəb diasporuna qarşı qoymağı bacaran yəhudi diasporu sonrakı dövrlərdə ərəbləri beynəlxalq təşkilatlarda sıxışdırmağa nail olmuşdur.(59; səh.536-540).

ABŞ-ın yəhudi diasporu arasında dostluq münasibətlərinin İsrail dövləti qurulduqdan sonra da güclənməsinin əsasında bir sıra faktorlar durur. ***1) Onların Bibliyaya inanması (İslam bir çox amerikanlara yaddır) 2) Avropa güc sisteminin bölünməsi 3) İsrail siyasi sisteminin demokratik mahiyyəti (əksər ərəb ölkələrində anarxiya və diktatura rejimidir) 4) İsrailin ABŞ-ın mütərəqqi dostu rolu oynaması (əksər ərəb***

***ölkələri etibarsız dostlar kimi qəbul olunurlar və onlar Rusiya ilə daha çox yaxındırlar) 5) Amerikanların yəhudilərə bir qurban kimi simpatiyaları var (ərəblər öz neft silahları ilə ABŞ iqtisadiyyatını istismar edirlər). (9; səh. 310-311)***.

Ərəb diasporu yəhudilərdən fərqli olaraq lobbi mexanizmini «kirayə edilmiş silahlar»dan asılı vəziyyətdə qurmuşlar. Konqresdə az təmsil olunan ərəb lobbisi demək olar ki, son zamanlar Şərq problemi ilə məşğul olmurlar. Ölkə daxilində də ərəb əsilli vətəndaşların genişmiqyaslı koordinasiyası yox dərəcəsindədir və siyasi aktivlik göstərmirlər. Onu da qeyd etmək olar ki, Amerika ərəbləri arasında bir çox aspektdən olan qarşıdurma lobbiçilik fəaliyyətində həmrəyliyin pozulmasına gətirib çıxardır. Xüsusilə Livan əsili ərəblərin Amerika Livan Liqası yaradıb sionist birliklərlə işbirliyinin qurması və Şərq məsələsində İsrail dövlətinin mənafeyindən çıxış etməsi ərəb diasporu arasında həmrəyliyin olmamasını formalaşdırır.( 63; səh.247).

Bütün bunlara baxmayaraq ABŞ-da daha geniş miqyasda ərəb ölkələrinin maraqlarını müdafiə edən lobbistlər fəaliyyətlərini genişləndirirlər. Bu sahədə fəaliyyət göstərən lobbistlər bütün sahələrdə diasporlarının və ərəb ölkələrinin maraqlarını təmsil etməklə iri maliyyə kampaniyalarının aksiyalarını əldə etməklə Amerikanın daxili və xarici siyasətilə təsir göstərə bilirlər.

Ancaq bu lobbistlər ərəb diasporunun mənafelərini müdafiə etməklə yanaşı yəhudi diasporu ilə siyasi və biznes sahədə münasibətlər saxlayaraq Yaxın Şərqdə «balanslaşdırma» - siyasətinin qüvvədə qalmasında maraqlıdırlar. «Böyük biznes»in lobbistləri bu məqsədlə Amerikada müxtəlif institut



və ictimai-siyasi cəmiyyətlər yaratmaqla hər iki diaspor arasında fikirlərini təbliğ edilməsinə çalışırlar.(64; internet məlumatı).

ABŞ-da nə qədər ki, ərəb birlikləri bölünüblər, əksinə Amerika yəhudiləri birləşib İsrailin mövqeyini dəstəkləyirlər, bir o qədər də «siyasət arenası və Kapitoli təpəsin»də yəhudi diasporu qalibdir. ABŞ-ın maliyyə, hərbi və iqtisadi yardımları onların xeyrinə yönəlir.80-cı illərin əvvələrindən başlayaraq ABŞ-da İsrailin «vacib strateji tərəfdar» kimi qəbul edirdilər.ABŞ-ın NATO strukturundan kənar ***«əsas müttəfiqi»*** statusun isə İsrail 1987-ci ildə aldı.Və ABŞ- İsrail arasında «xüsusi münasibətlər» adı altında yeni əməkdaşlıq prinsipləri yarandı. Amerika yəhudi diasporunun təzyiq vasitələri nəticəsində İsrailə ildə 3 milyard dollar ABŞ-ın hökuməti tərəfindən yardım məqsədilə ayrılır və bu yardımlar sayəsində də ABŞ daxili siyasətdə və xarici maraqların təmin olunmasında yəhudi diasporundan bacarıqla istifadə edir.(65; səh.54).

1968-ci ilin iyun ayında 27-ci sionist konqresində toplaşan ümumdünya yəhudi diasporunun nümayəndələri «Yeni Yerusəlim» proqramını qəbul etdilər. «Yeni Yerusəlim» proqramı - sionizmin və yəhudi diasporunun müasir mərhələdə məqsədlərini aşağıdakı kimi formalaşdırırdı.

***1) Dünya yəhudilərinin «İsrail ölkəsi» ətrafında birləşməsi.***

***2) Yəhudilərin «tarixi vətənlərində» toplanması.***

***3) İsrail dövlətinin möhkəmlənməsi.***

***4) Özünün müqəddəratının təyin etmə hüququna malik olma.***

***5) Yəhudi mədəniyyətinin yaradılması.***

«Yeni Yerusəlim» proqramının diaspor tərəfindən rəğbətlə qarşılanması milyarder yəhudilərin kapitalının ümumi dövlətçilik işində bir araya cəmlənməsinə gətirib çıxartdı.(66; səh.94-95).

Anti-ərəb mübarizəsini də genişləndirməyi də qarşılarına məqsəd qoyan yəhudi diasporu eyni zamanda ABŞ-la hərtərəfli əlaqələr qurmağı dövlət qarşısında öz öhdəsinə götürmüşdür.

Bu məqsədlərə Reyqanın prezidentliyi dövründə nail olan yəhudi diasporu ABŞ və İsrail arasında geniş tendensiyaya malik olan hərbi-siyasi əməkdaşlıq qurmuşdur. Ronald Reyqanı prezidentliyə namizədliyini dəstəkləyən yəhudi diasporu 4 milyon dollardan çox maliyyəni seçki kampaniyasına sərf etmişdir. Reyqanın seçki marafonunda rəqibi olan Mandeyi yəhudi diasporunun maliyyəsini və siyasi dəstəyini almaq üçün prezident seçiləcəyi təqdirdə İsrail ilə yeni münasibətlər mərhələsinə başlayacağına dair söz verdisə Reyqanın namizədliyini artıq qəbul etmiş yəhudi diasporu Yaxın Şərq məsələsində Amerika xarici siyasətini İsrail yönümlü etməyə nail oldu.( 67; səh.24-25).

1981-ci ildə Reyqanın prezident seçilməsindən sonra İsraillə ABŞ arasında «strateji əməkdaşlıq» müqaviləsi imzalandı və yəhudi diasporu üçün ABŞ-da siyasi və digər fəaliyyətlərinə yeni - hərbi sahədə fəaliyyət imkanları yarandı. Artıq yəhudi diasporu İsrailin hərbisinə silah almaqda azad idilər və bu imkandan istifadə edərək İsrail ərazisində Amerikanın ağır artilleriyasını yerləşdirilməsinə başlandı. Eyni zamanda yəhudi diasporu İsraildə «fövqəladə situasiyalar» üçün xüsusi hərbi kontingentin yaradılması üçün maliyyə yardımı toplamağa başladı. Nəticə isə İsrailin Livana qarşı



müharibədə İsrailin qələbə qazanmasına geniş imkanlar yarandı.(68; səh.29-30).

Livana qarşı hərbi əməliyyatlara başlamazdan öncə yəhudi diasporu İsrailə xarici sərmayələrin cəlb edilməsilə yanaşı Avropa ümumi bazarına qoşuldu. Yəhudi diasporunun Yaxın Şərq məsələsində ən böyük uğuru Misir ilə münasibətlərin yaradılması idi. 1973-cü il ***Məşhər Günü*** müharibəsindən sonra, 1977-ci ildə Ənvər Sədatın Yerusəlimə gəlişi və Misirin sülh müqaviləsinin imzalanması diasporda Ərəb-İsrail münaqişəsinin sona yetdiyi barədə ümüd yaratdı Ənvər Sədatın 1977-ci il noyabrında İsrail səfərini təşkil etməklə hər iki dövlət arasında sülhün imzalanmasına doğru müsbət addım idi. Ərəb diasporu Misirə təzyiq göstərib danışıqların dayandırılmasına çalışdısa buna nail ola bilmədi. 1978-ci ilin sentyabrında İsrail və Misir prezidentlərinin Kemp-Deviddə görüşü danışıqların kulminasiya nöqtəsi idi.

Kemp-Devid görüşünü yüksək səviyyədə təşkil edən yəhudi diasporu 1979-cu il 26 martında İsrail və Misir arasında sülh müqaviləsinin imzalanmasını təntənə ilə qeyd etdilər.

Ənvər Sədat və İsrailin baş naziri M.Behin Yaxın Şərqdə sülhün bərqərar olunmasında böyük roluna görə Nobel mükafatı ilə təltif olunmuşlar.İsrail və Misir arasında imzalanmış sülh müqaviləsinin şərtlərinə iqtisadi,siyasi,mədəni,diplomatik münasibətlərin qurulması ilə bərabər müharibə və təcavüzkarlıq aktlarının dayandırılması da daxil idi.

Bu hadisədən dərhal sonra ərəb diasporları və dövlətləri Misir ilə diplomatik münasibətləri kəsərək Misiri müsəlman dövlətinə xas olmayan hərəkət etməkdə günahlandırırdılar. Lakin daha sonra ərəb dövlətləri öz embarqolarını geri

götürməyə məcbur olmuşlar.

Bu münasibətlərin kəsilməsilə Misirin bu addımını xəyanət hesab edən terror təşkilatları Ənvər Sədatın ölümünə fitva verdilər və 1981-ci il oktyabrında Sədat öldürüldü. Sədatın öldürülməsi nəticəsində yəhudi diasporunda İsrail dövlətinin yeritdiyi xarici siyasət istiqamətində narazılıqlarının artmasına səbəb oldu. Yeni seçilən Misir prezidenti Hüsnü Mübarək gözlənilənlərin əksinə olaraq İsraillə münasibətlərdə radikal dəyişikliklər etmədi .(69; səh.43-44).

1983-cü ildə Livanla müharibənin 17 mayda sülh ilə sonuclanması yəhudi diasporunun İsrailə hərbi yardımının artırılmasından sonra qüvvətlənən İsrail ordusunun uğurlu hərbi əməliyyatlarının nəticəsi idi. Eyni zamanda yəhudi diasporunun livanlı ərəb diasporuna təzyiqinin artması və biznes əlaqələrinin kəsilməsindən qorxan livanlı ərəb diasporunun Livana artan təzyiqindən sonra **Xolde və Kiryat-Şmon sülh müqaviləsi** imzalandı. Yəhudi diasporu bu sülh müqaviləsinin ABŞ Senatında ratifaksiya edilməsinə nail olduqdan sonra İsrail Knesseti müqaviləni ratifaksiya etdi . (70; səh.101-102)

Ərəb diasporu bu hadisələr gedişində BMT-yə təzyiqi gücləndirərək 1982-c ilin 18 aprelində E-714 qətnaməsinin Baş Assambleyada qəbul edilməsinə nail oldular. Bu E-714 qətnamə ilə BMT İsrailin Haaqa (1907) konvensiyasını pozduğunu bildirərək İsrailin BMT üzvülük hüquq bazasını pozduğunu açıqlayırdı. Bu qətnamənin qəbul edilməsindən sonra 1987-90-cı illərdə Yaxın Şərq situasiyasında ciddi dəyişikliklər baş verdi. 1987-ci ilin dekabrından Fələstinin işğal olunmuş ərazilərində ərəblərin kütləvi üsyanları (əl-intifada) başlandı. Bu ərəb diasporunun Yaxın Şərq məsələsi



üzrə Amerika və beynəlxalq ictimaiyyətin bu problemə diqqətin artırılması üçün planlaşdırdığı iş idi. Bu üsyanlar başlayandan dərhal sonra Amerikada ərəb diasporları fələstinlilərin çıxışlarını dəstəkləyən təbliğat mexanizmini yaradaraq anti-yəhudi mübarizəsini genişləndirdilər. Ərəb diasporuna xidmət edən KİV-də fələstinlilərin üsyanlarının haqlı olmasına dair məlumatlar dərc olunmağa başlandı. **Ərəb diasporu Fələstinin 1988-ci il noyabrın 15-də işğal olunmuş Fələstin ərazilərində Fələstin Milli Yığıncağı müstəqilliyini elan etdi.** Bu hadisələrdən sonra ABŞ-dakı İsrailpərəst qüvvələr qərara gəldilər ki, daha uzunmüddətli strategiya işləyib hazırlasınlar. (71; səh.20-24).

1988-90-cı ildə dünyada baş verən ictimai-siyasi dəyişikliklər və SSRİ-nin dağılmasından sonra Yaxın Şərqdə Fələstin və İsrail arasında danışıqların başlanmasına səbəb olan ərəb və yəhudi diasporları 1993-cü ilin sentyabr ayında Fələstin Azadlıq Təşkilatı (FAT) İsrailin təhlükəsiz və sülh şəraitində fəaliyyət hüququnun tanınmasına, İsrail isə öz növbəsində FAT-ın Fələstin xalqının nümayəndəsi kimi qəbul edilməsinə nail oldular. **1994-cü ilin noyabrında FAT və İsrailin Qahirədə, daha sonra Vaşinqtonda Qəzzə bölgəsi və Yerixan rayonunun idarə edilməsinə dair müqavilənin imzalanmasında hər iki diasporun rolu böyük idi** (72; internet məlumatı).

İsrailin diplomatik cəhətdən Vatikan ilə münasibətlərinin gücləndirilməsi xüsusi əhəmiyyət daşıyır.1993-cü ildə Yerusəlimdə Vatikan ilə imzalanmış müqavilə dini cəhətdən də böyük əhəmiyyəti vardır. Bu kilsənin yəhudi xalqına və iuadizmə münasibətinin müsbət istiqamətdə dəyişməsini göstərir. Bu müqavilənin imzalanması

başlanğıcını 1965-ci ildə Vatikan tərəfindən qəbul edilmiş «Nostra Aetate» deklarasiyasından götürür.

Yəhudi diasporunun Yaxın Şərq məsələsində ən böyük uğurlarından biri də İordaniya və İsrail arasındakı 46 illik müharibənin sülh ilə bitməsi idi. 1994-cü ilin 25 iyulunda İordaniya kralı Hüseyn və İsrailin baş naziri Rabin Ağ evdə sülh müqaviləsini imzaladılar. Bu müqavilənin sonuncu nöqtəsi 26 oktyabr 1994-cü ildə Arava sərhəd rayonunda Macali, Rabin və Klintonun iştirakı ilə *"Vaşinqton deklarasiyası"* imzalandı. Bu müqavilənin 27 noyabr 1994-cü ildə hər iki dövlətdə ratifaksiyasından sonra diplomatik əlaqələrlə yanaşı ticari, iqtisadi, mədəni, və s. sahədə əlaqələrin genişlənməsi barədə ikitərəfli sənədlər imzalandı.(73; internet məlumatı).

Müasir dövrdə İsrail və Fələstin arasında münasibətlər hələ də işğal olunmuş bəzi ərazilərin qaytarılması yolunda kəskin olmaqda davam etməkdədir. ***Uayt Plantayeşn , 1999-cu il noyabr Uay 2 , 1993-cü il 13 sentyabr İsrail- Fələstin birgə deklorasiyası,1996-cı il Hevron razılaşması,1999-cu il Şərm əl-Şeyx memorandumu*** və s. müqavilələrinin imzalanmasına baxmayaraq Yerusəlimin statusu uğrunda mübarizə davam edir. Qeyd edək ki, xristian, müsəlman və yəhudilərin bu şəhərə iddiaları vardır. Bu üç dində Yerusəlim müqəddəs şəhər kimi qəbul edilir.

***«Bu kimi məsələlər ABŞ-ın Fələstin məsələsinə münasibətini zəiflədə bilər»*** - deyən ABŞ-ın dövlət katibi Madlen Olbraytın açıqlamalarından sonra ərəb və yəhudi diasporları təşvişə düşmüş və hər iki diaspor öz dövlətlərinə təzyiqlərini artıraraq sülh müqaviləsini imzalamaqda dövlətlərini tələsdirirlər. (74; səh.22).



2000-ci ilin ortalarından başlayaraq Yaxın Şərq üzrə sülh danışıqlarının növbəti mərhələsi başlanmasına baxmayaraq müzakirələr razılıq əldə olunmadan başa çatmışdır. İsrailin baş naziri Ehud Barakın Yerusəlimin Fələstin dövləti və İsrail arasında iki hissəyə bölünməsi fikirləri Beynəlxalq aləmdə sensasiya səbəb oldusa başlanan danışıqlar Parisdə ABŞ-səfirliyinin binasında aparılmasına və burada ABŞ dövlət katibi Medlen Olbrayt, BMT-nin baş katibi Kofi Annanın iştirak etməsinə baxmayaraq ümumi dil tapılmamışdı. Ancaq fələstinlilərlə İsrail polisi arasında Qüds və Heron şəhərlərində toqquşmalar və Yasir Ərəfatın Ehud Barakla danışıqları biabırçı adlandırması danışıqların yarıda kəsilməsinə səbəb olmuşdur.

Müasir dövrdə Yaxın Şərq məsələsi dünya *ictimaiyyətinin* diqqətindədir və dünya dövlətləri Ərəb-İsrail münaqişəsinin sülhlə nəticələnməsini istəyirlər. Bu münaqişədə mühüm rol oynayan yəhudi və ərəb diasporları razılığa gələ bilsələr güman olunan sülh müqaviləsinin imzalanması sürətlənəcəkdir. Yaxın Şərqdə strateji münasibətlərin prinsipial surətdə dəyişməsində və uzun müddət davam edən Ərəb-İsrail münaqişəsi sülh ilə nəticələnməsi, dünyada stabillik və sülh proseslərin güclənməsi üçün aşağdakı tədbirlər proqramın həyata keçirilməlidir

***1) Dünyadakı yəhudi və ərəb diasporları arasında razılığın əldə olunması, sülh yaratmaqdan ötrü birgə tədbirlərin həyata keçirilməsi***

***2) İsrail və Ərəb ölkələri arasında konflikti gərginləşdirəbiləcək hərəkətlərə dövlətlər səviyyəsində maratori qoymaq,mövcud qanunverilicikdən irəli gələn demokratik çərçivədə tədbirlər görülməsi***

*3) İsrail və Ərəb ölkələri arasında işgüzar tərəfdaşlıq atmosferinin yaradılması, etibarlı münasibətlərin qurulması*

*4) Münaqişənin dayandırılması üçün İsrail və Ərəb ölkələri arasında preventiv diplomatiya xidmətinə yer verilməsi, səriştəli konfliktoloqların fəaliyyətinə şərait yaratmaq*

*5) Yerusəlim şəhərinin statusu məsələsində birgə konsensusa gəlinməsi*

*6) İsrail və Ərəb ölkələri arasındakı siyasi münasibətləri və konfliktli vəziyyəti idarə oluna biləcək məcaraya salmaq və s.*



## 2. «Erməni genosidi» və erməni-türk diasporlarının qarşıdurması

XX əsr dünya tarixinə dərin ictimai-siyasi inqilablar əsri, yüz illərin qəflət yuxusundan oyanmış Şərqin feodalizmə və xarici zülmə qarşı mübarizə əsri kimi daxil olmuşdur. Bəşəriyyət tarixində əvvəllər misli görünməmiş həmin proseslər dünya xəritəsini dəyişdi və müstəmləkə metropoliya əsarətinə son qoydu. Özünün yüz illərlə formalaşmış dünya ağalığı sistemi təhlükə altına düşmüş olan böyük imperiyalar Şərqdə gedən dərin prosesləri öz mənafelərinə tabe etmək və ona istənilən istiqaməti vermək üçün siyasi-iqtisadi, hərbi, təxribatçılıq və mədəni təfəkkürə sığmayan bütün digər vasitələrdən istifadə etməyə başladılar. Bu geniş əhatəli və ümumdünya əhəmiyyəti daşıyan proseslərdən imperialist dövlətlər tərəfindən hələ əvvəllər ortaya atılmış «Şərq məsələsi» deyilən məsələ özünün ən yüksək zirvəsinə çatdırıldı və Osmanlı imperiyasının süqutu ilə nəticələndi.(35; səh.7).

Bu hadisələr fonunda «Şərq məsələsi»nin ən dəhşətli qolu - «erməni məsələsi» - tarix səhnəsində arasıkəsilməz faciələr mənbəyinə çevrildi. Tarixi hadisələrə bələd olan hər kəsə yaxşı bəllidir ki, bu məsələ Osmanlı imperiyasını zəiflətmək və son nəticədə Şərqin dəyişən xəritəsini dünya imperializminin mənafeyinə uyğun şəkildə formalaşmasını təmin etmək məqsədi ilə yeridilən çoxyönlü siyasətin mühüm tərkib hissəsidir. Erməni xalqının öz müqəddəratını özü təyin etmək pərdəsi altında dünya siyasətinə daxil olan bu məsələ əslində erməni diasporu və lobbisinin mənafeyinə uyğun

olaraq «**Türk və Qafqaz torpaqları hesabına, dənizdən-dənizə Böyük Ermənistan imperiyası**» yaradılması haqqında tarixdə oxşarı olmayan bir avantüradır.(76; səh.32).

«Erməni məsələsi» xüsusi bir istilahdır. 1878-ci ildə Berlin sülh konfransında ortaya atılıb. Demək olar ki, ümumdünya statusu qazanan «erməni məsələsi» bir çox xalqın, xüsusən ermənilərlə təmasda olan, onlarla qonşuluqda yaşayanları və dünyanın müxtəlif bölgələrindəki xalqların mənafeyinə toxunur, onları ixtilafa, müharibəyə mübtəla edir. Və erməni diasporu bu «məsələni» hər hansı bir imkan düşən kimi istifadə edirlər. Hər yerdə, həmişə ermənilərin bu «məsələni» həll etmək sahəsindəki fəaliyyəti dəyişdiyi kimi dövrü səciyyə daşıyır, gah güclənir, gah zəifləyir. Onlar yaşadığı ölkədə vəziyyət sabit olan dövrdə «erməni məsələsi» sakitləşir, ancaq sönmür. Bu vaxt isə erməni ideoloqları erməni diasporunda ideoloji iş aparır - ermənilər arasında millətçi digər millətlər arasında isə kosmopolit ideya təbliğ edirlər. (77; səh.91).

XIX əsrin sonlarına «erməni məsələsi» - çıxana qədər ermənilər Osmanlı imperiyasının tərkibində rahat və dinc yaşayırdılar.Osmanlı imperiyasında yüksək dövlət postlarına belə gətirilmiş olan ermənilərdən 1834-cü ildə Parisdə türk səfirliyinin müşaviri Akop Girçikyan,1862-ci ildə Belçikadakı türk səfirliyinin başçısı Diyan Aleksan bəy,1907-ci ildə İtaliya səfiri Hirant Düz bəy və s.misal göstərmək olar.Ancaq ermənilərə bu azlıq edirdi və onlar verilən imtiyazlardan sui-istifadə edirdilər. Çar Rusiyası və I Pyotr tarixdə ilk dəfə olaraq Osmanlı imperiyasının ərazilərində erməni dövlətinin yaradılması fikrin onların beyninə saldıqdan və onlar bir vasitə kimi istifadə olunmağa razılıq verdikdən sonra onlar bu imtiyazlardan sui-istifadə



etməyə başlamışlar. Rusiya "**Balkan və Qafqaz torpaqlarını və xalqlarını Türkiyə zülmündən xilas etmək**" şüarlarından istifadə etməklə Şərqə doğru öz təsirini gücləndirmək istəyirdi. (78; səh.28).

«Erməni məsələsi» erməni və ermənipərəst dövlətlərin diplomatiya tarixində Qərb ermənilərinin azadlıq, erməni xalqının öz müqəddəratını özü təyin etmə və müstəqil dövlət qurulması adlanır. 70-ci illərdə (XIX əsr) Rus-Türk müharibəsindən sonra (1877-78) «erməni məsələsi» Şərq məsələsinin əsas hissəsinə çevrilmişdir və bununla da Rusiya türklərə qarşı mübarizədə Türkiyəni içəridən parçalayacaq olan qüvvəni - erməniləri ortaya atdılar. Nəticədə 1878-ci il 19 aprel San Stefano müqaviləsinə görə Türkiyə (Osmanlı imperiyası) tərkibində erməni muxtariyyətini tanıyır və ermənilərin müdafiəçisi isə Rusiya olur.(79; səh.194).

San Stefano sülh müqaviləsindən sonra İngiltərənin baş naziri lord Bikonfild (Dizraeli) bu müqavilədə nəzərdə tutulan və *ermənilərə geniş səlahiyyətlər verən* Berlin traktatının 61-ci maddəsinə uyğun olaraq qəbul edilən San Stefano sülh müqaviləsinin16-cı maddəsinin Berlin konqresində ləğv edilməsinə nail oldu və bu da erməni tarixçiləri arasında lord Bikonfildin düşmən kimi qəbul edilməsinə səbəb oldu.

1878-ci ildən başlayaraq Türkiyədəki erməni diasporuna təşviqatçılar gəlməyə başlamış və daha sonradan qüdrətli dövlətlərin əlində «siyasi karta» çevriləcək olan «Böyük Ermənistan» ideyalarını təbliğ etməyə başlamışlar. Türkiyədəki erməni diasporunda başlayan «Böyük Ermənistan uğrunda mübarizə» az zaman içərisində bütün dünya erməniləri üçün bəhanə oldu.

Berlin konqresinin qərarları erməni diasporunda milli

erməni dövlətinin yaradılması uğrunda mübarizədə artıq Rusiyanın yox, bütün böyük dövlətlərinin köməyinə ümüd doğururdu.

Bu xülyalar ermənilərə «dənizdən-dənizə Böyük Ermənistan» vəd edən ingilis diplomatiyası tərəfindən də cəhdlə qızışdırılırdı. İngiltərə Şərqdə müstəmləkələrini qoruyub saxlamaqdan ötrü "erməni məsələsindən" məharətlə istfadə edirdi. Ancaq siyasi müttəfiq oriyentasiyanı dəyişmək yalnız ermənilərin tam təcrid olunmasına gətirib çıxartdı. Böyük dövlətlərin köməyindən ümüdü qırılmış erməni diasporu artıq oyuncaq olduqlarını başa düşürdülər və onlar başqa varianta: silahlı üsyana qalxdılar. Bu üsyanda böyük rolu ilə aşağdakı partiyalar oynamaqla yanaşı əsas rəhbərlik onların əlində idi. **"Millətçi Armenikan"** (1885-də Fransada yaradılıb. Dünyanın müxtəlif bölgələrində şöbələri var. Türk və kürdlərin məhv edilməsində rolu olduğu sübuta yetirilib), **"Hnçak"** (İsveçrədə 1887-də yaradılıb. Təbliğat, terror, şantaj, əsas mübarizə proqramı kimi qəbul edib, türk, kürd və s. xalqlarla yanaşı onların ideyasını qəbul etməyən ermənilərə qarşı terror həyata keçirib), **"Daşnaksütun"** (1890-da Tiflisdə yaradılıb. Terror və şantaj bu partiyanın əsas silahıdır) partiyaları yaradılmış və böyük dövlətlərin diqqətini Ermənistandakı hadisələrə cəlb etmək və bunlara Berlin traktatının 61-ci maddəsinin təəhhüdlərinin yerinə yetirilməsini Türkiyədən tələb etmək idi.(80; səh.12-15).

1915-ci ildə Tiflisdə ümumdünya ermənilərinin konqresi keçirildi. Burada əsas məsələ Türkiyə ermənilərinin silahlandırılması üçün diasporlardan vəsait toplanması və Rusiyanın dəstəyinin qazanılmasından ötrü Rusiyadakı erməni



diasporunun gücləndirilməsi qərarlaşdırıldı. 1915-ci il 27 mayda Van üsyanı, 1890-cı il Ərzurum üsyanı, 1894-cü il Sasun üsyanı, 1892-93-cü illər arası Kayseri,Yozqat,Çorum və Merzifon üsyanları həyata keçirilmişdir.Bu üsyanların Osmanlı dövləti tərəfindən sakitliklə yatırılmasına isə Rusiya,İngiltərə və ermənilərə havadarlıq edən dövlətlərin mətbuatında **«Müsəlmanlar xristianları məhv edir ,erməni xristian qardaşlarımız məhv olur»** başlıqlı yazılar dərc olunmuşdur.Bu hadisələrdən bacarıqla istifadə edən erməni diasporunun rəhbərliyi istədiyinə nail oldu-**erməni məsələsi beynəlxalq səviyyədə müzakirə olunmağa başlandı**. Bu məsələnin bu səviyyəyə qaldırılması Türkiyəyə düşmən olan dövlətlərə sərf edirdi. Rusiya və İngiltərə diplomatiyası xristian missionerləri adı altında gizli agentlərini ermənilərə kömək adı altında Türkiyəyə göndərməklə erməni diasporu arasında təbliğatın genişlənməsinə və onlara rəhbərliyin öz əllərinə almağa imkan yaratdı. (81; səh.25).

***Türk internet səhifələri olan «www.ermenisorunu.gen.tr!», «www. armenianterror.com.tr» , «www.turkishforum.com..tr», «www. mfa. gov. tr» «www.turk.net»*** axtarış mərkəzi və digər internet səhifələrində araşdırma apardıqdan, bu illərə aid olan arxiv sənədləri ilə tanış olduqdan sonra maraqlı faktlar aşkara çıxır.

Erməni diasporunun Türkiyə daxilində Qərbi Ermənistan yaratmaq planlarının olması və bu planlara Rusiya,İngiltərə və Fransanın rəhbərlik etməsi Gənc Türklər hökumətini məcbur etdi ki,beynəlxalq aləmdə sıxışdırılan ölkələrinin daxildən ermənilər tərəfindən

parçalanmasının qarşısını almaq məqsədilə ermənilərə qarşı tədbirlər həyata keçirsin.Bu ərəfədə davam edən Rus-Türk müharibəsində 180 minə yaxın ermənin Rus qoşunları tərkibində dinc türk vətəndaşları ilə yanaşı onlarla birgə olmayan ermənilərin də öldürülməsinin qarşısını almaq məqsədilə Gənc Türklər hökuməti bu ərazilərdə yaşayan ermənilərin köçürülməsi və üsyana rəhbərlik edən erməni komitələrinin bağlanması ilə bağlı Məclisi-Vükəladan fərman verilməsini tələb etdi.Düşmənlə işbirliyi edən,günahsız türk vətəndaşlarını qətl yetirən və üsyan etməklə Türkiyəni parçalamaq istəyən ermənilərin Suriya,İraq və digər ərazilərə köçürülməsilə əlaqədar Məclisi-Vükəla 30 may 1915-ci il 198/165 sıra nömrəli Təhcir(köçürülmə) fərmanın qəbul etdi.Fərmanın orijinal mətni və osmanlı türkcəsində məzmunu aşağdakı kimidir:

MECLÝS-Ý VÜKELA'NIN TEHCÝR KARARI





**[Düþmanla iþbirliði yapma, masum halký *katletme ve isyaçýkarma gibi zararlý hareketlerde* bulunan Ermenilerin Musul, Zor, Halep ve Suriye'nin bazý bölgelerine sevkleri için, Dahiliye Nezâreti'nin 13 Mayýs [1]331 tarihli ve 270 numaralý tezkiresi üzerine, Meclis-i Vükelaca alýnan tehcir kararý.]**

16B. 1333 (30 Mayýs 1915) Sýra numrosu: 163 Meclis-i Vükelâ Müzâkerâtýna Mahsûs Zabýtnâme Hülasâ-i me'âlî Menâtýk-ý harbiyyeye civâr mahallerde sâkin Ermenilerden bir kýsmýnýn hudûd-ý Osmâniyye'yi a'dâ-yý devlete karþu muhâfaza ile meþgûl olan Ordu-yý Hümâyûn'un harekâtýný tas'îb ve erzâk ve mühimmât-ý askeriyye nakliyâtýný iþkâl ve düþman ile tevhîd-i âmâl ve ef'âl ve bi'l-hâssa supîf- âdâya iltihak ve memleket dâhilinde kuvây-ý askeriyyeye ve ahâlî-i ma` sûmeye müsellahan ta`arruz ve þuhûr ve kasabât-ý Osmaniyye'ye tasallut ile katl ve nehb ü gârete ve düþman kuvâ-yý bahriyyesine erzâk tedârikiyle mevâki'-i müstahkemeyi irâ'eye cür'etleri bu gibi anâsýr-ý ihtilâliyyenin sâha-i harekâtdan uzaklaþdýrýlmasýný ve usâta üssü'l-harekât ve melce' olan köylerin tahliyesini îcâb ederek bu bâbda ba`zý gûna icrâ'âta baþlanýldýðý ve mine'l-cümle Van, Bitlis, Erzurum vilâyâtýyla nefs-i Adana, nefs-i Sis ve nefs-i Mersin müstesnâ olmak üzere Adana, Mersin, Kozan, Cebel-i *Bereket livâlarý ve nefs-i Mar'aþ müstesnâ olmak üzere Mar'aþ* sancaðý ve Haleb vilâyetinin merkez kazâlarý müstesna olmak üzere Ýskenderun, Belen, Cisr-i þu'ûr ve Antakya kazâlarý kurâ ve kasabâtýnda sâkin Ermenilerin vilâyât-ý cenûbiyyeye sevkine bi'l-ibtidâr Van vilâyetiyle hem-hudûd olan kýsm-ý þimâlîsi müstesnâ olmak üzere Müsul vilâyetine ve Zor sancaðýna ve nefs-i Urfa müstesnâ olmak üzere Urfa sancaðýnýn kýsm-ý cenûbiyyesine ve Haleb vilâyetinin þark ve þark-ý cenûbî kýsmýna ve Sûriye vilâyetinin kýsm-ý þarkîsinde ta`yîn ve tahsîs edilen mahallere nakl ve iskânýna mübâþeret ve devâm edilmekde bulunduðu beyânýyla menfa'at-i esâsiyye-i devlete muvâfýk telakkî edilen bu cereyânýn bir usul ve kâ`ide-i muttarideye rabtý lüzûmuna ve

bu bâbda ba`zý ifâdâta dâ'ir Dâhiliye Nezâreti'nin 13 Mayýs sene (1)331 târîhli ve 270 numrolu tezkiresi okundu. KARARI Fi'l-hakîka devletin muhâfaza-i mevcûdiyyet ve emniyyeti uðrunda tevâlî eden icrâ'ât ve ýslâhât-ý fedâkârîsi üzerine icrâ-i sû-i te'sîre sebep olan bu kabil harekât-ý mazarranýn icrâ'ât-ý mü'essire ile imhâ ve izâlesi kat`iyyen muktezî ve nezâret-i müþârün-ileyhâca bu emrde ibtidâr olunan icrâ'âtdaki isâbet bedîhi olduðundan tezkire-i mezkûrede dermiyân kýlýndýðý üzere muharrerü'l-esâmî kurâ ve kasabâtda sâkin Ermenilerden nakli îcâb edenlerin mahall-i mürettebe-i iskâniyyelerine müreffehen sevk ve îsâlleriyle güzergâhlarýnda te'mîn-i istirâhât ve muhâfaza-i cân ve mâllarý ve muvâsalâtlarýnda keyfiyyet-i îðvâlarýyla sîyret-i kat`iyyede iskânlarýna kadar "Muhâcirîn Tahsîsâtý"ndan i'âþeleri ve ahvâl-i sâbýka-i mâliyye ve iktisâdiyyeleri nisbetinde kendilerine emlâk ve arâzî tevzî`i ve içlerinden muhtâc olanlara taraf-ý hükûmetden mesâkin inþâsý ve zurrâ' ve muhtâcîn-i erbâb-ý san`ata tohumluk ve âlât ve edevât tevzî'i ve terk etdikleri memlekette kalan emvâl ve eþyâlarýnýn veyâhûd kýymetlerinin kendilerine suver-i münâsibe ile i'âdesi ve tahliye edilen köylere muhâcir ve aþâ'ir iskânýyla emlâk ve arâzînin kýymeti takdîr edilerek kendilerine tevzî`i ve tahliye edilen þuhûr ve kasabâtda ka'in olup nakledilen ahâlîye â'id emvâl-i gayr-i menkîýlenin tahrîr ve tesbît-i cins ve kýymet ve mikdârýndan sonra muhâcirîne tevzî`i ve muhâcirînin ihtisâs ve iþtigâlleri hâricinde kalacak zeytunluk, dutluk, bað ve portakallýklarla dükkân, hân, fabrika ve depo gibi akârâtýn bi'l-müzâyede bey' veyâhûd îcârý ile bedelât-ý bâliðâsýnýn kendilerine i`tâ edilmek üzere ashâbý nâmýna emâneten mâl sandýklarýna tevdi i ve mu`âmelât ve icrâ`ât-ý mesrûdenin îfâsý zýmnýnda vukû' bulacak sarfiyâtýn "Muhâcirîn Tahsîsâtý"ndan tesviyesi zýmnýnda nezâret-i müþârün-ileyhâca tanzîm edilmiþ olan tâ`lîmâtnâmenin bi-temâmihâ tatbîk-i ahkâmýyla emvâl-i metrûkenin te'mîn-i muhâfaza ve îdâresi ve mu'âmelât-ý umûmiyye-i iskâniyyenin tesrî' ve tanzîmî ve tedkîk ve teftîþi ve bu husûsda ta`lîmâtnâme ahkâmý ve nezâret-i müþârün- ileyhâdan ahz ve telakkî edilecek evâmîr dâ'iresinde mukarrerât ittihâz ve tatbîki ve tâlî komisyonlar teþkîli ile ma`âþlý memûr istihdâmý vazîfe ve salâhîyyetlerini hâ'iz olmak ve doðrudan doðruya Dâhiliye Nezâreti'ne merbût bulunmak ve bir re'îsi ile biri me'mûrîn-i dâhiliyyeden ve diðeri me'mûrîn- i mâliyyeden intihâb ve ta`yîn edilecek iki a`zâdan terekküb etmek üzere komisyonlar teþkîl edilerek mahallerde mezkûr ta`lîmâtnâmenin vâlîler tarafýndan icrâ-yý ahkâmý tensîb edilmiþ olduðunun cevâben nezâret-i müþârün-ileyhâya teblîði ve devâ'ir-î müte'allikaya ma'lûmât i'tâsý tezekkür kýlýndýðý.

17 Mayýs 1331
Meclis-i Vükelâ Mazbatasý, 198/163

Bu fərman 14 valiliyə göndərilərək qısa müddətdə həyata keçirilməsini tələb edildi.İstanbul,Adana,Aydın və Kayseri şəhərlərinə köçürülmə fərmanı şamil edilməsə də bu şəhərlərdə fəaliyyət göstərən erməni komitələri bağlanaraq üsyan hazırlamaqda ittiham edilən ermənilər həbs olunmuşdur. İstanbulda yaşayan 82880 ermənidən 2345 erməni və digər şəhərlərdə isə ümumi olaraq 3495 erməni həbs edilmiş idi.

Xüsusilə 13 əyalətdə-Van, Qars, İqdır, Ərdahan, Artvin, Trabzon, Rizə, Muş, Bitlis, Gümüşhanə, Baybut, Ərzurum və Ərdahandan ermənilərin köçürülməsinin 3 əsas səbəbi vardır:

***1) Erməni diasporunun iddiasına əsasən və Rusiya,İngiltərə diplomatları tərəfindən tərtib edilmiş "Böyük Ermənistanın Qərb hissəsinin" bu 13 əyaləti əhatə etməsi***

***2)Bu əyalətlərdə yaşayan ermənilərin yerli türk vətəndaşlarına qarşı amansız münasibəti və onları sıxışdırması***

***3)Bu ərəfədə davam edən Rus-Türk müharibəsinin bu 13 əyaləti əhatə etməsi səbəbi ilə bu ərazilərdə məskunlaşmış***

*ermənilərin təhlükəsizliyini təmin etmək idi.*

Yuxarıda adları sadalanan səbəblər nəticəsilə həyata keçirilən köçürülmə zamanı ermənilərin əmlakının qorunması məqsədilə Gənc Türklər hökuməti yeni bir fərman da imzalamışdı.Bu fərmana əsasən köçürülən ermənilərin əmlakının qiyməti hesablanaraq sahiblərinə ödənilirdi.Sahibi bəlli olmayan əmlakın dəyəri isə erməni kilsəsinə verilirdi.Bütün bu fərmanlar tarixi sənədlərdə öz əksini tapmışdır.Bunu tarixi araşdırmalarla məşğul olan alimlər də təsdiq edirlər.

Köçürülmə zamanı müxtəlif bölgələrdə müqavimət göstərməkdə ittiham olunan 1397 erməni həbs edilmişdir. Köçürülən ermənilər gəmi və digər nəqliyyat vasitələr ilə ölkədən çıxarılmış,əksər ermənilər isə İstanbul,Adana,Aydın və Kayseri şəhərlərinə gəlmiş və bir müddətdən sonra ölkəni tərk etmişlər.

Ermənilər və onların havadarlarının bu gün Türkiyəyə qarşı sürdükləri ittihamları araşdırdıqdan sonra aşağdakı nəticəyə gəlmək olar:

1) ***Hadisələrin baş verdiyi zaman Türkiyə ərazisində nə qədər erməni yaşamışdır?***

Bu sual ətrafında müxtəlif rəqəmlər və fikirlər mövcuddur.Erməni tərəfinin 1916-cı ildən bəri bu rəqəmi 600 mindən 3,5 milyona qədər şişirtməsinə baxmayaraq müxtəlif dövrlərdə tarixçilər tərəfindən aparılmış araşdırmalar zamanı müxtəlif rəqəmlər ortaya çıxmışdır:

***1) Erməni kilsəsini əsas tutan erməni əsilli Marsel Leorta görə________________2,560,000***

***2) Erməni tarixçisi Basmaçyana görə________2,380,000***

***3) Paris sülh konfransında iştirak edən erməni nümayəndə heyətinin sədri Poqos Nubar paşaya görə________________2,250,000***



***4) Erməni tarixçisi Gevorq Aslanın "Ermənistan və ermənilər" kitabına görə________________1,800,000***

***5) Alman İohann Lepsiusa görə____________1,600,000***

***6) Ensklopediya Britanika görə____________1,500,000***

***7) Fransız "Sarı kitabı"-na görə____________1,400,000.***

***8) H.F.B.Linçə görə________________1,345,675***

***9) Lüdoviq de Konstensona görə____________1,345,000.***

***10) Revyu de Parisə görə______________1,300,000***

***11) Osmanlı statikasına görə____________1,221,850***

***12) Patrik Nerses Varcabedyana görə________1,150,000***

***13) İngilis illiyinə görə________________1,056,000***

Türkiyədə yaşayan ermənilərin sayı barədə müzakirə hələ 1878-ci il Berlin konqresində də müzakirə olunmuşdur.Burada "müstəqillik" tələb edən erməni tərəfi Türkiyədə yaşayan ermənilərin sayının 3,000,000 milyona yaxın olduğunu bildirmiş idilər. Lakin konqresdə Türkiyədə yaşayan xristianlardan vergi alınması məsələsi ortaya çıxan zaman ermənilər Türkiyənin bildirdiyi rəqəmlə 1,001,465 milyonla razılaşmışlar.

Türkiyədə yaşayan ermənilərin sayı 1893-cü il statikasına görə 1,006,897milyon,1906-cı il statikasına görə 1,120,748 milyon,1914-cü il statikasına görə isə 1,221,850 milyon olduğu sənədlərdə öz əksini tapmışdır.

Göründüyü kimi, Türkiyədə yaşayan ermənilərin sayı barədə yekdil fikir yoxdur.Bu isə erməni yalanlarının bariz nümunəsidir.

***2) Bu hadisələr zamanı erməni itkisinin sayı nə qədərdir?***

Bu məsələdə də ermənilər tərəfindən fantastik şişirtmələr vardır.Araşdırmalardan sonra aşağdakı rəqəmlər ortaya çıxır:

1) Gənc Türklər hökumətinin daxili işlər naziri Tələt paşanın(1921-ci ildə Almaniyada tələbə Soğomon Teyleryan tərəfindən öldürülmüşdür) İttihad və Tərəqqi partiyasının son toplantısında erməni itkisinin sayının 360 min olduğunu bildirmişdir.

2)Fransız din adamı Monsinyor Toçettinin 1916-cı ildə Ouvere dOryent qurumunun təşkil etdiyi konfransda 500 min erməni itkisinin olduğunu bildirmiş və sonra əlavə etmişdir ki,bu rəqəm ermənilər tərəfindən şişirdilmiş də ola bilər.

3)Tarixçi Toynbeyə və Ensklopediya Britanikin 1918-ci il buraxılışına görə isə 600 min erməni itkisi olmuşdur.

4)Poqos Nubar paşanın Paris sülh konfransında bildirdiyinə görə isə 300-350 min arası erməni itkisi olmuşdur.

5)Amerika alimlərindən ibarət komissiyanın yazılı və şifahi mənbələrinə görə 500 min erməni itkisi olmuşdur.

Türkiyədə 1916-cı ildə araşdırma aparılmış və məlum olmuşdur ki,1915-ci ildə Türkiyədə yaşayan ermənilərin 1,221,850 nəfər ermənidən 850 mini Qafqaz,Bolqarıstan,Livan,Suriya,Avstriya,Fransa,Misir, İraq və digər ərazilərə köçmüşlər.Tarixçi alimlərin gəldiyi nəticə isə bu hadisələr zamanı 200 minə yaxın erməni itkisi olmuşdur ki,bunların əsas hissəsin erməni quldur dəstələri təşkil edir.

Bunu professor Castin Makkarti də araşdırmış və aşağıdakı nəticəyə gəlmişdir.



1) Ümumilikdə Anadoluda 600 min erməni və 2,5 milyon müsəlman həlak olub, əgər bu «genosid» olubsa onda ən azı qəribə «genosid» olub. Cəlladların sayı «qurbanlardan» çox olub.

2) Rəqəmlərin dili ilə desək həlak olanların və qovulanların miqdarı üzrə hamıdan çox əzab çəkən Krım və Qafqaz müsəlmanları (azərbaycanlılar) olub.

3) 1870-ci ildən 1920-ci ilə qədərki dövrdə təqribən 600 min erməni Rusiyaya mühacirət etmiş, 2 milyon müsəlman isə Rusiyanı tərk etmişdir.(77; səh.338).

Göründüyü kimi erməni tərəfinin iddia etdiyi 2 milyon erməni itkisindən söhbət belə gedə bilməz.Bu rəqəmi iddia edənlərin məqsədi tarixi faktları ört-badır etmək və ölü istismarı yaratmaqdan başqa heç bir məna daşımır.

***3)24 aprel "erməni genosidi" -nin anma günüdürmü?***

24 aprelin ermənilər tərəfindən hər il anma günü kimi keçirilməsinin əslində "erməni genosidi" ilə heç bir bağlılığı yoxdur.İddiaların əksinə olaraq bu tarixdə İstanbul yaxınlığında Türkiyədə başlanacağı planlaşdırılan geniş miqyaslı üsyana rəhbərlik etmək üçün İstanbula gələn,tərkibi rus,ingilis və erməni yüksək çinli zabitlərdən ibarət dəstə Türk polisi tərəfindən həbs olunmuşdur.Bu erməni diasporunun bütün ümüdlərinin qırılması demək idi. ***Əslində 24 aprel "erməni genosidi" -nin anma günü deyil erməni ümüdlərinin qırılması günüdür.***

***4)1915-ci ildə "erməni genosidi" olmuşdurmu?***

Bu suala cavab verməkdən ötrü genosid sözünün mənasına diqqət yetirək. Genosid yunanca «GENOS»(irq,təbəqə) və latınca «SIDE» (öldürmə) sözlərindən ibarət olub **"hər hansı bir milli, etnik,irqi vəya**

**dini qrupu bir qrup kimi tamamilə və ya qismən məhv edilməsi"** deməkdir. Polyak əsilli Amerikan hüquqşünası Rəfael Lemkinin beynəlxalq hüquq elminə gətirdiyi bu termini 1915-ci ildə Türkiyədə həyata keçirilmiş köçürülmə əməliyyatına aid etmək olarmı?

Türkiyə arxivlərini ABŞ-dan 605, Yaponiyadan 203, Avstriyadan 165, Almaniyadan168,Fransadan 150, Səudiyyə Ərəbistanından 90, İrandan 84, İngiltərədən 74, İsraildən 70, Liviyadan 63, Macarıstandan 58, Argentinadan 52, Bolqarıstandan 47, Misirdən 42, Hollandiyadan 39,Rumuniyadan 36,Əlcəzairdən 35,Tunisdən 35,Kanadadan 28, erməni əsilli 180 və dünyanın müxtəlif dövlətlərindən olan tarixçi alimlərin arşdırmasından sonra 85%-nin gəldiyi nəticə aşağdakı kimi olmuşdur;

***1915-ci ildə Türkiyədə genosid olmamışdır*** .Bu əməliyyat sadəcə olaraq köçürülmə xarakteri daşıyır.Hadisələr zamanı sayı təqribən ***200 minə yaxın olan ermənininin ölmə səbəbi xəstəlik və baxımsızlıq olub.*** Türk polisi tərəfindən öldürülən 50 min ermənilər isə quldur dəstələrinin üzvləri olmuşlar.Onların öldürülməsinin səbəbi dinc türk kəndlilərinə və köçürülmə zamanı öz ermənilərinin əmlakını talan etmək məqsədi ilə edilən basqınlar idi.

Bu faktı təsdiq edənlər içərisində ABŞ-ın Kaliforniya ştatında yaşamış və hadisələrin canlı şahidi olmuş 100 yaşlı Albert Y.Amate adlı bir erməni xüsusi olaraq seçilir.1989-cu ilin 20 aprelində Amate vəkili vasitəsi ilə açıqlama vermişdir;

***1915-ci ildə "erməni genosidi" olmayıb və bu barədə irəli sürülən bütün ittihamlar əsassızdır.***



Albert Y.Amate kimi bir çox hadisə iştirakçıları bu cürə açıqlama vermişlər.Hələ 1915-ci ildə İngiltərə kralı Türkiyədə baş verən hadisələr barədə Lordlar Palatasından açıqlama istəmişdir. Lordlar Palatası Britaniyanın Batumdakı konsulluğunun göndərdiyi cavab məktubuna uyğun olaraq **"bunun erməni təbliğatının çaldığı şeypurdur və buna inanmaq olmaz"** açıqlamasın vermişdir. 1915-ci ildə Ser Mark Sayk London qəzetlərinin birində bu ittihamların əsassız olduğunu bildirmişdir.

Erməni diasporu iddia edir ki, türklər «genosid» aktını o zamankı amerikalı müşahidəçilərinin gözləri önündə həyata keçirmişlər. Ermənilər iddialarını Amerikanın 1918-1916-cı illərə qədər Türkiyədəki səfiri olmuş Henri Morqentauyaya və general fon Sandersin tərcüməçisi, ermənipərəst Henrix Firbyuxerin "Ermənilər 1915-ci ildə"memorandumuna əsaslandırırlar.

ABŞ prezidenti Vudro Vilsonun Türkiyəyə qarşı düşmənçilik hissi çoxlarına məlumdur. Hələ 1913-cü ildə Henri Morqentaunu Türkiyəyə səfir təyin edəndə ona bildirmişdir: **«tezliklə ondan əsər-əlamət qalmayacaq ki, onu Türkiyə adlandırmaq olsun».** Sonralar bu sözləri dəstəkləyənlər arasında Morqentaunun ardıcılları olan ingilis Ceyms Brays və alman İhoann Lepsiusa antitürk mövqeyini daim biruzə vermiш və öz əsərlərində nifrətlərini açıq şəkildə büruzə vermişlər.

Vilsonun təşəbbüsü ilə 1916-cı ildə Amerika Konqresi «mücahidələrin faktlarını» əsas tutaraq «erməni genosidi» məsələsi ilə bağlı 12 saylı qətnamə qəbul etmişdir. (Bu qətnamənin analoqu olan 359 saylı qətnamə 1970-ci ildə yenidən Konqresdə qəbul edilmişdir.)

Erməni lobbisinin təsiri altında olan Amerika rəsmi dairələri Şərqi Anadoludakı hadisələrdən bixəbər olduqlarından Şərqi Anadoluda ermənilərin türklər tərəfindən sıxışdırılmasına görə ayrıca erməni dövlət yaradılması qərarına gəlmişdirlər.Konqres və Amerika prezidenti Vilson artıq bu qərarları qəbul etmişlər.Vilsonun əlində faktlar az olduğundan 1919-cu ildə «qətl edilən» ermənilərin dəqiq sayını öyrənmək məqsədi ilə Türkiyəyə-Şərqi Anadoluya Kinq-Krey və general Harbordun rəhbərliyi altında missiyalar göndərmişdir.Bu missyalar arsında yeganə fərq Kinq-Krey missiysı Orta Şərqə general Harbordun missiyası (rəsmi adı:Ermənistana Amerika Hərbi Missiyası) isə bilavasitə ermənilərlə bağlı idi. Təəssüf ki, Kinq-Krey missiysı və general Harbordun da erməniпərəst mövqedə olması saxtakarlığın fakt kimi qəbul edilməsinə şərait yaratdı.

Çarlz Riçard Kinq və Henri Çörçil Krey Amerika Xarici Missiyalar Komissiyası tərəfindən himayə olunaraq Orta Şərqə gəlmiş idilər.Burada isə onlara Yaxın Şərqdə Yardım Təşkilatı adlı xristianların təhsili və ermənilərə yardım məsələsi ilə məşğul olan qurum himayədarlıq edirdi. Kinq-Krey missiysı

Şərqi Anadoludademək olar ki,araşdırma aparmamışlar.Sadəcə olaraq Kilikiyada bir dəfə olmaqla onlar özlərini tam məlumatlanmış hesab edirdilər .Erməni tərcüməçilərinin müşayəti ilə raport hazırlayan Kinq-Krey missiysı ermənipərəst mövqedən çıxış edirdilər. Kinq-Krey missiysının raportunda **"Osmanlı imperiyası tərəfindən planlaşdırılmış olan genosidin həyata keçirilməsində türk xalqının maraqlı olduğu"** qeyd edilirdi. Kinq-Krey missiysı



Şərqi Anadoluda Amerika mandatı altında erməni dövlətinin yardılmasının "vacibliyin" qeyd edirdilər.

Kinq-Krey missiysı kimi də general Harbordun missiyası da əsl həqiqətləri gizlədərək raportlarında "ermən mənbələrinə əsaslanmış xəritələrdən istifadə edərək Kilikiya və Şərqi Anadolu Ermənistan ərazisi kimi qeyd edilirdi". general Harbord 1.100.000 erməninin sürgün edildiyini və 1.500.000 erməninin isə öldürüldüyünü raportda bilirmişdir.

Bu missiyanın məlumatlarının çox hissəsi erməni vəhşiliklərini üzə çıxaran Emari Naynz və Artur Saterlandın hesablamaları təşkil edirdi. Şərqi Anadolunu qarış-qırış gəzən və türk tərcüməçilərindən istfadə edən Emari Naynz və Artur Saterland raportlarında yazırdılar:

**«Biz Şərqə gələndə qətlə yetirilmiş ermənilərə rast gələcəyimizi gözləyirdik.Lakin əksinə,biz qətlə yetirilmiş müsəlmanlara rast gəldik.Bu vəhşilik aktlarını ermənilər dinc müsəlmanlara qarşı törətmişdilər.»**

Əsas sübutları gizlədilərək üzə çıxarılmaması tapşırığın verən Vilson anti-türk mövqeyini büruzə verərək saxta raporları əlində əsas tutmuşdur.Professor Makkarti də Emari Naynz və Artur Saterland raportlarında əsl həqiqətlərin olduğunu Nümayəndələr Palatasında çıxışında bildirərək Milli Təhlükəsizlik Arxivlərinin üzərindən qadağanın götürülərək əsas sənədlərin ortaya çıxarılmasın tələb etmişdir.Çıxışında erməni iddialarını əsassız sayan Makkarti Türkiyə dövlətini və türk xalqının günahsız yerə ittiham olunmasının qarşısının alınmasın tələb etmişdir.

1919-1927-ci illərdə ABŞ-ın Türkiyədəki baş komissarı və səfiri Mark Bristol da bu faktların çoxunu təkzib etmişdir. Mark Bristol çıxışlarında Morqentaunun fikirlərində anti-türk

baxışların olduğunu bildirməklə əslində hadisələrin başqa istiqamətdə getdiyinin sübut etmişdir. Bristol əlində olan faktlarla əslində «erməni soyqırımının» uydurma olduğunu açıqlayaraq Amerika dövlətinin yalan faktlara inanmamağa çağırmışdır. (34; səh.62).

Fransız alimi Bernard Levis də araşdırmalardan sonra «erməni genosidi»-nin uydurma olduğunu əsərlərində sübut etmişdir.Türkiyə dəfələrlə erməni iddialarının əsassız olduğunu sübut etməkdən ötrü Avropa dövlətlərinə müraciət edərək arxivləri incələmək üçün nümayəndə göndərilməsin təklif etməsinə baxmayaraq onların çoxu bu təklifdən boyun qaçırmışlar.1990-cı ildə keçirilmiş 11-ci Türk Tarix Konqresində ilk dəfə olaraq erməni seksiyası yaradılmış və erməni alimləri ilə yanaşı onları dəstəkləyən alimlər də dəvət olunaraq erməni iddialarını sübut etmələrin təklif etmələrinə baxmayaraq onların çoxu bu təklifdən boyun qaçırmaqla iddialarının yalan olmasın bir çox dünya alimlərin önündə göstərmişlər.Eyni zamanda erməni tərəfi 7 türk tarixçi-alimin Ermənistanda "genosidlə" bağlı araşdırma aparmaq *təklifin* qəbul etməməklə *özlərinin* haqsız olmalarını bir daha göstərmişlər.

Bu gün Türkiyəyə «genosid» ittihamları irəli sürən tarixçi alimlər yəqin ki, oxuduqları məktəbdə tarix fənnindən kafi qiymət alırmışlar.Əvvəlcə bu tarixçilərə Türk tarixini diqqətlə araşdırmaq və daha sonra isə ittiham irəli sürmək məsləhət görülür.Beynəlxalq hüququn bugünkü normalarını özündə əks etdirən Osmanlı şahı Fatihin 1478-ci il Osmanlı İmperatorluğunun qapısının bütün millətlər üçün açıq olması barədə verdiyi fərmanı incələmək tarixçilərə məsləhət görülür.Türkiyə və Türk xalqı tarix



boyu və bu gün də bütün millətlər, xalqlar üçün qardaş olmuş, daima onlara qucaq açaraq digər dövlətlər və xalqlar üçün örnək olmuşdur. 1849-cu ildə İsveç kralı Karl,1917-ci ildə Rus komandanı Vrangel və məhşur Trotski və s.tarixi şəxsiyyətlərin çoxu Türkiyəyə sığınmış və memuarlarında Türk xalqının böyüklüyündən və humanistliyindən dəfələrlə qeyd etmişlər.

Bütün yuxarıda adları sadalan və bir çox sənədləri araşdırdıqdan sonra aşağdakı nəticəyə gəlmək olar:

**Türkiyə və Türk xalqını planlı,sistemli bir «genosid» düşüncəsi və həyata keçirilməsi barədə irəli sürülən bütün itthamlar əssasızdır və sadəcə olaraq iftira xarakteri daşıyır.Genosid-ermənilər və onların havadarları tərəfindən uydurulmuş, Türkiyəyə qarşı düşmənçilik xarakteri daşıyan məqsəd yönlü siyasətin bir qoludur.Bu iddiaları irəli sürən dövlətlər beynəlxalq hüququn normalarını özləri kobudcasına pozmaqlaTürkiyəyə qarşı məqsədyönlü genosid siyasəti yeritməkdədirlər.Doğrudur 1915-ci ildə genosid olmuşdur.Ancaq, ermənilərin iddiasının əksinə olaraq ermənilər və ruslar tərəfindən müsəlmanlara qarşı törədilmişdir.Bunu tarixçilər və tarixi sənədlər sübut edir.**

26 yanvar1914-cü ildə Rusiya ilə Türkiyə arasında erməni vilayətlərində islahatlar keçirilməsi barədə müqavilə imzalandı. Bununla Rusiya Antanta dövlətlərinin köməyi ilə 1912-ci ildə erməni Qriqorian kilsəsinin katalikosunun ondan kömək istəməsini bəhanə tutaraq "Böyük Ermənistan"yaratmağı planlaşdırmış idi.Ancaq 1914-ci il 14 noyabrda Türkiyə Almaniya ilə birgə müharibəyə qoşulması imzalanmış müqavilənin qüvvədən düşməsinə səbəb oldu.

1918-20 ci illərdə bolşevik hökumətinin sayəsində tarixi Azərbaycan torpaqları olan Zəngəzur,Göyçə,İrəvan mahalların hesabına yaradılan Ermənistan Respublikası, Antantaya müraciət edərək «iki Ermənistanın» birləşdirilməsini tələb etdilər. 1920-ci ilin 12 avqustunda ABŞ, Fransa və İngiltərənin təzyiqi ilə Ermənistanla bağlı Türkiyə ilə imzalanmış Sevr müqaviləsini 88, 89 və 230 saylı maddə əlavə edilir. Bu əlavəyə görə Türkiyə Ermənistan respublikasının müstəqilliyini tanımalı, Muş, Ərzurum, Trabzon, Van və Bitlis ərazilərində sərhədləri bərpa etmək isə ABŞ-a həvalə edilirdi. Bu müqavilə nəticəsində Ermənistan dənizə çıxış yolu əldə edir və Avropaya dogru ilk addım atırdı. Osmanlı hökuməti 1914-ci ildən bəri başlayan müharibəyə görə məsuliyyətli şəxsləri təhvil verməli idilər və Türkiyə ərazisində ermənilər geniş səlahiyyətlər əldə edirdilər. Ancaq Sevr müqaviləsinin şərtləri Türkiyədə hakimiyyətə gələn Kamalçılar tərəfindən rədd edilir.(82; səh.304-305).

1920-ci illərdən sonra dünyanın siyasi xəritəsində baş verən dəyişikliklər və Ermənistanın da daxil olduğu Rusiya Sovet Sosialist Federasiyasının yaradılması, 1922-ci il 11 oktyabrda Türkiyədə başlanmış olan milli-azadlıq müharibəsinin Mudaniya sazişi izalanması ilə sona çatması, Türkiyə Cümhuriyyətinin elan edilməsi ermənilərin «genosid və Böyük Ermənistan» xülyalarına ara verilməsinə səbəb oldu. 1922-ci ildə Lozannada başlanmış sülh danışıqları zamanı ermənilərin Berlin traktatının 61-ci maddəsi və Sevr müqaviləsinin şərtlərinin yerinə yetirilməsi ilə bağlı müraciətlərinə baxılmış lakin nəzərə alınmamışdır.1923-ci il 24 iyulda imzalanmış sülh



müqaviləsində ermənilərə yalnız milli ocaqlar yaradılmasına aid olan 37-44-cü maddələr şamil edildi.Bu maddələrə əsasən ermənilər Türkiyə ərazisində milli-azlıq kimi yaşamalı idilər.Ancaq,ermənilər buna razılıq verməyərək adi vətəndaş kimi yaşamağı üstünlük vermişlər.

Professor Cəmil Həsənlinin araşdırmalarına görə «erməni genosidi» haqqında növbəti böyük kompaniya İkinci Dünya müharibəsindən sonra SSRİ-də başlanmışdır.1945-ci ilin dekabrında «İzvestiya» qəzetində erməni alimlərinə geniş yer verilmişdir ki,onlar "tarixi tələblərini" yenidən qaldırsınlar. İkinci Dünya müharibəsindən qalib çıxan SSRİ boğazlar rejimini dəyişmək niyyətində idi.Bosfor və Dardanel boğazlarında imtiyaz almaq istəyən SSRİ Türkiyəyə qarşı "erməni kartını" yenidən dövriyyəyə gətirmişdir.Molotovun hazırladığı plan əsasında iddia irəli sürüləndən sonra Türkiyə üzərində qələbə qazanmaq asan idi. Türkiyədən alınacaq olan 26 min kv.kilometr ərazinin Gürcüstan və Ermənistan arasında bölüşdürülməsi planlaşdırılırdı. Moltov alınacaq ərazinin «tarixi erməni genosidi» prinsiplərinə əsaslandığına görə 20,500kv.km-in Ermənistana,qalan ərazinin isə Gürcüstana verilməsin planlaşdırmışdı. Lakin Gürcüstan Kommunist Partiyasının M.K-nin birinci katibi K.N.Çarkviani Türkiyədən qoparılacaq olan ərazilərin keçmişi barədə hazırladığı 16 səhifəlik arayışda və Gürcüstan xarici işlər komissarı Q.Kiknadzenin Lavrenti Beriyaya yazdığı məktubunda bildirilirdi ki, Türkiyədən alınacaq olan ərazinin 12,760kv.km-i Gürcüstana 13,190kv.km-i isə Ermənistana verilməlidir. Bu "erməni kartı" oyunu Stalin ölənə qədər

davam etmişdir.N.Xruşşov Sovet rəhbərliyinə gəldikdən sonra bu oyunu quran rəhbər orqanları və Moltovu tənqid edərək Türkiyə ilə SSRİ arasında münasibətlərin pozulmasına görə onları ittiham etmişdir.ABŞ-ın bu regionda güclənməsinin səbəbini Xruşşov bu planı quranlarda görürdü.

1965-ci ildə erməni diasporunun İrəvanda «genosid» hadisəsinin 50 illiyi münasibəti ilə abidənin açılışına nail olduqdan sonra bu məsələnin yenidən gündəmə gətirilməsinə şərait yarandı. Beynəlxalq ictimaiyyətin ermənilərə və onların iyrənc əməllərinə yönəldilməsi üçün erməni diasporu Türkiyə əleyhinə genişmiqyaslı terror kompaniyasın başladı. 1973-cü ildən isə açıq-aşkar terror aktlarına başlayan erməni şovinistləri həmən ilin yanvarında Amerikadakı Türkiyə baş səfiri Mehmet Baydar və Bahadır Dəmiri öldürülməsi və aprelin 4-də Parisdə Türk səfirliyinin qarşısında bomba partladılması erməni terrorizminin yenidən başlandığını dünyaya bəyan etdilər.Və o gündən bu günə qədər terror davam edir. Təəssüf hissilə bildirmək olar ki, 34 Türk diplomatı və minlərlə digər şəxslərin öldürülməsində əli olunduğu sübut edilən və hal-hazırda fəaliyyət göstərən ***ASALA, JZAM, «Daşnak Erməni Terror Təşkilatı», «9 iyun», «24 oktyabr», «Erməni Soyqırımının Ədalətli Qisasçıları», «28 maj» adına erməni təşkilatı, «Erməni İnqilab Ordusu»*** və s. terror təşkilatlarının qanlı cinayətləri beynəlxalq aləmdə qarşısı alınmamışdır. Erməni diasporuna iri dövlətlər tərəfindən edilən xəbərdarlıqlara baxmayaraq, diasporun terorçulardan qorxması onların məcburən terror qruplarını dəstəkləməyə məcbur edir.(83; səh.164-166).

Erməni diasporu olmayan «erməni genosidi»ni dünyanın



müxtəlif dövlətlərinin qanunvericilik orqanları tərəfindən tanınmasına çalışmaqla yanaşı beynəlxalq və qeyri-hökumət təşkilatlarında tanınmasından ötrü ciddi cəhdlə mübarizə aparır və bunun vasitəsi ilə beynəlxalq ictimaiyyətin diqqətini özlərinə cəlb etmək niyyətindədirlər. İlk dəfə olaraq 1973-cü ildə BMT nəzdində ***«Azlıqda Qalan Milltlərin Hüququnun Müdafiə Edilmə Komitəsi»***-nə yol tapan erməni diasporu komitənin müzakirəsinə «Erməni genosidi» məsələsi çıxartmağa nail oldusa, məsələnin qəbul edilməsinə nail ola bilmədilər. 1978-ci ildə isə məsələ səsvermə yolu ilə rədd edildi. (84; səh.77).

Ancaq erməni diasporu "mübarizəni" saxlamır və hər bir vasitədən istifadə edərək «genosidin» tanınmasına çalışırlar. ABŞ Senatı tərəfindən ermənilərə qarşı törədilmiş «genosidin» 60 illik anma günü kimi qeyd edilməsinə dair qətnamənin 1975-ci ilin aprelində qəbul edilməsi erməni diasporunun uğuru saymaq olar. Bununla kifayətlənməyən erməni diasporu BMT-nin üzv dövlətlərinə, ABŞ-ın dövlət katibi, vitse-prezident, parlamentə və s. dövlət idarələrinə «genosidin» tanınması ilə bağlı genişmiqyaslı təbliğat kompaniyasına başlayaraq xüsusi memorandumlar göndərməyə başladılar. 1980-ci ilin aprelində erməni diasporu onlara məxsus yaltaqlıqla genosid qurbanları üçün keçirilən rəsmi mərasimdə iştirak etməyə nail oldular. Bu mərasimdə də ancaq yəhudilərin iştirakı nəzərdə tutulurdu. Erməni diasporunun bu mərasimdə iştirak etməsi rəsmi olmasa da «genosidin» olma faktını təsdiqləyirdi.(63; səh.230-231).

1983-cü ildə BMT rəhbərliyi Londonda fəaliyyət göstərən Humanitar Assosiasiyanın direktoru Bencamin Uateykerə XXXVIII-sesiyada müxtəlif genosidlərlə bağlı raport

hazırlamasını tapşırır. 1985-ci ilin avqustunda BMT Baş Assambleyanın sessiyasında çıxış edən Uateykerin erməni genosidi ilə bağlı raportu dinlənilmiş, nəzərə alınmış, ancaq İnsan Hüquqları Üzrə Komissiyasına verilməsi ilə məsələyə nöqtə qoyulmuşdur. Sənəd arxivə göndərildikdən sonra erməni diasporu uduzduqlarını biruzə verməməkdən ötrü dərhal onlara məxsus kütləvi informasiya vasitələrində-də Erməni diasporunun «qələbəsi» ilə bağlı siyasətçilər, tarixçilər və analitiklərin yazıları dərc olunmağa başlandı. Fransada nəşr edilən **«Jurnal de Jenev» lap qabağa gedərək 1985-ci il 30 avqustda manşetə «İnsan Hüquqları: Erməni genosidi BMT komitəsi tərəfindən tanınmışdır»** -çıxartmışdır.

Bu kimi tədbirlər psixoloji təsir və yalan informasiyaların çoxluğu erməni diasporunun məğlubiyyətinin biruzə verilməməsi üçün idi .(85; səh.106-107).

1984-cü ildə erməni diasporu 1979-cu ildə Boloniyada yaradılan «xalqlar tribunalı» adlı və Avropa dövlətləri tərəfindən heç də yaxşı qəbul edilməyən bu qurumda «erməni genosidi» məsələsi müzakirə olunmuş və Türkiyəyə bu qurum tərəfindən göndərilən mesajda Türkiyədən tələb olunurdu ki, «genosidi» törətdiyini rəsmi surətdə elan etsin və erməni xalqından üzr istəməklə yanaşı ermənilərə dəyən zərər ödənilsin. «Xalqlar tribunalı»nın bu tələbi Avropa dövlətləri tərəfindən qeyri- obyektiv və hüququ əsası olmayan bir sənəd kimi qəbul edilmişdir. (86; internet məlumatı).

1986-cı il aprelin 24-də erməni diasporu informasiya mübarizəsini gücləndirmiş və türk diasporunun üstünlük təşkil etdiyi Almaniya Federativ Respublikasında, Köln televiziyasında «Erməni məsələsi unudulub» adlı sənədli film nümayiş etdirilməsinə nail olur: Bundan dərhal sonra türk



diasporu AFR hökumətinə öz narazılığın bildirmiş və tarixçi Pouylyuk televiziya ilə çıxış edərək sənədli filmdəki hadisələri təkzib etmiş və tarixi faktlara əsaslanaraq «erməni genosidi» məsələsinin qondarma olduğunu sübut etmişdir. (83; səh.164).

Erməni diasporu Avropa Birliyinin daxilində də anti-türk təbliğatı aparmaqla yanaşı saxta «erməni genosidi» məsələsini bu qurumun tərəfindən tanınmasına çalışırlar. Erməni diasporu üçün Avropa Birliyində lobbiçiliklə məşğul olan Van de Bruk siyasi komissiyasının üzvlüyündən istifadə edərək komissiyanın iclaslarının müzakirəsinə bu məsələnin çıxarılmasına çalışır. Avropa Birliyinin siyasi komissiyası bu məsələni müzakirəyə çıxaracağı təqdirdə «erməni genosidi» faktorlarını qəbul etmiş olur. Bu müzakirənin olmaması üçün hərəkətə keçən türk diasporu və hökuməti bu məsələnin müzakirə olunacağı təqdirdə Avropa Birliyi ilə Türkiyənin münasibətlərinin pozulacağına dair bəyanat verdi. Ümumilikdə götürsək Avropa Türkiyənin bu quruma və Avropanın digər birliklərinə yaxın buraxmamaqdan ötrü «kürd», «Kipr məsələsindən» və ən əsası olmayan «erməni genosidin»dən məharətlə istifadə edir. Bununla Avropa Türkiyəyə göstərməyə çalışır ki, onun burada iştirakı istənilmir. Ancaq, Avropa Türkiyəni tam əldən də buraxmaq istəmir. Yaxın Şərq və Avropa arasında körpü olan Türkiyənin Şərqə doğru meyl etməsi qorxusu Avropanı təşvişə salır. Əgər Türkiyə Şərqlə birləşsə bu Avropa üçün təhlükə yarada bilər. Elə bu səbəbdən də bəzən «erməni genosidi» məsələsini qəbul edib, bəzən də rədd edilməsi bu amillə bağlıdır. Van de Brukun layihəsini rədd edən Avropa Birliyi Türkiyənin bəyanatının ciddiliyindən çəkinirlər. (76; səh.49).

1987-ci ildə Avropa Parlamenti Avropa Birliyinin əksinə olaraq erməni diasporunun təzyiqi nəticəsində «erməni genosidi» məsələsini müzakirəyə çıxartdı. Bu məsələ müzakirə olunan gün nümayəndələrin 3/4 hissəsinin olmamasından (518 nümayəndə iştirak etmirdi) istifadə edən ermənilər 68 lehinə, 60 əleyhinə səs çoxluğu ilə «erməni genosidi» məsələsilə bağlı qətnamə qəbul edilməsinə nail olurlar. Bu qətnamə qəbul edildikdən sonra Avropanın bir çox iri dövlətləri bəyanat verərək elan etmişlər ki, Avro parlamentin qəbul etdiyi qərarın onların xarici siyasəti ilə bağlılığı yoxdur. (85; səh.111-113).

2000-ci ilin noyabrında " erməni genosidi" məsələsi Avropa Parlamentində bir daha müzakirəyə gətirilmiş və tanınmışdır. Bu layihənin tanınmasında ***Yaşıllar Partiyası***,yunan nümayəndələri və ***Xristian-Demokratların*** rolu olmuşdur. Avropa Parlamentinin üzvü Filipp Mayron Avro Parlamentin bu addımının Türkiyə ilə münasibətlərin pozulacağına gətirib çıxaracağını bildirmişdir.93 digər parlamenterlərlə birgə bu layihənin əleyhinə çıxan Mayron Türkiyənin daha tədbirli olacağına ümüd etdiyini və atılan addımın Türkiyənin Avropaya inteqrassiyyasında əngəl törətməməycəyini bildirmişdir. Ancaq bu tanınmanın heç bir hüquqi statusu yoxdur və sadəcə olaraq tövsiyyə xarakteri daşıdıyır. Bu tanınma ilə Fransa və yaxud İtaliya parlamentinin tanınmasıyla heç bir oxşarlığı yoxdur. Sadəcə olaraq Avropa Parlamentin Türkiyənin ***Avropa Birliyinə*** daxil olmasıyla baglı müəyyən şərtlərdir. Buna görədə onun heç bir qərar qüvvəsi yoxdur.

Ermənilər uydurma «genosid» iddialarını Ermənistanın Avropa Şurasına qəbul olunmasından sonra bu təşkilatın



Parlament Assambeyasında tanınmasına çalışırlar.2001-ci ilin 24 aprelində Ermənistan parlamentini təmsil edən deputatlar « erməni genosid» ilə bağlı sənəd hazırlayaraq AŞPA-nın 2-ci sessiyasının gedişində deputatlar arasında yaymışlar.

**Ermənilərin bu gedişinə cavab olaraq AŞPA-da Azərbaycanı İlham Əliyevin rəhbərliyilə təmsil edən nümayəndə heyəti ermənilər tərəfindən ötən əsrin əvvələrindən ta bu günə qədər davam edən azəri xalqına qarşı əsl genosid siyasəti, torpaqlarımızın 20%-nin Ermənistan tərəfindən təcavüz nəticəsində işğalı edilməsilə bağlı bəyannamə hazırlamışdır. Bəyannamə 2001-ji ilin 27 aprelində AŞPA- nın deputatları arasında yayılmışdır. AŞPA- nın 29 deputatının imzaladığı ermənilər tərəfindən azəri xalqına qarşı törədilən genosid aktı ilk dəfə olaraq beynəlxalq təşkilat səviyyəsində sənəd halında öz əksini tapmışdır. İlham Əliyev gələcəkdədə bu sənədin digər dövlətlərin parlamentlərində tanıması üçün isə işlər görüləcəyini bildirmişdir.**

Erməni diasporu Avropa siyasətində «erməni faktorunun» mühüm rol oynamasına çalışırlar. Avropada erməni layihəsi tanınması digər dövlətlərdə məsələnin gündəmə gətirilməsi üçün katalizator rolun oynaya bilər.Aşağıda adları sadalanan dövlətlərin qanunvericilik orqanlarında " erməni genosidi" müzakirə olunaraq qəbul edilməsi və qəbul edilən qətnamələr,qərarlar həmin dövlətlərin rəsmi mövqeyin əks etdirmir.Bu dövlətlər içərisində ancaq Fransa dövlət səviyyəsində rəsmi olaraq «erməni genosidini» tanımışdır.

«Erməni genosidi» məsələsində erməni diasporu üçün

lobbiçilik edən İtaliya parlamentinin deputatı Cikarlo Poliarni 136 nəfər deputatın imzasını 2000-ci il 27 oktyabrında toplayaraq məsələnin parlamentdə gündəliyə salınmasına nail olmuşdur. Bu məsələ araşdırılmaqdan ötrü ekspertlərə təqdim edilmişdir. Ekspertlərin bu məsələni təsdiqləməsi üçün erməni diasporu «kürd» faktorundan istifadə etməklə Türkiyənin həqiqətən də azsaylı xalqların «hüquqlarının» pozucusu olduğunu sübut etməyə çalışırlar.

İtaliya parlamentində ekspertlərin təsdiqlənməsindən sonra «erməni genosidi» 13-14 noyabr 2000-ci ildə parlamentdə müzakirəyə qoyulmuş və qəbul edilmişdir.Bu qərarın qəbul edilməsindən sonra İtaliya- Türkiyə münasibətlərində sərinliyin yaranmasına gətirib çıxarmışdır. İtaliyanın bir çox şəhərləri, Banokapalo, Luqo, S Azuto Sul, Santerno, Kotinola, Malarola, Russi, Konseliçe, Komponzara, Padova-da tanınmış olan "erməni genosidi" qətnaməsinin parlamentə tanınması gözlənilirdi. Florensiya şəhərinin bələdiyyə idarəsin də "erməni genosidi" qətnaməsinin tanınması barədə qərar qəbul etməsinin qarşısın yerli futbol klubu olan "Fiorentina"-nın baş məşqçilik etmiş Fatih Terim almışdır.

Bu qətnamənin müəllifləri olan Cikarlo Paliriani və Sandra Fey qətnamənin tanınmasından sonra arxivlərin açılıraq Türkiyənin" faktlar" qarşısında qoyulmasını tələb etmişlər.

Avstriyada isə açıq-aşkar parlamentdə erməni diasporu üçün lobbiçiliklə məşğul olan Yaşıllar Partiyası 16 mart 2000-ci ildə parlamentin İnsan Hüquqları Komitəsinə «erməni genosidi»nin tanınması üçün tövsiyyə xarakterli sənəd göndərmişdir. Madlen Petroviç adlı erməni lobbisti Avstriya



parlamentindən tələb edir ki, parlament «genosidi» - təsdiqləməlidi. Ancaq aprel ayında məsələ müzakirə olunmuş və təxirə salınmışdır.

İsveç parlamentində 2000-ci ilin 31 martında "erməni genosidi" müzakirə olunmuş və 1915-ci ildə Şərqi Anadoluda baş verənləri "ermni enosidi" kimi xarakterizə edən sənəd qəbul etməklə " genosid" faktı pislənmişdir.

Belçika senatında 1997-1998-ci il iclasında «erməni məsələsi» müzakirə olunmuş və 1-736/3 saylı qətnamə qəbul edilmişdir. Bu qətnaməyə görə Belçika senatı erməni genosidini tanıyaraq türklərlə-ermənilərin barışdırılmasını Avropa Parlamentindən tələb edir.

İsveçrədə məsələ başqa cürdür. Çətinliklə də olsa erməni diasporu İsveçrə parlamentində məsələnin müzakirəyə gətirilməsinə çalışmış, ancaq edilər cəhdlərə baxmayaraq bu ölkənin qanunvericiliyinin spesifikliyinə uygun onlar məsələnin tanınmasından ötrü bir çox tələbləri yerinə yetirməlidirlər. İsveçrə parlamentində 13 mart 2001 ci ildə yunan əsilli deputat Yozef Zisyadis hazırladığı layihəyə əsasən «1915 ci ildə Şərqi Anadoluda ermənilərin genosidə məruz qalması» ilə bağlı müzakirələr getmişdir . Zisyadislə bərabər 4 Sosialist,1 Xristian -Demokrat, 1 Liberal və 1 Yaşıllar partiyasından olan deputatlar məsələnin lehinə çıxış etmişlər.Ancaq məsələ 2000-ci il iyun ayında olduğu kimi yenə 70 səsə qarşı 73 səslə rədd edilmişdir. Buradada qətnamənin qəbul edilməsinə çalışanlardan biridə Anjelika Fankevatzer bir neçə dəfə Ermənistanda olmuşdur. (87; səh5).

Rusiyada isə 1995-ci ilin aprelin 14-də Rusiya Dövlət Duması «1915-23-cü illərdə» erməni soyqırımının pislənməsi barədə qərar qəbul etdi. Bu hadisədən sonra daha da fəallaşan

ermәni diasporu çalışır ki, dünya dövlәtlәrinә Rusiyanın addımının doğru olduğunu sübut etsinlәr.(77; sәh.398).

Rusiyada 13-14 fevral 2001-ci ildә "ermәni genosidi" mәsәlәsi ilә bağlı LDPR partiyasının sәdri Jirinovski vә partiyanın üzvü Aleksey Mitrafanov tәrәfindәn hazırlanmış layihә parlamentin aşağı palatasında qәbul edildikdәn sonra Dövlәt Dumasında gündәmә gәtirilmişdir.Mәsәlәnin Dövlәt Dumasında tanınması tәklifi ilә çıxış edәn Mitrafanov daha sonra beynәlxalq komissiya yaradılaraq Türkiyәdәn tәzminat tәlәb olunması ilә bağlı fikrin dә irәli sürmüşdür.Ancaq mәsәlә Dövlәt Dumasında müzakirә olunmayaraq Beynәlxalq Münasibәtlәr Komitәsinә geri qaytarılmışdır, Layihәnin tanınmamasında böyük rolu olan Beynәlxalq Münasibәtlәr Komitәsinin sәdri Dmitri Roqozin müasir Türkiyәnin Osmanlı İmperatorluğunun etdiyi addıma görә mәsuliyyәt daşımadığın bildirmişdir.Bu layihәnin tanınmamasında xüsusi rolu olan Rusiyadakı Türkiyә sәfirliyi Rusiya parlamentçilәrinә "tarix gәrәk tarixçilәrә qalsın" müraciәti etmiş vә layihәnin Türkiyә-Rusiya münasibәtlәrinә xәlәl gәtirәcәyin bildirmişdir.

Fransada 450 min ermәni yaşayır vә bu ermәnilәrin Türkiyәdә yaşayan 65 min ermәnilәrlә müqayisә edәk. Türkiyәdә yaşayan 65 min ermәninin 42 kilsәsi,18 mәktәbi vә hәftәlik nәşr edilәn qәzet vә jurnalları vardır.Eyni zamanda 1461-ci ildәSultan Mәhmәt tәrәfindәn әsası qoyulmuş ermәni kilsәsi bu gün dә fәaliyyәt göstәrir.Buradakı ermәnilәr öz dәdә-baba soyadların daşıyır.

Fransada yaşayan 450 min ermәninin 20 kilsәdәn başqa nә bir mәktәbi, nә dә nәşr edilәn qәzet-jurnalı vardır.



Fransa ermәnilәrinin 80%-i fransız soyadlarını qәbul etmişlәr.

Fransada üstünlük tәşkil edәn ermәni diasporu dәfәlәrlә «ermәni genosidi» mәsәlәsini parlamentdә müzakirәyә çıxartmağa çalışmışsa Senat mәsәlәni rәdd etmişdir. Ümumiyyәtlә Fransa bu mәsәlәyә ikili mövqe tutaraq bu mәsәlә ilә bağlı bildirmişdir. «Fransa bugünkü Türk hökumәtini 70 il qabaq törәtdiyi işә görә günahlandıra bilmәz».Bu açıqlama ilә dolayısı olsa da «ermәni genosidi»ni tәsdiqlәyәn Fransada 29 may 1998-ci ildә Milli Yığıncağı " ermәni genosidi"-nin tanıdıqdan sonra senata tәsdiqlәnmәyә göndәrmişdir.Ancaq Senat mәsәlәni 2000-ci ilin mart ayının sonlarında 172 sәsә 130 sәs çoxluğu ilә tanımayaraq geri qaytarmışdır. Xüsusi ilә Fransa prezidenti Jak Şirak Süleyman Dәmirәlә yazdığı mәktubda mәsәlәnin qәbul edilmәmәsi üçün Senata tәzyiq göstәrdiyini bildirmişdir. Bir şeyi unutmamaq lazımdır ki, Fransada ermәni diasporun sayına vә nüfuzuna görә bir çox siyasәtçilәrin onların sәsinә ehtiyacı olduğundan mәsәlәnin Fransada gündәmә gәtirәlәcәyinә dәlalәt edirdi

2000-ci ilin oktyabr-noyabr aylarında mәsәlә yenә Milli Yığıncaqda müzakirәyә gәtirilmişdir.7 noyabrda uzun sürәn müzakirәlәrdәn sonra 164 lehinә,64 әleyhinә vә 4 nәfәr bitәrәf qalmaqla Milli Yığıncaq rәsmәn "ermәni genosidi" tanımış vә Senata tәsdiqlәnmәyә göndәrilmişdir. Qәtnamәnin müәlliflәri Jan Klod Qoden vә Fransa Demokratik Birliyinin üzvü Fransua Ranbulandır.Türkiyә XİN-yi Fransanın XİN-nә rәsmi mәktub göndәrәrәk etirazların bildirmәsinә baxmayaraq Senat 18 yanvar 2001-ci ildә cәmi bir sәtrdәn **«Fransa 1915-ci ildә ermәnilәrin genosidә mәruz qaldığını rәsmәn qәbul edir»** ibarәt olan

layihəni tanımışdır. " Erməni genosidi" məsələsinin müzakirələri 3 saata yaxın davam etmiş və 50-yə yaxın deputat lojalarda onları izləyən ermənilərin alqış sədaları altında Türkiyə əleyhinə böhtanlar yağdırmaqla bu məsələnin Fransa üçün əhəmiyyətindən danışmışlar. " Erməni genosidi" tanındıqdan sonra prezident Jak Şiraka təsdiqlənməyə göndərilmişdir. Fransa konstitusiyasına görə Senat tərəfindən tanınan hər hansı sənəd 15 gün ərzində minimum 60 deputatın imzası ilə etiraz məktubu Konstitusiya Məhkəməsinə göndərilsə sənəd yenidən Senata geri qaytarıla bilər. Ancaq, bu 60 deputatın etiraz məktubu olmadığına görə Jak Şirakın konstitusiyaya görə layihəyə veto qoymaq hüquna malik olmadığından 29 yanvar 2001-ci ildə sənədi imzalamışdır. «Qayssot qanununa» daxil olan "erməni genosidi" Yəhudi genosidinin bu ölkədə malik olduğu hüquqlara malik olacaq. Məsələnin maraqlı tərəfi ondan ibarətdir ki, Yəhudi genosidi kimi"erməni genosidi" -ni danmaq cinayət hesab olunacaq. Paris şəhərində isə 2002-ci ildə dünya üzrə sayca 17-ci olacaq "erməni genosidi" -nin "xatirəsinə" ucaldılacaq olan abidə 1935-ci il Fransada «kütləvi qətllərin» iştirakçısı bəstəkar və rahib Komitasın timsalında olacaq. **Fransa konstitusiyasının 34-cü maddəsini kobud şəkildə pozan Senat beynəlxalq hüquq normalarına zidd olaraq başqa dövlətin daxili işinə qarışmışdır-** bəyanatını verən Türkiyə rəsmiləri bu addımın Fransa- Türkiyə və Ermənistan- Türkiyə münasibətlərinə ciddi zərər verəcəyin bildirmişdir. Fransa- Türkiyə arasında imzalanmış və imzalanması planlaşdırılan iqdisadi və mədəni müqavilələri pozan Türkiyə hökuməti Ermənistana qarşı sanksiyaları daha da gücləndirmişdir.Bu gün bu addımı atan Fransanın



özünün tarixi heç də şərəfli deyildir. **Türkiyəni "erməni genosidi" törətməkdə ittiham edən bu dövlət yarım əsr əvvəl Əlcəzairdə,Tunisdə,Mərakeşdə ərəblərə qarşı əsl genosid törətmişlər. Bu tarixdir,tarixi isə danmaq olmur.Genosid törədən dövlət, genosid törətmiş dövləti uydurma genosidə məruz qalması barədə qərar çıxarır. Gülüncdür.**

Almaniyada türklərin üstünlük təşkil etməsinə baxmayaraq buradakı erməni diasporu Federal Almaniya Parlamentində "erməni genosidi"-nin tanınmasına çalışırlar.Burada imza toplama kompaniyasına Tessa Hofman adlı bir "tarixçi" başçılıq edir.Qəribə görsənsə də ilk imzalayanlar arasında iki türk birliyi:Türkiyə-Almaniyada İnsan Hüquqları Dərnəyi və Soyqrım Qardaşları Dərnəyi də vardır. Tessa Hofmanın rəhbərliyi altında Almaniyada olan erməni təşkilatları 18 sentyabr 2000-ci ildə prezident Yohannes Rauya məktub yazaraq Federal Almaniya Parlamentində "erməni genosidi" -nin tanınması ilə bağlı onları dəstəkləməsin xahiş etmişlər. Prezident Yohannes Rau onların məktubuna 15 noyabr 2000-ci il tarixli cavab məktubunda bunun onun ixtiyarında olmadığını bildirmişdir.Ancaq Almaniyada "erməni genosidi" -nin tanınması real görünmür.Çünki Almaniya iqtisadi,siyasi,mədəni və geopolitik cəhətdən sıx bağlı olduğu Türkiyəni itirmək istəməz. Tarix gərək tarixçilərə və beynəlxalq münasibətlər üzrə mütəxəssislərə qalsın -bildirən Almaniya rəsmiləri Federal Almaniya Parlamentində "erməni genosidi" -nin tanınmayacağına dəlalət etmişdir.

Hollandiyadakı erməni diasporu Hollandiya parlamentində "erməni genosidi" -nin tanınması üçün müraciət etmişlər.Bu məsələnin parlamentdə tanınmasına

qədər isə ölkənin müxtəlif bələdiyyələrində tanınması üçün kompaniyaya başlamışlar.Bu kompaniya davam edən müddətdə isə Hollandiya Ali Məhkəməsi 1915-ci ildə Osmanlı imperiyasında "genosidə" məruz qalmış ermənilərin xatirə gününün keçirilməsi barədə qərar qəbul edib,Çoxsaylı erməni təşkilatlarının müraciəti sonrası Ali Məhkəmə 2001-ci ilin aprel ayının əvvəllərində bu qərarı qəbul edib.

İngiltərədə də "erməni genosidi" -nin Lordlar Palatasında müzakirəyə gətiriləcəyi 22 yanvar 2001-ci ildə bu ölkədə keçirilən «Soyqrım anma günü» tədbirinə "erməni genosidi" -nin də daxil edilməsindən sonra gündəmə gətirilmişdir.İngiltərə Daxili İşlər Nazirliyi Fransa senatının addımından sonra "erməni genosidi" ilə bağlı Türkiyə XİN-nin etirazlarına baxmayaraq məsələni tədbirin gündəliyinə salmışdır.VVS-nin tədbirin keçirildiyi «Westminister Central Holl»-dan canlı yayınladığı proqramda aparıcı Con Simpson Daxili İşlər Nazirliyinin mətni əsasında "1915-ci ildə 1,5 million ermənininin öldürüldüyün" bildirmişdir.Tədbirdə çıxış edən şəhzadə Çarlz Ueliski Yəhudi,Ruanda,Kamboca genosidləri ilə bərabər "erməni genosidi"-nin də anılmasın və abidə qoyulmasın bildirmişdir. Bu isə Lordlar Palatasında "erməni genosidi" -nin müzakirəyə gətiriləcəyi üçün katalizator rolun oynaya bilər.

Kanadada erməni diasporu «erməni genosidi»nin tanınması üçün ciddi-cəhdlə çalışırlar.Xüsusilə 1998-ci ildə Kvebek əyalətində,1999-cu ildə Ontario əyalətində hər il 24 aprelin «erməni genosidi»nin anılması günü kimi keçirilməsilə bağlı qərarların qəbul edilməsindən sonra daha



da fəallaşmışlar.Buradakı serb,yunan diasporları ilə sıx əlaqə quran 100 minlik erməni diasporu 35 minlik türk diasporunu passiv vəziyyətə salmışlar.

Erməni əsilli Kanada parlamentinin qadın deputatı Maheonun hazırladığı «erməni genosidi» layihəsi 24 aprel 2001-ci ildə 105 üzvlü Senatda müzakirə olunmuş, lakin qəbul edilməyərək geri qaytarılmışdır.

Vatikanla da əlaqə yaradan erməni diasporu ermənilərin katalikosu 2 Qargenin Roma katolik kilsəsinin başçısı Papa 2-ci İoann Pavellə görüşün təşkil etmişdir.Görüşün sonunda"erməni genosidi" -nin də toxunulduğu birgə kommunike qəbul edilmişdir . Papa Ermənistana səfər edib "əzabkeş erməni xalqının yaşadığı torpaqdan öpmək istədiyini bildirmişdir". Erməni tərəfi bunu Vatikanın rəsmən "erməni genosidi" -nin tanınması kimi qəbul etməsinə baxmayaraq Türkiyə XİN-yi bunun Papanın şəxsi fikri olduğunu bildirmişdir.

Erməni diasporu Slovakiyada «erməni genosidini»tanınmasına da çalışırlar.Onlar Slovakiya prezidentinə məktub yazaraq, «erməni genosidini»tanınması üçün onlara kömək etməsini xahiş etmişlər. **«Slovakiya I Dünya Müharibəsi dövründə 1-1,5 milyon ermənininin öldüyünü etiraf edir.Lakin bu hadisələrə genosid donu geyindirmək arzusunda deyildir»** Slovakiya prezidentinin dəftərxanasında Ermənistanın «Noyan-Tapan» informasiya agentliyinə bildirilib. **Dəftərxanada bildiriblər ki, genosidin qarşısının alınması üzrə bir sıra beynəlxalq sazişlərin iştirakçısı olan Slovakiya II Dünya Müharibəsindən sonra Almaniya və Yaponiyada olduğu kimi tarixi faktların peşəkar səviyyədə qiymətləndirilməsinin tərəfdarıdır. I Dünya**

**Müharibəsi dövründə Kiçik Asiyanın Şərqində yaşayan ermənilər Rusiyaya meyli olduqlarına görə türklər tərəfindən Suriyaya departasiya olunublar—məlumatını bildiriblər.**

İran İslam Şurası Məclisinin iki ermən üzvü" erməni genosidi" məsələsini qanunvericilikdə tanınması üçün təşəbbüsdə bulunublar.Bu isə onsuz da sərin olan İran–Türkiyə, İran–Azərbaycan münasibətlərində xeyli dəyişiklik yaradacaqdır.Belə bir addımın atılması Tehranın regionda mövqeyinin laxlamasına səbəb olacaqdır və " beli bükülü" olan İran iqtisadiyyatının zəifləməsinə səbəb olacaqdır. Eyni zamanda İran "erməni genosidi"-ni tanıyarsa təcavüzkar Ermənistan və beynəlxalq sanksiyalar nəticəsində ağır vəziyyətdə olan İraqla baş-başa qala bilər. Bu isə Amerikanın tamamilə maraqlarına tamamilə uyğundur. "Tarixi düşmən" ABŞ-ın maraqlarına uyğun addımı isə İran çətin atsın. Təbrizdə nəşr olunan " Şəmse-Təbriz " qəzeti İran İslam Şurası Məclisində " erməni genosidi" məsələsinin müzakirəsinə sərt cavab vermiş və bunun nəticəsində İranda yaşayan 30 milliondan çox azərbaycanlılar tərəfindən kütləvi etirazların başlanacağına səbəb yarada biləcəyini xəbərdar etmişdir.(88; səh.19).

**2000-ci ilin mayında Livan parlamenti uydurma «erməni genosidi»-ni tanımışdır. Livanda ermənilərin üstünlük təmkin etməsi bu məsələ ilə bağlı qətnamənin qəbul olunmasına şərait yaratmış və qəbul edilən qətnamədə livan parlamentarları: genosidin beynəlxalq aləmdə tanınmasını bildirmişlər. (90; səh.32).**

Avropadan başqa dünjanın müxtəlif bölgələrində də yaşayan ermənilər diasporları olmasa da "erməni genosidi"nin tanınmasından ötrü fəaliyyət dairəsini



genişləndirərək müxtəlif vasitələrə əl atırlar.

1965-ci il və 1972-ci ildə Cənubi Uruqvay Respublikasında, 1998-ci ilin 22 aprelində Argentina parlamentində,1996-cı ilin 25 aprelində Yunanıstan parlamentində,1997-ci ilin 17 aprelində Avstraliyanın Yeni Uels ştatının parlamentində "erməni genosidi" tanınmış və bu ölkələrdə 24 aprel hər il yad edilməsi rəsmiləşmişdir.

Bütün bu dövlətlərlə yanaşı demokratiyanın beşiyi olan ABŞ-da erməni diasporu «erməni genosidi»nin rəsmən tanıdılmasına çalışırlar. ABŞ-da digər dövlətlərdən fərqli olaraq lobbizm dövlət tərəfindən hüquqi cəhətdən qəbul olunduğundan erməni diasporu fəaliyyətlərini daha da genişləndirmək imkanına malik olduqlarından məsələ dəfələrlə burada gündəmə gətirilmişdir. ABŞ-dakı erməni diasporu aşağıdakı siyasi məqsədləri irəli sürərək bunların həyata keçməsinə hər vasitə ilə çalışırlar.

**1) Müstəqil və birləşmiş Ermənistanın yaradılması.**

**2) Birləşmiş Ermənistan ərazisinə Sevr müqaviləsində nəzərdə tutulduğu kimi Naxçıvan, Axalkala və Qarabağ vilayətləri də daxil olmalıdır.**

**3) Diaspor halında yaşayan ermənilərin milli dövlətə deportasiyası**

**4) Türkiyəni ermənilərə qarşı «genosid» hadisəsinə görə məsuliyyət daşıyaraq dəyən zərərin ödənilməsinə məcbur etmək, türklərdən qisas alınması və işğal olunmuş «erməni torpaqlarının» Türkiyə və Azərbaycandan geri alınması.**

**5) Ermənistan dövlətinin qanunları milli qanunverici məclisdə ciddi olaraq hazırlanması, gizli və bərabər səsverme ilə rəhbərliyin seçilməsi.** (91; internet məlumatı)

1975-ci ildən etibarən ABŞ-da daha da fəallaşan erməni

diasporu Türkiyə və ABŞ arasında o zaman yaranmış ziddiyyətli ünsürlərin olmasından istifadə edərək 24 apreldə «erməni genosidi»nin 60 illiyinin keçirilməsi ilə bağlı qətnamənin Senatda qəbul edilməsinə nail olmuşdur. Sonrakı illər ərzində bir neçə dəfə Senatda məsələni müzakirəyə gətirməyə nail olan erməni diasporu müzakirələr zamanı məğlub olmuşdur.(34; səh.19).

Erməni diasporu Konqresdə «erməni soyqırımı»nı tanınması üçün Amerikanın ştatlarında «erməni soyqırımı»nın mövcudluğunu qəbul etdirməklə Konqresi fakt qarşısında qoymaq niyyətindədirlər. Bu günə qədər erməni diasporu Amerikanın Kaliforniya (1981, 1985, 1995) İlliynoys (1995) Masaçussets (1978) Nyu Cersi (1984, 1985), Miçiqan (1995) Nyu-York (1987,1995) Pensilvaniya (1995) Rodaylend (1995) Vircinya (1995) Viskonsi (1985) ştatlarında, «erməni məsələsinin» müzakirəyə çıxarılmasına və tanınmasına nail olublar. (92; səh.3).

Nyu-Mexiko əyalətində 2001-ci ilin mart ayında,Vircinya ştatında 2001-ci il martın axırlarında,Merilend ştatında 10 aprel 2001-ci ildə «erməni genosidi» tanındıqdan sonra bu ştatlar da daxil olmaqla ümumilikdə 27 ştat və əyalət «erməni genosidi»ni tanımışdır . Bir sıra dövlət xadimləri kimi ABŞ—ın dövlət katibi Kolen Pauel də «erməni genosidini»tanınmasına dair bəzi ştatların qanunverici orqanlarının təşəbbüsünü pisləyib.Pauel həmin ştatların qanunverici orqanlarına müraciət edərək, ABŞ- Türkiyə münasibətlərinə təsir göstərə biləcək «erməni genosidi»nin tanınması prosesinin dayandırılmasını xahiş edib.

Bu ştatların qərarların əlində əsas tutan erməni diasporunun lobbisti Bob Doul 1990-cı ilin 24 aprelində ABŞ-



da «erməni genosidi»nin anma günü kimi qeyd edilməsi layiəhsini müzakirəyə çıxarır. Ancaq bu layihə Senat tərəfindən qəbul edilmir. Doulun ermənipərəst siyasətinin səbəbi isə -İkinci Dünya müharibəsi illərində onu müalicə edən erməni həkiminin "yaxşılığının» əvəzin verməkdir.. Ermənilər də onun xidmətlərinin əvəzin qarşılıqsız qoymurlar. Doulun türklərə qarşı nifrəti o dərəcəyə çatmışdır ki,məsələyə prezident Corc Buş qarışmalı olmuşdur. 1990-cı ildə Bobun prezident Buşa və Buşun Doula cavabı adı altında məktublaşmaları olmuşdur.Buş Douldan və erməni lobbisindən xahiş edirdi ki, bu məsələdə bir qədər «yumşaq» olsun.(93; internet məlumatı).

Ancaq, erməni diasporunun bütün cəhdlərinə baxmayaraq ABŞ da bir çox siyasətçiləri o illərin tarixi sənədləri ilə dərindən tanış olmamış «erməni genosidi»nin qəbul edilməsini *türk xalqına yönəldilmiş ədalətsiz addım kimi qiymətləndirir.* Amerika Senatı tərəfindən hər il qaldırılan «genosid» məsələsi Türkiyə-Amerika münasibətlərinin inkişafına təsir göstərdiyindən bu məsələ qəbul olunmamışdır. Məhz bu bəyanat və daha sonra bir çox konqresmenlərin digər konqresmenlərə göndərdiyi məktubla «erməni genosidi» tanınarsa bunun tarixi səhv olacağını bildirmişlər. Bu səbəblər nəticəsində 1987 və 1996-cı illərdə Senat tərəfindən «erməni genosidi» ilə bağlı olan 132 saylı qətnamə rədd edilmişdir.(77; səh.397)

2000-ci ildən etibarən türk diasporu və lobbisi Konqresin «erməni soyqırımı»nın tanıması qətnaməsinin qəbuluna qarşı fəaliyyətini gücləndirib. Türklər prezident B. Klintona müraciət göndəriblər. Məktubu Ağ evdə parlamentin *Beynəlxalq Əlaqələr Üzrə Komitəsinin* üzvləri R. Veksler, D.

Berjot, N. Diks, eləcə də *Xarici Yardımlar Üzrə Komissiyanın* sədri S. Kollahan təqdim ediblər. «SNARK» agentliyinə sızan məlumata görə məktubun təşəbbüskarları Türkiyənin maraqlarını müdafiə edən sabiq konqresmenlər - B. Livinqston, C. Salomon və S. Solarsdır.

***Normativ Aktların Hazırlanması Üzrə Komitənin*** sədri vəzifəsində olarkən C. Solomon erməni qətnamənin qəbuluna imkan verməyib onun dostu D. Loni bu ilin fevralında Virciniya ştatında sənədin qəbulunun əleyhinə təbliğat aparıb. Özünü «İstanbullu konqresmen» adlandıran S. Solars Türkiyə hökumətinin bu istiqamətdə kompaniyasını gücləndirib və Ankaranın təzyiqlərini dəstəkləyib.

Onuda qeyd etmək lazımdır ki, erməni diasporu «genosid» məsələsini müzakirəyə çıxartmaqdan ötrü müxtəlif vasitələrə əl atırlar. Ermənilərin maliyyə və təbliğat gücündən istifadə etməkdən ötrü onlara 2000-ci ildə keçirilmiş prezident seçkiləri ərəfəsi çoxlu vədlər verilmişdir . Bu vədlərin birincisi olaraq «erməni genosidi» layihəsinin gündəmə gətirilməsi oldu. Xüsusi ilə antitürk və antiazəri layihələri ilə mövqeyi bəlli olan Konqresdə məsələnin müzakirəyə gətirilməsi və burada da erməni lobbisinin güclü olması Amerika və Türkiyə arasında, Amerika və Azərbaycan arasında olan münasibətlərdə daimi soyuq rüzgarların əsməsinə səbəb yaratmış və yaradacaqdır. (94; səh.6).

Bütün bunların nəticəsi olaraq Amerikada fəaliyyət göstərən erməni diasporunun təşkilatları «erməni genosidi» qətnaməsinin qəbul edilməsi üçün birləşərək **«398 N-li Komitə: Erməni genosidinin tanınması və hər il bu tarixin dövlət səviyyəsində keçirilməsi»** birliyin yaratmışlar. Ciddi şəkildə ölkədəki seçkiqabağı vəziyyətdən istifadə edən bu birlik 21 sentyabr 2000-ci il tarixdə ABŞ Konqresinin «İnsan Hüquqları Komissiyasında» «erməni genosidi»nin tanınmasına nail olmuşlar. Qanunla bu komissiyadan sonra məsələ Nümayəndəlr Palatasının Beynəlxalq Əlaqələr Komitəsinin gündəliyində müzakirə olunur. 596 N-li «erməni genosidi» layihəsinin müəllifi ermənilərin daha çox məskunlaşdıqları Kaliforniya ştatından olan konqresmen Radonoviç 3 oktyabr 2000-ci ildə məsələnin bu komitədə qəbul edilməsinin vacibliyin müzakirələr zamanı xüsusi ilə vurğulamışdır. Müzakirələr zamanı prezident Bill Klinton, dövlət katibi Madlen Olbraytın, müdafiə naziri Uilyam Kohenin, Nümayəndəlr Palatasının Kəşfiyyat Komitəsinin sədri Portert Rossun, konqresmen Den Barton və bir sıra tanınmış dövlət xadimlərinin «erməni genosidi» layihəsinə qarşı etirazlarına, hətta Türkiyə millət vəkillərinin adından çıxış edən Mehmet Əli İrteşin «tarix gərək tarixçilərə qalsın» çıxışına əhəmiyyət verilməmiş 11 səsə qarşı 24 səslə (2 bitərəf) «erməni genosidi» layihəsi qəbul edilmişdir. Layihə qəbul edildikdən sonra Nümayəndəlr Palatasının müzakirəsinə verilmişdir. (93; səh.1-2).

«Erməni genosidi» layihəsi 2000-ci ilin sentyabr ayının əvvəlləri müzakirələr zamanı 4 konqresmen bu layihənin lehinə, 4-ü əleyhinə və 6-sının isə bitərəf olması nəticəsində növbəti müzakirəyə ehtiyac duyulmuşdu. Lakin sonradan bu bitərəflərin hansınınsa baxışlarında dəyişikliyin olması erməni diasporu və lobbisinə müsbət nəticənin əldə edilməsinə imkan yaratdı. Bu hadisədən dərhal sonra fəaliyyətə keçən Türkiyə hökuməti rəsmi olaraq Amerika rəsmilərindən uydurma «erməni genosidi» məsələsi oyununa son qoyulmasını tələb etmişdir. Əks təqdirdə bu layihə Konqresdə və daha sonra

Senatda qəbul ediləcəyi təqdirdə hər iki dövlət arasında münasibətlərin pozulmasını qaçılmaz edə bilərdi. Türkiyə hökuməti ilə «erməni genosidi» məsələsi insan hüquqları komissiyasında müzakirələr zamanı bu layihəyə qarşı görəcəyi tədbirləri açıqlamışdır. Rəsmi Ankaranın hazırladığı tədbirlərə: ABŞ-la silah ixracı üzrə bir sıra mühüm sazişlərin ləğvi, İncirlikdəki Amerika hərbi bazasına Amerika təyyarələrinə uçuşun qadağan edilməsi, İraqla ikitərəfli əlaqələrin fəallaşdırılması və s. daxildir. Şübhəsiz ki, bu planın hətta məhdud şəkildə reallaşdırılması ABŞ-ın milli maraqlarını ciddi zərbə altında qoyacaq idi.Türkiyə bəyan etmişdir ki, «erməni genosidi» layihəsinin qəbul edilməsi zəncirvari reaksiya doğura bilər. Demokratiyanın beşiyi olan bu ölkədə belə bir addımın atılması, bir çox Avropa dövlətlərinin parlamentlərindəki erməni təəssübkeşliyini gücləndirəcək və onsuz da çoxdan bəri müzakirələrə çıxarılmış uydurma genosidin tanınması ilə nəticələnəcək. (96; səh.1-2).

ABŞ Konqresində uydurma «erməni genosidi»nin müzakirəyə çıxarılması Türkiyə ilə yanaşı Azərbaycanda da ciddi narazılıq və narahatçılıqla qarşılanmışdı. Bu da səbəbsiz deyildir. Konqresin Azərbaycana qarşı qərəzli mövqe tutması 907-ci düzəlişin qüvvədə qalması şəklində özünü büruzə verir. Daha sonralar bu layihə qəbul ediləcəyi təqdirdə Azərbaycana və Türkiyəyə qarşı yeni ədalətsiz qərarların qəbul edilib-edilməməsinə heç kim qarantiya verə bilməz. Son zamanlar ABŞ Konqresində Türkiyə kürdlərinin insan hüquqlarının pozulması ilə bağlı qəbul etdiyi bəyanatlar Konqresin Türkiyəyə mövqeyini tam açıqlayır. Amerika Birləşmiş Ştatları milli maraqlarının ciddi zərbə altında qaldığını artıq hiss



etməyə başlamış və dərhal müəyyən tədbirlər görməyə başladı. Nümayəndələr Palatasında planlaşdırılan səsvermədən əvvəl Pentaqon 7 dəfə konqresmenlərə müraciət edərək qətnamənin qəbulundan vaz keçməyə çağırmışdı. Prezident Bill Klintonun Nümayəndələr Palatasının spikeri Dennis Hastertlə görüşərək erməni qətnaməsinin qəbul etməməyə çağırmasının «erməni genosidi» məsələsinin geri qaytarılmasında əhəmiyyəti böyük idi. Türk lobbisinin ABŞ-da fəaliyyətinin genişlənməsi və Türkiyə hökumətinin və Amerikaya təzyiqi nəticəsində 19 oktyabr 2000-ci ildə Nümayəndələr Palatasının iclasında erməni lobbisinin tam məğlubiyyəti ilə sonuclanmışdır. Müzakirə zamanı Nümayəndələr Palatasının spikeri prezident Bill Klintonun konqresmenlərə məktubun oxuyarkən «erməni genosidi» layihəsinin ABŞ-ın milli maraqlarına zidd olduğunu bildirmişdir. Bu məktubdan sonra erməni lobbisi və onların havadarları olan konqresmenlər gözləmədikləri məğlubiyyətə uğramışlar. Türkiyə bir daha öz gücünü göstərərək sübut etmişdir ki, artıq heç bir dövlət Türkiyəyə bu kimi vasitələrlə təzyiq edə bilməz. Türk dövləti və lobbisi öz layiqli qələbəsini qazanmışdır. Düzdür erməni diasporu və lobbisi bu məğlubiyyətlə barışmayaraq uydurma «genosidi» yenə və yenə müzakirələrə çıxarmağa çalışacaq. Ancaq güclü türk dövlətinin və lobbisinin qarşısında çətin ki, qələbə qazana bilər.

Xüsusilə erməni diaspor və lobbisinin uydurma «erməni genosidi» məsələsi Amerikada seçkilər ərəfəsində hər dəfə gündəmə gətirilir və hər dəfə vədlər verilir və hər dəfə də vədlər sadəcə olaraq kağız üzərində qalır. 1992-ci ildə Bill Klinton prezident kürsüsü uğrunda mübarizəyə başlayanda

Amerikanın yunan icmasına vəd vermişdilər ki, Kipr və Makedoniya ilə bağlı məsələlər müzakirə olunarsa o, yunanların mövqeyini müdafiə edəcək. Bu vəd elə vəd olaraq qalmışdır.

Amerikada 2000-ci il prezident seçkiləri zamanı prezidentliyə namizədlər Albert Qor və Corc Buşun güclü erməni lobbisinin maliyyəsinə və erməni əsilli seçicilərin səslərinə ehtiyacı olduğundan onlar ermənilərə bir sıra məsələlərdə və'dlər vermişlər.Erməni diasporu hər iki namizədə məktub yazaraq «Erməni genosidi» ilə bağlı onların münasibətin öyrənmişlər.Hər iki namizədin onların sualına cavabı gecikdirməmişlər. Corc Buş 20 iyun 2000-ci ildə verdiyi cavabda «ermənilərin 20-ci əsrin birinci genosidi olma faktını»qeyd etmişdir.Albert Qor isə cavabında genosid ifadəsin işlətməmiş ancaq ermənilərin 20-ci əsrdə əzab çəkdiklərin bildirmişdir. Vise-prezidentliyə namizədlər Libermandan fərqli olaraq Dik Çeynin ermənilərə münasibəti isə heç də yaxşı deyildir.Buna səbəb Dik Çeynin Azərbaycanla yanaşı Türkiyəyə qarşı da münasibətinin müsbət olmasıdır.1978,1985,1986 və 1995-ci illərdə Nümayəndələr Palatasında «erməni genosidi» məsələsinin müzakirələri zamanı Dik Çeyni erməni lobbisinin əleyhinə çıxmışdır.Güman etmək olar ki,prezident və vise-prezident arasında bu məsələ ilə bağlı mövqelərin əks olmasına baxmayaraq «erməni genosidi» və 907-ci düzəliş məsələləri müzakirələrdən götürüləcək.

Ancaq erməni diasporu Corc Buşun 24 aprel 2001-ci ildə ermənilərə müraciətində "genosid" kəlməsinin işlətməməsinə baxmayaraq Corc Buşdan verilən vədi tutması üçün yeni komaniyaya başlamışlar. Konqresmenlər Radanoviç və Adam Şif «erməni genosidi» ilə bağlı yeni layihə hazırlamışlar.Konqresin Respublikaçılar və Demokratlar arasında 50/50 nisbətində bölünməsinini onlar üçün müsbət hesab edən lobbist Ceyms Roqan ermənı qətnaməsinin tanınacağı ehtimallının çox olduğun bidirmişdir. 2001-ci il üçün ermənipərəst konqresmenlərin sayının 5-ə çatmasın əsas tutan .Şif bildirmişdir ki,artıq güclənməkdə olan türk lobbisi ilə mübarizə kapitoli zirvəsində çox kəskin olacaqdır.Bu mübarizədə isə güclü olan qalib çıxacaq-deyən türk lobbistləri erməni lobbisinə layiqli cavab verəcəklərinin bəyan etmişlər.

Corc Buş hökuməti Türkiyə ilə münasibətlərə ciddi fikir verir.Bu məqsədlə 2001-ci ilin aprel ayında Konqresdə ABŞ-Türkiyə münasibətləri və Amerikadakı türk diasporu məsələlərilə məşğul olan işçi qrupu yaradılmışdır.Respublikaçılar Partiyasının 3 üzvü Robert Uiksler, Edvard Uitfild və Key Qrengerin təşəbbüsülə yaradılmış qrupa 17 konqressmen daxildir.Den Barton, Tom Lentas,Bob Klement və s. işçi qrupuna daxildirlər.Türkiyəyə Amerikanın böyük əhəmiyyət verdiyini bildirən işçi qrupunun üzvləri gələcəkdə ABŞ-Türkiyə münasibətlərinin ardıcıllıq və dinamik şəkildə inkişaf edəcəyin bildirmişdir

Götürəndə uydurma «genosid» məsələsi istər ABŞ parlamentində istərsə də bütün dünyanın parlamentləri tərəfindən tanınsa belə bu Türkiyə üçün heç bir məsuliyyət doğurmayacaq və sadəcə olaraq qanunverici orqanın mövqeyini əks etdirmiş olacaq. Bu layihə o zaman Türkiyə üçün məsuliyyət doğura bilər ki, Türk hökuməti özü bu layihəni qəbul etmiş olsun. Bu isə qətiyyən mümkün

olmayacaq bir işdir. Türkiyə heç bir zaman bu addımı atmayacaq və belə bir uydurma genosidin tanınacağı heç bir zaman Türkiyə üçün məsuliyyət doğurmayacaq.

Türkiyə diasporu ABŞ-da bildirmişdir ki, Senat həmişəlik olaraq uydurulmuş «1915-ci il genosidi» məsələsinin qaldırılmasından imtina etməsə hər iki ölkənin münasibətləri konflikt səviyyəsindən yuxarı qalxa bilməz. Ermənilərin qaldırdıqları uydurma məsələlərlə siyasətçilər deyil, alimlər məşğul olmalıdırlar- bildirən türk diasporu və Türkiyə hökuməti ABŞ-da belə ciddi məsələlərdə obyektiv olmağı tələb etmişdir. Amerikanın bir çox iş adamları və siyasətçiləri erməni genosidinin cəfəngiyyat olduğunu bildirərək Türkiyə münasibətlərin cəfəngiyyatdan üstün olması barədə bəyanatlar vermişlər. (97; internet məlumatı).

Türkiyə və Azərbaycan «erməni genosidi»ilə bağlı aşağdakı tədbirləri həyata keçirməklə beynəlxalq aləmdə erməni diasporu və onların havadarlarının qarşısın ala bilər.

*1) Dünyadakı türk və azəri diasporlarının birləşdirilərək vahid mərkəzdən idarə olunması üçün mərkəz orqanın yaradılması*

*2) ABŞ-da və digər ölkələrdə güclü lobbi mexanizmin yaradılması*

*3) Təbliğat mexanizminin yaradaraq geniş miqyaslı kompaniyaya başlamaq, ermənilərin iç üzlərinin ifşa edən informasiya sisteminin və ideoloji -siyasi cəhbənin təşkil edilməsi*

*4) Hər iki ölkənin tarixçi-alimlərinə «erməni genosidi»-ni araşdırmaqdan ötrü geniş səlahiyyətlərin verilməsi və müvafiq şəraitin yaradılması*



*5) Dövlətin xarici siyasət konsepsiyasına diasporlarla əlaqəli olan xüsusi- prinsiplərin əlavə edilməsi və xüsusi bir orqanın yaradılması və fəaliyyət planlarının hazırlanması.*

*6) «Erməni genosidi»-nin hər hansı bir ölkədə gündəmə gətirildiyində həmin ölkəyə qarşı hər iki dövlət səviyyəsində «birgə tədbirlər» proqramının əsas müdəalları olan baykot,embarqo,etiraz notaları, türk və azəri diasporlarının etiraz çıxışlarını və s.həyata keçirtmək*

*7) Türkdilli dövlətlərin də bu məsələdə Türkiyə mövqeyindən çıxışın təmin etmək*

*8) Xocalı soyqrımınının Türkiyə ilə yanaşı dünya dövlətlərinin parlamentlərində tanınması üçün birgə fəaliyyət göstərmək və bu faciəyə siyasi qiymət verilməsi*

*9) Diplomatik sahədə müttəfiqlərin imkanlarından istifadə etməklə erməni vəhşilikləri ilə bağlı xüsusi dosyelərin hazırlanaraq beynəlxalq inistansiyalara təqdim etmək*

*10) BMT Təhlükəsizlik Şurasının 884,874, 822,853 saylı qətnamələrinin yerinə yetirilməsi üçün birgə faliyyət*

*11) « Güzəştə getməmə» prinsiplərin əldə tutmaqla erməni terror qruplarına qarşı güclü bir türk və azəri diasporlarından ibarət müdafiə və əks tədbir planlarının və s. həyata keçirtməklə beynəlxalq aləmdə ermənilərin layiqli cavabların vermək olar*

## 3. 907-ci düzəliş və erməni-azərbaycan diasporlarının mübarizəsi

Tarixi hadisələrin gedişi göstərir ki, bütün XX əsr boyu azərbaycanlılar üçün əsl tarixi fəlakətə çevrilmiş olan «erməni məsələsi» sonralar isə «Qarabağ problemi» zəngin sərvətə malik olan Qafqazda öz nüfuzunu itirmək istəməyən Rusiya imperiyasında siyasi hadisələrin gedişi ilə blavasitə bağlı olmuşdur, imperiyanın parçalanma təhlükəsi yarandıqda və artdıqda bir qayda olaraq həmin problemlər də ortaya çıxır və və vəziyyət sabitləşdikdə o da arxa plana keçir. Uzun müddət hazırlanan köhnə «erməni məsələsi» 80-ci illərin ortalarından başqa adla, regiondakı böyük dövlət - Sovet İttifaqının dərin ictimai-siyasi böhrana düçar olduğu, onun tərkibində olan respublikalar müstəqil dövlətlərə çevrilmək uğrunda mübarizəyə başladığı «əlverişli» bir dövrdə yenidən ortaya atıldı. Artıq təkzibedilməz faktlar var ki, SSRİ-də baş vermiş siyasi böhranın yaranmasında və daha da dərinləşməsində «Qarabağ problemi» əsas amillərdən biri olmuşdur.(35; səh. 101-105).

Elmi səviyyədə Qarabağın Ermənistana məxsus olması bardə iddianı ilk dəfə olaraq Abel Aqanbekyan irəli sürmüşdür. 1987-ci ilin 2 noyabrında Fransadakı erməni diasporunun dəvətlə bura gələn Aqanbekyan Parisdə erməni institutunda diaspor qarşısında çıxış edərək «Qarabağın ermənilərə verilməsi arzusu»nu, irəli sürmüşdür. Bu fitnə erməni diasporu üçün bəhanə yaratmış və ümumdünya erməniləri Türkiyə ilə yanaşı Azərbaycana qarşı dünyada və



xüsusi ilə ABŞ-da mübarizəni gücləndirmişlər.(77; səh. 296-297).

Ermənilər Azərbaycanla müharibəni döyüş bölgələrində aparmaqla yanaşı ABŞ-ın ictimai-siyasi dairələrində, Konqresin zal və kabinetlərində də aparırlar. Erməni diasporu ABŞ-ın daxili və xarici siyasətində mühüm rol oynamaqla yanaşı güclü təbliğat mexanizminə də malikdirlər. Olduqca geniş imkanlar diapazonuna malik ABŞ-ın və dünya erməni diasporlarının anti-Azərbaycan fəaliyyəti göstərərək erməni mədəniyyətini qoruyub inkişaf etdirməklə yanaşı ABŞ-da mühüm siyasi-iqtisadi mövqe qazanmağa çalışırlar.(98; səh.384-385).

Qarabağ münaqişəsi başlanan zamandan erməni diasporunun bütün təşkilatları Azərbaycana qarşı təxribatçılıq əməlləri törətməyə başladılar. Bununla yanaşı Latın Amerikası, Yaxın Şərq və Orta Şərqdə və dünyanın müxtəlif bölgələrindəki erməni diasporu arasında ermənilərin «müdafiəsi» üçün pul, silah və digər hərbi ləvazimat toplanması və göndərilməsi təşkil olunur və bu günə qədər də davam edir. «Qarabağ problemi» ortaya çıxdığı andan erməni diasporu bu məsələni siyasi yolla həll etməyə və özünün Qarabağ torpağı ilə əlaqəsinin hüquqi cəhətdən sübut etməyə cəhd göstərirlər. Lakin özünün istər siyasi, istərsə də hüquqi dəlillərinin müasir beynəlxalq normalara uyğun gəlmədiyini gördükdə Ermənistan Azərbaycana qarşı açıq hərbi əməliyyatlara başladı və hazırdada təcavüz beynəlxalq hüquq normalarına uyğun olmayan vasitələrlə davam etməkdədir. Erməni diasporu və lobbisi isə dünyada güclü informasiya və təbliğat mexanizmi yaradaraq özlərini beynəlxalq ictimaiyyət qarşısında təcavüzə uğrayan dövlət imici yaratmağa

çalışırlar.(40; səh. 126).

«Qarabağ problemi» 1985-ci ildən SSRİ-də M. S. Qorbaçovun Sov. İKP MK-nın Baş katibi seçilməsindən sonra erməni diasporunun geniş səlahiyyətlərə malik olaraq fəaliyyət sahəsini genişləndirdikdən sonra gündəmə gətirilməyə başlandı. 1987-ci ilin noyabr ayında Aqanbekyanın Parisdəki açıqlamalarından sonra M.Qorbaçovun həyat yoldaşı Raisa Maksimovnanın ABŞ-dakı erməni diasporu tərəfindən rəğbətlə qarşılanıb hədiyyələr alması və bunun sayəsində Qorbaçovun bu məsələdə ermənilərə etdiyi güzəştlər nəticəsində Moskvada azərbaycanlı siyasətçilər və digər sahələrdə çalışan həmyerlilərimiz sıxışdırılmağa başlandı. **Sov. İKP MK-nın siyasi bürosunun üzvü olan H. Əliyevin işdən götürülməsinin erməni diasporunun fəaliyyətinin nəticəsi olduğu təsdiqlənmişdir.** (79; səh.85).

Bu ərəfədə isə ABŞ-da prezident seçkiləri keçirilirdi və erməni diasporu Respublikaçılar Partiyasını müdafiə etməyə başladılar. Respublikaçıların seçkilərdə qələbə qazandıqdan sonra Corc Buş hökumətində erməni diasporunun fəallarından olan Murad Topolyan Maykl Dukakisin milli məsələlər üzrə müavini oldu. ABŞ-dakı erməni diasporunun rəhbəri Paryur Zorcyan prezident Corc Buşun ictimai müdafiəçisi təyin edildi.Bu təyinatlardan sonra daha da güclənən erməni diasporu,xüsusilə Kaliforniya valisi Corc Dükməcyan, yazıçı Vilyam Sarayan və digər 100-ə qədər siyasətçi və milyonerlər ABŞ hökumətindən tələb edirdilər ki, ***Dağlıq Qarabağ probleminə BMT Təhlükəsizlik Şurasında*** baxılsın. Konqresmen Paşayan və digər erməni lobbistləri onların bu fikrini dəstəkləyərək Senat və Nümayəndələr Palatasında güclü lobbi yaratdılar. Amerikadakı erməni diasporunun rəhbəri Paryur Zorcyan Corc Buşun müdafiəçi olduqdan sonra bildirmişdir ki, Respublikaçılar Partiyasının qurultayında qəbul edilmiş proqramda Sovet İttifaqından öz müqəddəratını təyin etməyə çalışan xalqların müdafiə etməsi vardır. Və ABŞ-da erməni diasporunun qurultayında iştirak edən Respublikaçılar Partiyasının nümayəndələri həmin maddənin Respublikaçılar Partiyasının proqramına daxil edilməsini bəyənirlər. Bu isə erməni diasporu üçün geniş imkanlar yaradırdı.(99; səh.129).

**Erməni diasporu Azərbaycan və ABŞ arasında olan anlaşılmaz və ziddiyyətlərdən məharətlə istifadə edərək 1992-ci ilin oktyabrın 24-də Konqresin 102-ci çağırış 2-ci sesiyasının qəbul etdiyi və keçmiş SSRİ-nin Azərbaycandan savayı digər 12 respublikasına (Ermənistan, Ukrayna və s) demokratiyanın inkişafı və bazar iqtisadiyyatına keçid məqsədi ilə 460 milyon dollar həcmində yardım nəzərdə tutulan «Azadlığı Müdafiə Aktı» və ona 907-ci əlavənin qəbul edilməsi oldu. Prezident Corc Buş Senatın ona təqdim etdiyi «Freedom Support Act - S.2532; P.L102-511» qanun layihəsini tərəddüd etmədən imzaladı və qanun rəsmi olaraq qüvvəyə mindi.** Bu 907-ci əlavənin Massaçusests ştatından olan senator Con Kerri təqdim etmiş və Konqresin 535 deputatından yalnız Mak Konnel, Luqar, xanım Kessembium,Senford və bir neçə deputatından savayı başda senator Bob Doul olmaqla digər ermənipərəst konqresmenlər onu müdafiə etmişdir. Bədnam 907-ci əlavənin Azərbaycana qarşı iqtisadi yardıma qadağa aksiyasının məzmunu belədir:

**- Bu və ya digər qanunvericilik aktları çərçivəsində Birləşmiş Ştatların Azərbaycana iqtisadi yardımı o zamana qədər mümkün olmayacaq ki, ABŞ prezidenti müəyyən**

**etmiş olsun və bu haqda Konqresə xəbər çatdırsın ki, Azərbaycan hökuməti bütün blokadaları, Ermənistan və Dağlıq Qarabağa qarşı zor gücünün istifadəsini dayandırmaq üçün əməli iş görür.** (100; səh.23).

Əlavənin mətnindən belə çıxır ki, guya Azərbaycan Ermənistan və Dağlıq Qarabağı blokadaya salmışdır, digər tərəfdən isə həqiqət tərsinə yozularaq hücum edən tərəf (Ermənistan) hücuma məruz qalan tərəf kimi təqdim olunmuşdur.(101; səh.15).

Bu günə qədər ABŞ Senatında 907-ci əlavə ətrafında aşağıdakı hadisələr ictimai fikri bu məsələyə yönəltməklə ciddi nəticələr qazanmışdır.

***1. 1993-cü ilin 7 noyabrında senator De Konsini 907-ci əlavənin yenidən nəzərdən keçirilməsinin Konqresə tövsiyə etmişdir.***

***2. 1994-cü ilin əvvəllərində Konqresin Nümayəndələr Palatasında Xarici Məsələlr Üzrə Komitə başçısı Li Hamilton Azərbaycan hökumətinə yardım göstərilməsinə qadağanın ləğv edilməsini nəzərdə tutan qanun layihəsilə qanunvericilik təşəbbüsü göstərmişdir.***

***3. 1994-cü ilin mayında bəzi konqresmenlər Nümayəndələr Palatasında bəyanatla çıxış edərək 907-ci əlavəyə mənfi münasibətini bildirmişdir.***

***4. 1994-cü il mayın 5-də senatorlar Q. Reyd və P. Sayma Konqresə 218 saylı qətnamə layihəsi təqdim etmişdir. Qətnamədə ilk dəfə olaraq Ermənistan münaqişənin iştirakçısı kimi göstərilmişdir.***

***5. 1994-cü il iyunun 16-da senator Patrik Lehi Dövlət Departamentinin təklifi və himayəsi ilə xarici ölkələrə 1995-ci ildə Yardım Büdcəsinin Maliyyləşdirən Komitədə 907-ci əlavənin humanitar yardıma aid edilməsini nəzərdə tutan layihə vermişdir.***



***6. 1994-cü il iyunun 20-də konqresmen Lenni 907-ci əlavənin ləğvi haqqında qanun layihəsini müzakirə üçün Konqresə təqdim etmişdir. «Lenni lahiyəsi»-nin əsas məqsədi «Kerri düzəlişi»-ni ləğv eilməsi və 907-nin aradan götürülməsi idi.Lakin «Lenni layihəs»i Konqresdə özünə tərəfdar tapa bilmədiyindən qəbul edilmədi. (102; səh.38-39).***

Yuxarıda adları sadalananlarla yanaşı 1995-ci ilin mayında senator Helms və Luqarın birgə hazırladığı «Helms layihəsi», 1995-ci ilin oktyabrında konqresmen Ç. Vilsonun, 1997-ci ilin iyul ayında konqresmen Piter Kinqin, 1998-ci ilin sentyabrında konqresmen Bob Livinqston, 1999-cu ilin sentyabrında isə senator Sem Braunbəkin "ipək yolu strategiyası" və 907-ci əlavəni ləğv edilməsi kimi düzəlişlər Konqresdə müzakirə olunmuşdur.(101; səh.2).

Bütün bu layihə və düzəlişlər Azərbaycan diasporunun formalaşmaqda olan lobbisinin rəsmi qeydiyyatdan keçməmələrinə baxmayaraq onların Azərbaycanın haqq işini dəstəkləməsi prosesinə qoşulmaları ABŞ-da əməlli-başlı Azərbaycan xeyrinə lobbiləşdirmə kompaniyasına səbəb olmuşdur. **Artıq bu gün Amerikada Azərbaycan lobbistləri kimi tanınan siyasi xadimlər, Breit Alaunroft, Zbiqnev Bjezinski, Con Sun, Sem Braunbək, Riçard Armiton və s. öz çıxışlarında «neft strateji məhsuldur, Amerika Azərbaycanın neft yataqlarının kəmiyyətini Küveytin və ABŞ-ın ehtiyatlarına bərabər sayır! Amerikanın milli mənafeləri 907-ci əlavənin ləğvini tələb edir. Erməni diasporu və lobbisi ABŞ-ın milli, nefti maraqlarından çox zəifdir!» kimi şüarları siyasi dairələr içərisində tez-tez**

**xatırlanır 152** (103; səh.4).

907-ci əlavənin ləğv edilməsini neft yataqlarının işlədilməsi üçün ABŞ hökumətinin təminatlı istiqrazlarının və maliyyə yardımının qrantı kimi qiymətləndirilən Amerikanın neft şirkətləri bu şəxslərin yardımı ilə Konqresin ermənilərin işi üzrə üç nəfərdən ibarət işçi qrupu ilə qüvvətlənmiş güclü erməni lobbisinə əməlli-başlı müqavimət göstərir. Məhz onların səyi nəticəsində dəfələrlə ermənipərəst konqresmenlərin Azərbaycan əleyhinə növbəti sanksiyalar qəbul etdirmək kimi cəhdləri baş tutmamış, 907-ci əlavənin yumşaldılmasına doğru irəliləyişlər baş vermişdir. «Kerri düzəliş»inin aradan qaldırılmasına baxmayaraq təkcə 1993-1995-cm illərdə Azərbaycana qeyri-hökymət təşkilatları vasitəsi ilə 99 milyon dollar həcmində yardım edilmiş, ABŞ-ın **«Eksson», «Amoko», «Şevron», «Yunikal», «Penzoyl», «Mobil»** kimi ən iri trans milli neft korporasiyaları Azərbaycandakı neft layihəsinin həyata keçirilməsi prosesinə cəlb edilərək Azərbaycan iqtisadiyyatına iri həcmdə uzunmüddətli investisiya qoymağa başlamışlar.(104; internet məlumatı).

1996-cı ildən etibarən Amerikada Azərbaycan diasporunun lobbiçilik işi xeyli güclənməyə başladı. Bu ilin noyabrın 25-26-da Nümayəndələr Palatası, sonra isə Senat Azərbaycana birbaşa humanitar yardımının göstərilməsini nəzərdə tutan Çarlz Vilson düzəlişi adlanan qanun layihəsini təsdiq etdi. Elə həmin gündə ABŞ prezidenti qanun layihəsini imzaladı.(102; səh.12-13).

Konqresmen Ç. Vilsonun təşəbbüsü «Azadlıq müdafiə aktı»-na 907-ci düzəlişə əlavədir. Vilson düzəlişə qədər Azərbaycana yalnız qeyri-hökumət təşkilatlarının xətti ilə



yardım göstərilməsi mümkün idi. Qəbul edilmiş yeni düzəlişdə isə deyilir «**Azərbaycan hökumətinə yardım o halda göstərilə bilər ki, prezident müəyyən etsin ki, qeyri-hökumət təşkilatları tərəfindən Azərbaycana göstərilən yardım qaçqınların və məcburi köçkünlərin ehtiyaclarını lazımi səviyyədə ödəmir».** (100; səh.46).

Vilson düzəlişinə qədər Amerika hökuməti Azərbaycana yalnız qeyri-hökumət təşkilatları (***NGO***) və şəxsi xeyriyyəçi təşkilatlar (***PVO***) vasitəsi ilə humanitar yardım göstərirdi. Bu PVO-lara ***«Save lhe children Care», «Adventist Devolorment and Relief (ADRA)*** və s. daxildir. Ancaq bu təşkilatlara birbaşa dövlət strukturları ilə kontakt saxlamaq qadağan edilirdi. Digər postsosialist ölkələrində olduğu kimi, Azərbaycanda da köməyin edilməli olduğu infrastrukturlara tibbi xidmət də daxil idi. Bizim ölkədə isə demək olar ki, əksəriyyət tibbi müəssisələr dövlət mülkiyyətindədir. Bu isə çox gülünc şəraitə gətirib çıxarırdı. Məsəl üçün, Azərbaycan tibb işçiləri uşaqların immunlaşdırılmasında iştirak edə bilməzdilər. Bununla yanaşı humanitar təşkilatların əməkdaşları qaçqınların evlərini təmir edə bilməzdilər. Buna səbəb isə həmin evin dövlət mülkiyyətində olması idi. Bundan başqa, Vilson düzəlişi qəbul edilən bu düzəlişi dəstəkləyənlər 907-ci düzəlişin mənfi tərəflərini xüsusilə vurğulayırdılar. 907-ci düzəlişə görə Azərbaycan məmuru tutduğu vəzifədən asılı olmayaraq, istər nazir olsun, istərsə də alim olsun, onun ABŞ hökuməti tərəfindən düzəldilən treninq, seminar və konfransda iştirak etmək hüququ yox idi. Amerika mütəxəssisləri isə Azərbaycanda demokratik və hüquqi quruculuq işlərində iştirak edə bilməzdilər. Azərbaycan isə demokratik dövlət quruculuğu yolunda apardığı çətin inkişaf

mərhələsində Amerikanın köməyinə ehtiyac duyduğu zaman isə kömək qanunla qadağan edilirdi.

Bu kimi ölkəmizi çətinliyə salan qanunların qəbul edilməsinin səbəbkarı olan erməni diasporu və lobbisi yeni-yeni saxta qanun layihələri hazırlayaraq öz məqsədlərinə çatmağa çalışırlar. Erməni diasporu və lobbisinin fəaliyyəti sahəsində Ermənistan Amerika hökuməti tərəfindən edilən humanitar yardım alan keçmiş SSRİ ölkələri içərisində birinci dünyada isə İsraildən sonra ikinci yerə çıxmışdır. 2000-ci ilə qədər Ermənistan 619 milyon dollar yardım almışdır.2000-?? ildə isə Ermənistan ABŞ-dan adambaşına 42 dollar həcmində yardım almışdır.Bu yardım Bosniya üçün adambaşına 34 dollar,Ruanda üçün 3 dollar,Rusiya üçün1 dollar 40 sent,Hindistan üçün isə 14 sent hesablanır. (105 internet məlumatı)

Azərbaycan xeyrinə lobbiçilik edən yuxarıda adları sadalanan siyasətçilər və dövlət xadimlərinin güclü erməni diasporu və lobbistləri ilə mübarizədə bəzi məsələlərdə qələbə qazanmasına baxmayaraq 1990-cı illərdən bəri erməni lobbisi və diasporu Amerikanın Azərbaycan münasibətində hələ də təsir etmə qüvvəsi qalmaqdadır. Azərbaycan diasporunun güclü lobbi mexanizminin olmaması erməni lobbisi və diasporuna Cart blanche verir ki, bu da Konqres və digər ictimai təşkilatlarda onların sözünün keçməsinə imkan yaradır.

Əvvəllər ermənipərəst olmuş daha sonralar isə Azərbaycanın haqlı olduğunu anlayıb onun xeyrinə lobbiçiliklə məşğul olan Bob Livinqston 907-ci əlavənin ləğv edilməsi üçün ciddi mübarizə aparır. 1994-cü ildə Bob Livinqston bu əlavənin ləğv edilməsinə nail ola bilərdi. Ancaq Kapitoli



zirvəsində hələ də güclü olan erməni lobbisi Nümajyəndələr Palatasının müzakirəsində 907-ci əlavəyə daha yeni bir əlavə bənd edilməsinə nail olur və 907-ci əlavə qüvvədə qalır. Ancaq ermənilərdə gözlənilməz faktlarla rastlaşmalı olurlar. Konqresmenlərin əksəriyyəti Livinqstonu dəstəkləmişlər. Bu səbəbdən də Livinqstona qarşı mübarizəyə başlayan erməni diasporu və lobbisi bütün güclərin spiker Dennis Hastertenin ətrafında cəmlənməsinə baxmayaraq Hasterte bəzi məsələlərin qəbul edilməsində erməni diasporu və lobbisini istədiklərinin əleyhinə olaraq addım atmışdır.(106; səh.94-96).

Hastertenin ətrafında cəmləşən erməni diasporu və lobbisi Livinqstona qarşı mübarizəni intensivləşdirərək «***California Courter»*** qəzetinin 10 dekabr 1998-ci il nömrəsində strategiyaların açıqlamışlar. ***«Ermənilər Livinqstonun təmsil etdiyi Luizanada o qədər də güclü deyillər. Ancaq buna baxmayaraq Livinqstonun Nümayəndələr Palatasının spikerliyi yolunda mübarizədə biz maneə ola bilərik. Qoy Livinqston 907-ci maddədən əl çəksin, biz də onu rahat buraxaq».***

Livinqston spiker olacağı təqdirdə 907-ci düzəliş ləğv olunma təhlükəsi yaranmışdır.

Erməni diasporunun Kapitoli təpəsində və Konqresdə Azərbaycan əleyhinə bir çox sənədlərin qəbul edilməsinə nail olmuşlar. Bunlardan biri 1993-cü ilin fevralın 17-də konqresmen Devid Boniyerin qəbul edilmiş «Dağlıq Qarabağ ətrafında mübahisələrə dair» adlı 86 saylı qətnaməinin məzmunu respublikamıza qarşı açıq-aşkar düşmənçilik ruhunda tərtib olunmuş idi. Bu qətnamənin məzmunundan görünürdü ki, əsl həqiqət tərsinə yazılaraq Azərbaycan təcavüzkar kimi günahlandırılır və 907-ci əlavənin qüvvədə

saxlanılmasının zəruriliyi tələb olunurdu. İkinci erməni diaspor və lobbisini böyük qələbəsi qatı ermənipərəst ***Konqresin Erməni məsələləri Üzrə İşçi Qrupunun*** həmsədri konqresmen Con Edvard Porterin 1996-cı ilin 11 iyununda 1997-ci il üçün xarici əməliyyatlar haqqında qanun layihəsinin - əlavəsi nəzərə alınmaqla qəbul etmişdir.(107; internet məlumatı).

«Porter əlavəsi»nə görə ayrı-ayrılıqda həm Azərbaycanın, həm də Dağlıq Qarabağın qaçqın və köçkün düşmüş əhalisinə uyğun olaraq 7:1 nisbətində humanitar yardım göstərilməsi nəzərdə tutulmuşdur.Bunun iki cəhətinə görə dövlətçiliyimiz əleyhinə yönəldiyi qənaətinə gəlmək olar.

**1 Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsinin deyil, müstəqil subyekt kimi təqdim edilirdi.**

**2 İki müxtəlif subyektə müxtəlif yardımlar təklif olunmaqla göstərilən yardım arasında nisbət qoyulurdu.**

Azərbaycan dövlət hakimiyyət orqanlarının, ictimaiyyətinin kəskin etirazlarına səbəb olmuş «Porter əlavəsi» ABŞ-da da birmənalı qarşılanmadı. Artıq iyunun 12-də ABŞ dövlət departamenti «Porter əlavəsi» ilə bağlı xüsusi bəyanat verərək qanun layihəsində göstərilən şəkildə düzəlişlərin qəbul edilməsini Dağlıq Qarabağ münaqişəsinin siyasi danışıqlar vasitəsi ilə aradan qaldırılmasının müdafiə olunmasına dair hazırda edilən səylərə qarşı maneə yaratmaq cəhdi kimi qiymətləndirdi. Bundan əlavə bəyanatda Azərbaycan Respublikasında ehtiyacı olan şəxslərə yardımın artırılması ilə Dağlıq Qarabağa göstərilən eyni səylər arasında müəyyən nisbət qoyulmasına yönəldilən hər cür cəhdlər pisləşmişdir. Qeyd edilmişdir ki, ABŞ Azərbaycanda 780000-dək olan qaçqın və məcburi köçkünə humanitar yardım göstərmək səylərini davam etdirəcəkdir.(100; səh.48-49).



Azərbaycan diplomatiyası «Porter əlavəsi»ndən dərhal sonra Xəzər dənizində maraqları olan neft kompaniyalarına təzyiq göstərməyə başladı. ABŞ hökuməti bilirdi ki, Konqres tərəfindən 907-ci düzəlişə «Porter əlavəsi» - ABŞ-ın neft kampaniyaları üçün uğursuz klimat yaratmışdır. Yuxarıda göstərildiyi kimi ABŞ hökuməti «Porter əlavəsi» işi qəbul edilməsindən narahat olurdu. Bu narahatçılığa səbəblərdən biri də nümayəndələr palatası tərəfindən dəstəklənən «Porter əlavəsi»ndə Azərbaycana və Dağlıq Qarabağa yardım göstərilməsinə aid bəndində bu ölkənin xarici əməliyyatlar qanun layihəsinin hissəsi olmaqla yanaşı burada Və sözünün Konqres tərəfindən ABŞ-ın Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi kimi qəbul etmədiyini göstərirdi. ABŞ isə bu qanun layihəsini rəsmi surətdə qəbul edəcəyi təqdirdə isə hər iki ölkə arasında münasibətlərin pozulmasına gətirib çıxaracaqdır. Bu səbəbdən də Klinton hökuməti Konqresə təzyiq göstərərək ABŞ-ın xarici siyasətinin erməni lobbisindən asılı olmadığına bir daha vurğulayaraq Azərbaycan tərəfini təklif etdiyi kompromis variant «və» sözünün «daxil olmaqla» əvəz edilməsinə çalışırdı.(108; səh.12).

«Porter əlavəsi»ni dəstəkləyən erməni diasporu Konqresə təzyiqini gücləndirərək düzəlişdə qeyd edilən Azərbaycana göstərilən yardımdan hər 7 dollardan 1 dolların Dağlıq Qarabağa ayrılması bəndinin və Dağlıq Qarabağın izahedici mətndə müstəqil obyekt kimi erməni qaçqınlarının da vəziyyətlərinin çox pis olması, bu yardımın onlara xeyli kömək edəcəyini göstərən erməni diasporu və lobbisi «Porter əlavəsi»nin müsbət cəhətləri barədə təbliğat kompaniyasına başladılar. Ancaq Nümayəndələr Palatası tərəfindən qəbul edilən ***«Porter əlavəsi»*** sentyabrın 17-si 1996-cı ildə yenidən

Nümayəndələr Palatasında və Makkolnelin sədri olduğu ***Senatın Xarici Əmliyyatlar Üzrə Uzlaşdırıcı Komissiyasının*** iclasında senatorlar Robert Berd, Frenk Markovski və s. senatorların rəyi nəticəsində bədnam «Porter əlavəsi» tamamilə rədd edildi. 907-ci əlavədə isə «Və» variantının Azərbaycan tərəfinin təklif etdiyi kimi ***«Azərbaycan Dağlıq Qarabağ regionu daxil olma***qla» variantı qəbul edilmişdir. Bu Azərbaycan diasporu və formalaşmaqda olan lobbisinin qələbəsi idi.(102; səh.28).

***Qanun layihəsinin hərfi tərcüməsi aşağıdakı kimidir:***

Qeyd: Bu qanun layihəsi Komitədə işlənib tamamlanandan sonra nəşr edilmək üçün verilir. Hər hansı dəyişikliklər barədə məsləhətlərinizi nəşrdən əvvəl verməyiniz xahiş olunur.

NÜMAYƏNDƏLƏR PALATASI
(104 nömrəli məruzə)

Xarici əməliyyatlar, ixracat maliyyələşməsi və əlaqəli proqramlara görə 30 sentyabr 1997-ci ildə başa çatacaq maliyyə ili üçün vəsait hazırlanması.

NÜMAYƏNDƏLƏR PALATASINDA
MAY, 1996.

Vəsaitlər komitəsindən cənab Kallahan aşağıdakı Qanun layihəsini məruzə etmişdir. Layihə komissiyaya təqdim olunmuş və nəşr edilməyə məsləhət bilinmişdir.

QANUN LAYİHƏSİ



(m) (1) «Azadlığa yardım aktının» (Freedom Surrort Act) 907-ci bəndinə və ya qanunun hər hansı müddəasına baxmayaraq, qeyri-hökumət təşkilatlarına və xüsusi könüllü təşkilatlara Azərbaycanda qaçqınlara və yurdlarından didərgin düşmüş adamlara bu bəndə uyğun fondlardan humanitar yardım vermək üçün Azərbaycan hökumətinin qurucularından və nəqliyyat vasitələrindən istifadə edilməyə və ya həmin avadanlığa, (məs. tibb klinika və yaşayış binalarına) və ya yardımı vermək üçün istifadə edilən nəqliyyat vasitələrinə lazım olan təmir işlərini aparmaq üçün belə köməkdən istifadə edilməyə maneçilik edilmir.

(2) Humanitar yardım bu bəndə uyğun fondlardan Azərbaycanda qaçqın və yurdundan didərgin düşmüş adamlara verilə bilər, bir şərtlə ki, bu bəndə uyğun fondlardan, (s) yarımbəndinə müvafiq olaraq, Dağlıq Qarabağdakı qaçqınlara və yurdlarından didərgin düşmüş adamlara da humanitar yardım verilsin.

(3) Humanitar yardım Azərbaycanda Dağlıq Qarabağ regionu daxil olmaqla qaçqın və yurdlarından didərgin düşmüş adamlara bu bəndə uyğun fondlardan elə bir nisbətdə (proporsiyada) verilə bilər ki, Azərbaycanda Dağlıq Qarabağ regionu daxil olmaqla qaçqın və yurdlarından didərgin düşmüş adamların sayı, müvafiq olaraq, Dağlıq Qarabağ və Azərbaycanda qaçqın və yurdlarından didərgin düşmüş adamların ümumi sayına uyğun olsun, lakin heç bir halda Dağlıq Qarabağa hər bir dollar üçün Azərbaycana 7 dollardan çox olmasın.

II Bənd: Keçmiş Sovet İttifaqı məkanındakı Yeni Müstəqil Dövlətlər üçün Yardım.

Komitə keçmiş Sovet İttifaqı məkanındakı Yeni Müstəqil

Dövlətlərə yardım verilməsi haqqındakı hesabata yeni yarımbənd (m) daxil etmişdir. Bu yarımbəndin məqsədi Azərbaycanda humanitar yardımın çatdırılmasının və Dağlıq Qarabağ da daxil olmaqla humanitar yardımın çatdırılmasının yaxşılaşdırılmasını təmin etməkdir. Komitə Dağlıq Qarabağın siyasi statusuna heç bir fikir ifadə etmir. Bu müddəa aydınlaşdırır ki, qeyri-hökumət təşkilatlarına və xüsusi könüllü təşkilatlara Azərbaycanda qaçqınlara və yurdlarından didərgin düşmüş adamlara humanitar yardım verilməsi üçün Azərbaycan hökumətinin qurğularından, məsələn xəstəxanalardan və ya nəqliyyat vasitələrindən istifadə etməsinə maneçilik edilmir. Komitə nəzərdə tutur ki, bu müddəa eyni zamanda qeyri-hökumət təşkilatlarına qaçqınlara və yurdlarından didərgin düşmüş şəxslərə qayğı göstərilməsi üçün istifadə olunan tibbi klinikalar və yaşayış yerləri (məntəqələri) kimi hökumət tikililərinə lazım olan təmir işlərini aparmaq üçün yardım fondlarından istifadə etməyə də icazə verir. Komitə eyni zamanda onu da nəzərdə tutur ki, hökumət personalına (nümayəndələri, şəxsi heyət) malların bölüşdürülməsinə (məsələn, ehtiyacı olan vətəndaşlara dərmanların verilməsi kimi) icazə verilir və həmin mallar bölüşdürülmə məqsədilə hökumət nümayəndələrinə verilə bilər.

Son illərdə isə senator Sem Braunbək və Qordon Smitin irəli sürdükləri «İpək yolu» qanunvericilik təşəbbüsü Azərbaycan diasporu və lobbisinin bədnam 907-ci düzəlişinin ləğv edilməsi yolunda uğurlu addımlarından biridir. «İpək yolu» qanunvericilik təşəbbüsünün əsas mahiyyəti ABŞ siyasətinin Mərkəzi Asiya, Qafqaz və Xəzəryanı regionda məqsəd və vəzifələrini müəyyənləşdirir. Bu səbəbdən də



Konqresin Azərbaycana yardımını məhdudlaşdıran 907-ci əlavənin ləğv edilməsi rəsmi Vaşinqtonun Dağlıq Qarabağ probleminin həlli ilə bağlı vasitəçilik səylərini artırmış olar «İpək yolu» qanun layihəsi (579-cu bənd) erməni diasporu və lobbisi tərəfindən anti-erməni düzəliş kimi qəbul edilmişdir. Erməni xalqına qarşı bunu düşmənçilik kimi qələmə verən erməni diasporu reallıqlıqla barışmaq istəmirlər.(109; internet məlumatı).

Ancaq hələ də erməni lobbisi Konqresdə öz gücünü qoruyub saxlamaqla yanaşı öz çirkin əməllərindən əl çəkmirlər. Onların səyi nəticəsində 2000-ci fiskal il üçün ***Nümayəndələr Palatasının Xarici Əmliyyatlar Üzrə Uzlaşdırıcı Komissiyasının*** xarici əməliyyat haqqında qanun layihəsinin 907-ci düzəlişin qüvvədə qalması Şərti ilə qəbul etdirilməsinə nail oldular. 907-ci düzəlişin qüvvədə qalması ABŞ-ın hələ də Azərbaycana birbaşa yardım etməsinin qarşısın alır. Bu qanun layihəsinə görə 12,85 milyard dollar hökumət səviyyəsində yardım ayrılmalıdır ki, bunun da 725 milyonu keçmiş sovet respublikalarına şamil edilir.

Ermənistana 85 milyon, Gürcüstana 80 milyon dollar ayrılmışdır. Azərbaycana isə qeyri-hökumət təşkilatları üçün isə 25 milyon dollar humanitar yardımla kifayətlənməli olub. Ancaq ermənipərəst konqresmenlər Nansi Pellouzi və Co Nollenberq bu yardımın da qarşısının alınmasından ötrü yeni qanun layihəsi işləyəcəklərini bildirmişlər. (111, internet məlumatı)

2000-ci ilin yanvar ayının sonlarında senatorlar Sem Braunbek və Qordon Smit «Braunbək-Smit layihəsi» ilə bağlı prezident Bill Klintona məktub göndərərək 907-ci düzəlişin ləğviylə bağlı zəruri tədbirlər görməyə çağırıblar. Senatorlar

bildiriblər ki, Amerika ərazisinin 20 faizini erməni işğalçıları zəbt edən bir dövlətə qarşı sanksiya tətbiq etmişdir. Eyni zamanda 907-ci düzəlişin ABŞ-ın imzalanmaya dair danışıqlarda daim vasitəçi roluna xələl gətirdiyini qeyd edən senatorlar:

**«ABŞ-ın Qafqazdakı işgüzar maraqlarında baryerlər yarandığını vurğulamışlar. Biz qətiyyətlə əminik ki, Azərbaycan hökuməti düşmənçiliyin aradan qaldırılması və sülhün bərqərarı yolunda tədbirlər görməsinə dair bütün tələbləri yerinə yetirib. Sizin 907-ci düzəlişi ləğv etmək üçün səlahiyyətiniz var və Konqresi əmin edin ki, Azərbaycan 907-ci düzəlişin ləğviylə bağlı bütün tədbirləri yerinə yetirib».** (110; səh.10).

Eyni zamanda Azərbaycan lobbisi 907-ci düzəlişdə qeyd edildiyi BMT tərəfindən Dağlıq Qarabağ problemlə əlaqədar olaraq qəbul etdiyi 884 (1993), 874 (1993), 822 (1993), 853 (1993) nömrəli qətnamələrinin bu düzəlişə əlavə edilməməsi ilə bağlı olan bəndinin dəyişdirilməsinə çalışırlar. Azərbaycan lobbisi bu bəndin BMT qətnamələrinin Konqres tərəfindən qəbul edilməməsini, bu qurumun nüfuzdan salınması ilə əlaqələndirərək Ermənistanın təcavüzkarlarının rəsmi surətdə qeyd edildiyi bu qətnamələrin 907-ci düzəlişə əlavə edilməsini tələb etmişdir. (102; səh.6).

Ermənistanın işğalçılıq siyasətinin davam etməsinə baxmayaraq Azərbaycan hökumətini neçə ildir ki, atəşkəs rejiminə əməl etməsi və münaqişənin sülh yoluyla imzalanmasının tərəfdarı olduğunu bildirən Azərbaycan lobbisi 884, 874, 822, 853 nömrəli qətnamələrin Ermənistan tərəfini qəbul etməməsini arqument kimi göstərən Ermənistanın BMT nizamnaməsini kobud surətdə pozduğunu



bildirmişdir.

Azərbaycana qarşı tətbiq olunmuş ədalətsiz 907-ci düzəliş ölkəmizin üzv olduğu beynəlxalq birliklər tərəfindən pislənmişdir. Ölkəmizin üzv olduğu Ümümdünya Veteranlar Birliyinin Baş Assambleyasında 2000-ci il dekabrın 3-dən 9-dək Parisdə keçirilmiş toplantısında 907-ci düzəliş pislənmişdir. Və bu düzəlişin ləğv olunması üçün Amerika Konqresinə müraciət ediləcəyi bildirilmişdir.Cənubi Koreya, Malyaziya, ABŞ, Lüksemburq və s. dövlətlərin nümayəndələri Azərbaycanın mövqeyini dəstəkləmişdirlər.

**Azərbaycan prezidenti Heydər Əliyev ABŞ-da etdiyi rəsmi səfərlərdə, ATƏT-in Lissabon sammitində NATO-nun Madrid sammitində və digər nüfuzlu beynəlxalq təşkilatların iştirakında və bir sıra nümuzlu dövlət xadimləri, dövlət başçıları, siyasət xadimlərlə görüşündə və dünyanın bir sıra aparıcı KİV-nə verdiyi müsahibələrdə və danışıqlarda 907-ci düzəliş ölkəmiz üçün mənfi xarakter daşıdığını vurğulayaraq erməni diasporu və lobbisinin ABŞ-da və digər dövlətlərdə güclü olmasını bildirmiş və bütün bunlara baxmayaraq Azərbaycanın Amerika və digər dövlətləri ilə münasibətlərinin yalnız ikitərəfli deyil, həm də regional strateji əhəmiyyət daşıdığını qeyd etmişdir. Heydər Əliyev bildirmişdir ki, Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılmasında respublikamızın ədalətli mövqeyinin möhkəmləndirilməsi üçün Amerika və digər dövlətlərlə münasibətlərin genişləndirilməsinin xidməti çox olacaq və erməni diasporu və lobbisinin arzu etdiklərini gerçəklik kimi qələmə verməyə vərdiş etməsinə baxmayaraq «zavallı»,**

**«yazıq» erməni simasının əsl mahiyyətinin aşkarlanmasına şərait yaranacaqdır.** (100; səh.30).

6 sentyabr 2000-ci ildə Amerika Birləşmiş Ştatlarında minilliyli zirvə görüşü «millenium sammiti» keçirilmişdir. **Ölkəmizi bu önəmli sammitdə təmsil edən prezident Heydər Əliyev 7 sentyabr 2000-ci ildə çıxış etmişdir. Çıxışında Ermənistanın Azərbaycana qarşı başladığı təcavüzkar müharibə nəticəsində 20%-torpaqlarımızın işqal olunduğunu bildirərək dünya dövlətlərini ədalətli mövqe tutmağa çağırmışdır. BMT-nin 887, 874, 822, 853 nömrəli qətnamələrinə əməl olunmaması ilə bağlı narahat hissi keçirdiyini bildirən H. Əliyev BMT-nin bu qətnamələrin yerinə yetirilməsində nüfuzunun azaldığını bildirmişdir.** (112; səh.1).

Sentyabrın 8-də Nyu-York «BMT Plaza» - mehmanxanasında ipək yolu üzərində yerləşən ölkələrin regional əməkdaşlıq zirvə görüşü keçirilmişdir. Sammit Merilend Universitetinin Şərq Qərb Kosmik Elmlər Mərkəzi və Şərq-Qərb İnstitutu tərəfindən təşkil edilən bu görüşdə senator Sem Braubəkin Silkset «ipək yolu» strategiyası geniş müzakirə olunmuşdur. Görüşdə bir çox senatorlar, konqresmenlər və neft-qaz şirkətlərinin rəhbərləri, bir çox dövlət başçıları iştirak etmişdir. (113; səh.1).

***Sentyabrın 8-də ölkə prezidenti Nyu-Yorkda Amerikanın nüfuzlu yəhudi təşkilatları- Yəhudi Komitəsi, Prezidentlər Konfransının, Yəhudi Konqresinin, Sovet Yəhudilərinin Milli Komitəsinin*** rəhbərləri ilə görüşmüşdür. Amerika Konqresində güclü erməni lobbistləri ilə «tutaşmaq» qərarına gələn bu təşkilatların rəhbərlərinə razılığın bildirən Heydər Əliyev ədalətsiz «907»-ci düzəlişin hələdə qüvvədə



qalmasından narahat olduğunu bildirərək yəhudi lobbisinin bu düzəlişin oradan götürməsi üçün onların səylərini aradan qaldırılmasına ehtiyac duyduğunu bildirmişdir.(114; səh.1).

«907»-ci ədalətsiz düzəlişin Amerika-Azərbaycan münasibətlərinə ciddi əngəl törətdiyi barədə digər çıxışı, ***Heydər Əliyev*** sentyabrın 1-də «Meyfuler Renessans» mehmanxanasının Şərq salonunda Amerika-Azərbaycan ticarət palatasının təşkil etdiyi «Azərbaycan Avrasiyanın qapısı strateji və iqtisadi alyanslar ölkəsidir» - beynəlxalq konfransda etmişdir.

Görüşdə iştirak edən Azərbaycan diasporunun və lobbisinin nümayəndələri də bu barədə çıxış edərək düzəlişin aradan götürülməsi üçün səylərinin artıracaqlarını bildirmişlər. (111; səh.1).

Azərbaycan diasporu və lobbisinin ABŞ-da formalaşması və güclənməsi üçün nüfuzlu yəhudi diasporu və lobbisinin köməyi daha çoxdur. 1998-ci ilin əvvəllərindən Amerikanın altı yəhudi təşkilatı Azərbaycanın adının Konqresdə təmizə çıxarılması və erməni mənşəli amerikanların tələbi ilə 1992-ci ildə Konqres tərəfindən tətbiq edilən sanksiyaların aradan götürülməsi üçün nüfuzlu Amerika Erməni Assambleyası ilə «tutaşmaq» qərarına gəlmişdir. Bu Kapitoli təpəsində işləyən xarici siyasət lobbiləri arasında ən qeyri-adi yenidən qruplaşmalardan biri olmuşdur. Yəhudilərlə ermənilər daha yaxşı təşkil edilmiş və maliyyələşdirilən iki Vaşinqton lobbisi arasında nifaq alyanslarının təlatümünü - Yaxın Şərq dövlətləri ilə Sovet İttifaqının süqutu nəticəsində onların Qafqazda və Mərkəzi Asiyada yeni tapdıqları dostları arasında baş verən təlatümü əks etdirir.

Qovğa azadlığı müdafiə haqqında aktın Nümayəndələr

Palatasının iki saatlıq debatları zamanı üzə çıxmışdır; həmin akt ABŞ-ın birbaşa yardımını almaqda Azərbaycana mane olduğu halda Ermənistan Amerikadan ən çox yardım alanlar sırasında qalmaqdadır.

Konqresin 1992-ci ildən bu günə qədər səyi nəticəsində ABŞ Ermənistana 100 milyonlarla dollarlıq köməklik göstərmiş, amma Azərbaycan neftində maraqlı olan Amerika neft şirkətləri daha qərəzsiz siyasətin xeyrinə olaraq lobbiçiliyinə baxmayaraq Azərbaycana ancaq humanitar yardım göstərməklə kifayətlənmişdir. Yəhudi diaspor və lobbisini Azərbaycanı dəstəkləməsi qərarından sonra erməni diasporu onlarla yəhudilər arasında olan ziddiyyətlərin aradan götürülməsinə çalışırlar. Erməni diasporuna xidmət edən lobbist Con Porter yəhudilərlə «ermənilərin» soyqırımı qurbanları və diasporlar kimi tarixi oxşarlığını nəzərdə tutaraq demişdir «onlar, yəhudi xalqı kimi, ermənilərin də nə kimi zülmə məruz qaldıqları barədə uzun-uzadı intensiv düşünməli idilər» . (18; səh.4).

Ancaq erməni diasporu və lobbisinin yəhudi diasporu ilə aralarındakı ziddiyyətləri aradan qaldırmaqdan ötrü göstərdikləri cəhdlər belə ziddiyyətlərin olduğunu ancaq təsdiqləmişdir. Amerika Yəhudi Komitəsinin beynəlxalq işlər üzrə direktor müavini Barri Ceykobs bildirmişdir ki, **«Elə sahələr var ki, biz bir-birimizlə razı deyilik və bu konkret məsələdə də razılığa gəlməyəcəyik».** (115; səh.14).

Azərbaycan hök?məti yəhudi diaspor və lobbisinin onların maraqlarını Amerikada müdafiə edərək erməni lobbisi ilə «toqquşmasını» dövlət səviyyəsində dəstəkləmə ilə yanaşı İsrail ilə strateji əməkdaşlığı gücləndirməyi xarici siyasət konsepsiyasına daxil etməklə xarici siyasətdə zəruri



korrektələr etməlidir. Əgər bu korrektələr edilsə Azərbaycan udmuş olacaqdır. Çünki beynəlxalq aləmdə yəhudi diasporu və lobbisi kimi qüdrətli bir qüvvənin müdafiəsini qazanmaqla Azərbaycan adının təmizə çıxarılmasına və ölkəmizə qarşı olan müxtəlif beynəlxalq səviyyəli sanksiyaların aradan götürülməsinə nail ola bilərik. (116; səh.6).

**Dağlıq Qarabağ problemi ətrafında Azərbaycan diasporu erməni diasporu ilə mübarizəni gücləndirməsinə baxmayaraq, hələ də müharibə davam edir. Torpaqlarımızın 20 faizi işğal altındadır və beynəlxalq dövlətlərin təklif etdikləri variantlar olan; ümumi dövlət (Rusiyanın təklifi) mərhələli həll variantı (ATƏT Minsk qrupunun təklifi), Slovakiya-Eriteriya modeli, Con Mareski planı, Qobl planı, Andorra modeli, Ermənistan tərəfindən təklif edilən Dağlıq Qarabağdan qoşunların çıxarılması və Dağlıq Qarabağın Azərbaycan vasitəsi ilə deyil, birbaşa dünya dövlətləri ilə əlaqəsinin təmin olunması və s.-dən ancaq Dağlıq Qarabağın Azərbaycana tabeçiliyindən başqa bütün formalarda onunla münasibət saxlanılacağının mümkün olması variantları heç bir halda müzakirə mövzusu olmamalıdır.**

Azərbaycan torpağı bölünməzdir və Azərbaycan-Ermənistan münaqişəsi o zaman həll edilə bilər ki, işğal olunmuş torpaqlar geri qaytarılsın. Heç şübhəsiz Azərbaycan-Ermənistan münaqişəsinin həll edilməsi də Azərbaycandaxili mövcud olan bir sıra konfliktlərin aradan götürülməsi və xüsusilə də Azərbaycan diasporu və lobbisinə dövlət tərəfindən dəstək verilməsi sayəsində beynəlxalq aləmdə Azərbaycan həqiqətlərini üzə çıxması olacaqdır. Bu işdə maksimum imkanlardan istifadə edilməsi nəinki zəruri, eyni zamanda labüd sayılmışdır. (117; səh.6).

# NƏTİCƏ

XX əsrin əvvəllərindən ta bu günə qədər xüsusilə intensiv şəkildə davam edən xalqların tarixi inkişafının səviyyəsi, və istiqamətləri ilə sıx bağlı olan mühacirət prosesinin özünün say-demoqrafik və kəmiyyət göstəriciləri baxımından həqiqətən də böyük diaspora malik olan Azərbaycan Respublikası, Azərbaycan diasporu və ümumilikdə diaspor anlayışı hansı baxış sistemi əsasında aydınlaşdırılmasında çətinlik yaratmış və bu barədə məlumatsızlıq üstünlük təşkil edir. Diaspor icmaları, onların problem və çətinlikləri, sayı, tərkibi, müsbət və mənfi cəhətləri, üstünlük və çatışmazlıqları, diaspor-dövlət münasibətdəki mövqeləri, fəaliyyət və təşəbbüsləri, ictimai-siyasi baxışları və s. mühüm məsələlər barədə solğun obyektiv analitik xarakterli elmi nəzəri informasiyadan əslində məhrum olunmuş vəziyyətdədir. Diasporun öyrənilməyə başlanılması dünya dövlətlərinin öz diasporları ilə bağlı gördüyü işlər diaspor vasitəsi ilə iri dövlətlərin siyasi kursunu dəyişməklə dövlətin xarici siyasət sahəsindəki görmədiyi işi diaspor vasitəsi ilə həyata keçirilməsi təcrübəsindən bizdədə öyrənilməyə başlanması, diaspora doğru dövlət tərəfindən atılacaq bütün addımlar dövlət diaspor münasibətlərini normalaşdıra bilər. Bu isə hər iki tərəf üçün arzulanan bir addım olmaqla diasporumuzun işini ciddi bir təkan kimi qiymətləndirmək olar. Bu gün nəhəng bir diaspora malik olan Azərbaycan Respublikası bu günə qədər müəyyənləşdirə bilməyib ki, xaricdə diasporumuzu formallaşdıran həmvətənlərimizdən nə tələb edir və onlara nə təklif edə bilər. **Ümumdünya səviyyəsində Azərbaycan dövləti diaspora necə münasibət bəsləyir?** Geopolitik məkanda və bizim üçün əhəmiyyətli olan dövlətlərdə məskunlaşan diaspordan informasiya, mədəni, iqtisadi, siyasi və s. məqsədlərlə istifadə edilməlidir. Azərbaycanlıların qabaqcıl və vətənpərvər intellektual təbəqəsi tərəfindən milli maraqlarımızın ayrı-ayrı elementləri kimi, diasporu həm daxildən, həm də öz dövlətləri ilə möhkəm şəkildə yaxınlaşdırıb birləşdirən ortaq (müştərək) milli mənafe nöqtələri kimi dərk olunmalıdır.

Beynəlxalq münasibətlər sistemi diasporu özündə siyasi, mədəni, cəmiyyətlər, birliklər və s. birləşdirən institutlaşmış funksional tərkib kimi qəbul edir. Hər bir dövlət qarşısında diasporu etnomədəli fenomen kimi saxlanılmasını məqsədi qoyaraq siyasi funksiya kimi də ondan istifadə etməklə diasporun tarixi vətənləri ilə əlaqələrinin möhkəmləndirilməsi strategiyasının formalaşdırır. Dövlət mütləq diaspor ilə işləməlidir, baxmayaraq ki, rəsmi surətdə proqram və konsepsiya yoxdur. Ermənistan, İsrail, Çin və bir çox dövlətlərin ABŞ-ın dövlət səviyyəsində xarici siyasətinə təsir etmək qüvvəsi yoxdur, ancaq qeyri-rəsmi olaraq diaspor vasitəsi ilə buna təsir edə bilər və edir. Bunun üçün diaspora daxil olan sosial, maliyyə, ideoloji və dini strukturların fəaliyyətinin genişlənməsi və güclənməsi xüsusi əhəmiyyət daşıyır. Dövlət diasporla bağlı iki cür siyasət yeridə bilər.

**1) Elə siyasət yeridə bilərki bu siyasət nəticəsində diaspordan əsər-əlamət qalmaz. Misal olaraq Rusiya ilə yaxın olan Finlandiyadan etnik rusları göstərmək olar. Buradakı ruslar tam assimilyasiyaya məruz qalmış və bunun qarşısını Rusiya ala bilməmişdir.**

**2) Diaspor anlayışını ümumiləşdirilmiş bir məfhum kimi məhz mahiyyətini, problematik tərəflərini, daha çox məhz tarixilik prinsipləri nöqteyi-nəzərindən izah edərək diaspordan etimoloji yanaşma üsulu vasitəsi ilə istifadə edə bilər.**

Dövlət-diaspor münasibətlərinin güclənməsinin bir çox mühüm faktorları vardır və bu faktorlar diaspor siyasətində əsas götürülməsi və vacib olan həmin birləşdirici faktorlar əsasən aşağıdakılardır.

Vahid milli mədəniyyət amili. Müstəqil dövlətçilik və milli-siyasi azadlıq amili. Tarix, din, kültür və soykökü birliyi (eyniyyəti) amili. Demokratiya və insan haqları (o cümlədən milli hüquqlar) uğrunda mübarizə, eləcə də milli zülmə və avtoritarizmə qarşı müqavimət amili. Milli faciələrin məhz diasporda öz faciələri kimi qarşılanıb həmrəyliyin açıq şəkildə ifadə olunması amili.

Dövlətinin mənəvi himayədarlığına daim ehtiyac amili və s.

Bunların müqabilində isə adını çəkdiyimiz destruktiv ayrıcı amillər, məsələn vətəndaşlıq asılılığının olmaması, yəni öhdəliksizlik, məlumatsızlıq və informasiya boşluğu dövlətinə dərindən bələd olmamaq faktoru, fərqli sosial-siyasi təcrübə və dəyərlərin mövcudluğu faktoru və s. çox-çox zəif və ötəri görünür.

Bəs Azərbaycan diasporu hansı problemlərlə üz-üzə qalıb? Əlbəttə bunun aydınlaşdırılması çox vacibdir və indinin özündə də işin özündə aşkar olan bir çox problemlər vardır.

**1) Ciddi milli mədəniyyət və dil böhranı - bu cür milli kültür böhranı hallarının mövcud olmasının əlamətidir ki, xaricdəki həmvətənlərimizin böyük əksəriyyətinin Azərbaycanın mədəniyyəti, tarixi, dili, ədəbiyyatı, incəsənəti və varlığı haqqında geniş məlumatı yoxdur.**

**2) Mühüm problemlərdən biri də diasporumuzun Azərbaycan və buradakı proseslər barədə həm analitik, həm də cari informasiya kanallarından məhrum olmalarıdır. Bu isə diasporun çevikliyini, operativliyini və özünəinamını azaldır, əvəzində isə qeyri-müəyyənlik hallarını və tərəddüdlərini gücləndirir.**

**3) Üçüncü problem kimi diasporumuzun müəyyən bir təbəqəsinin sağlam milli şüur və milli dövlətçilik təfəkkürü defisiti ilə üzləşməsini göstərmək olar. Onların bir çoxu dilemmalar qarşısında qalmışdır və öz mövqelərini hələ də konkretləşdirə bilməyiblər.**

**4) Dördüncü mühüm problem isə bütün diasporlarda nəzərə çarpan klassik icmadaxili konfliktlərlə bağlıdır. Azərbaycan diasporunda olan belə konfliktlər iki formada mənəvi-psixoloji atmosferin ziddiyyətli olması və şəxsiyyətlər və qruplararası münasibətlərin problemlərinin ön planda dayanması şəkilində təzahür edir. Ümumi dövlətçilik işi naminə mütləq Azərbaycan diasporunda olan liderlik uğrundakı kəskin rəqabət hallarının yığışdırılması lazımdır.**

Azərbaycan diasporunun qarşısında duran milli-ictimai fəaliyyət



və təşəbbüslərin gücləndirilməsi iki əsas məqsədə - həm özünütanımaq, milli kökünə və milli varlığına sahib olmaq, azərbaycançılıq məfkurəsini mənimsəmək, həm də Azərbaycanı başqalarına tanıtmaq və onu xaricdə təbliğ etmək məqsədlərinə xidmət edir. Bu təşəbbüslərin indiyə qədər dünya diasporlarının təcrübəsinə nəzər yetirsək bizim üçün də əhəmiyyətli olan 5 əsas forması müşahidə edilir:

***1) Xaricdə mədəni-kütləvi tədbirlərin keçirilməsi***

***2) Maarifçilik və təbliğatçılıq işinin gücləndirilməsi, kütləvi anti-Azərbaycan dairələrinin xüsusi ilə ermənipərəst qüvvələr və s. qrupların bizim ölkəmizə qarşı yönəlmiş ideoloji-siyasi hücum və təzyiqlərinin neytrallaşdırılması və belə qüvvələrə qarşı əks kəskin təzyiq və ideoloji-siyasi cəbhənin açılması.***

***3) Qarabağda davam edən ədalətsiz müharibəyə qarşı etiraz əlaməti olaraq Qərb ölkələrinə siyasi etiraz aksiyalarının təşkili və bu müharibənin aparılmasında ermənilərin təcavüzkarlığının isbata yetirilməsi.***

***4) Azərbaycana humanitar yardımın təşkili - bu məqsədlə güclü Azərbaycan lobbisinin yaradılması konqresin biabırçı və ölkəmizin siyasi və iqtisadi maraqlarına zidd olan «Azadlığa yardım aktına 907-ci əlavənin» ləğvi istiqamətində Bakı-Vaşinqton əlaqələrinin bütün parametrlər üzrə tərəqqisini genişləndirərmək, Azərbaycan-ABŞ münasibətlərindəki sezilən boşluğu doldurmaq və ikitərəfli əlaqələr tapmaq və bütövlük gətirilməsinə çalışmaq. Bu məqsədlə aşağıdakı vasitələrdən mütləq istifadə edilməlidir.***

***A) ABŞ-da Azərbaycan diasporu və lobbisini formalaşdırmaq soydaşlarımızın ictimai-siyasi fəallığı və mütəşəkkilliyinin artırılması istiqamətində əməlli tədbirlərin görülməsi. ABŞ-da respublikamızı müdafiə edə biləcək güclü neft lobbisinin yaradılmasına xüsusi diqqət verilməlidir.***

***B) ABŞ-ın güclü yəhudi diasporu və lobbisi ilə sıx əlaqələrin qurulması istiqamətində konkret addımlar atılmalıdır. Bu məqsədlə keçmiş Azərbaycan yəhudilərinin və onların işgüzar***

***adamlarının ölkəmizə marağının artması istiqamətində müəyyən güzəştlər edilməlidir.***

***S) Respublikamızda professional diplomat kadrlarının və diaspor və lobbi sahələri üzrə güclü mütəxəssislərin hazırlanması və onlara bu işdə geniş imkanların verilməsi.***

Beləliklə, Azərbaycanın üzləşdiyi böyük problemlərin beynəlxalq səviyyədə həll olunması və dünyanın bir çox dövlətləri, xüsusi ilə ABŞ-la sıx əməkdaşlıq və perspektivdə müttəfiqlik münasibətlərinin qurulması yolunda kifayət qədər nəhəng bir qüvvə olan diasporumuzdan yüksək səviyyədə istifadə edilərək onun Azərbaycan dövləti faktoruna doğru yönəldilməsi vacibdir.

***Ölkə prezidenti H. Əliyev tərəfindən seçilmiş düzgün strateji istiqamət və Azərbaycan diasporu ilə sağlam, sivil, tam demokratik əlaqələrinin qurulması yolunda yeritdiyi məqsədyönlü siyasət Azərbaycan respublikasının dünya dövlətləri ilə milli mənafe və maraqlarına uyğun möhkəm və davamlı sülhə gətirəcək, ikitərəfli münasibətlərin siyasi, iqtisadi və hərbi müttəfiqlik səviyyəsinə qaldıracaqdır.***



## Ədəbiyyat siyahısı


1. Heydər Əliyev «Müstəqilliyimiz əbədidir» Bakı, 1997
2. «Dirçəliş XXI əsr» jurnalı 8-9 1999
3. «Независимая газета» 13 февраля 2000
4. Pierre George «Geopolitique des minorites» Paris 1996
5. Journal «The chronicle of higher education», New-York, 22 January, 1999
6. «Encyclopedia Americana» Washington 1996
7. Chao Wu «la pollution du fait du transport mariti me deshydrocarures» Paris 1994
8. Журналь «Оне-Обшественные науки и современность» Москва № 5, 1996
9. Allan J. Cigler «interest group politics» Washington 1998
10. «Lexique de gographic humainet economique» Paris 1996
11. «International Encyclopedia of Commonications» New-York 1997
12. http: www.sgap.ru/personals/malko/lobbizm.html
13. Journal «American Antropologisgt», New-York, N 1, 1998
14. «Müxalifət» qəzeti - 15 noyabr 1997.
15. Armand Colin « Dictionnaire de la science politiques» Monaco 1996
16. Kay Lehman Schiozman «Organized interest and American Democrasy» New-York 1997
17. Andrews.Mc. Forland «Common cause-lobbying in the public interest» - New-York 1996
18. «Azərbaycan» qəzeti - 11 fevral 1999
19. «Большая Советская Энциклопедия». Москва 1957
20. «Еврейская диаспора и Израиль» Тель-Авив 1998.
21. «The state of Israel» Tel-Aviv 1991
22. Bernard Wasserstein «Vanishing Diaspora» Cambridge 1996
23. M. Seltzer «Jewish People , Jewish Thought» New-York 1980
24. А.Константинов, Ю.Андреев «Евреи в США - глазами американцев», Москва, 1985
25. Abba Eban «Heritage : Cuiltilization and the Jews» New-York 1984
26. Richard L. Rubenstein «After Auschwits: History: theology and contemporary» Baltimore. 1992.
27. Рабби Иосеф Телушкин «Еврейский мир», Москва, 1998
28. Journal «Etnic and Racial stupies» July N 4, 1998
29. «Qanun» jurnalı N 5, 1998-ci il
30. Arthur Hertzberg «The Zionist idea» Tel-Aviv 1992
31. Justin Mc. Carthy, Carolin Mc. Carthy «Turks and Armenians: a manual on the armenian question» WashingtonDc. 1998
32. İ. Q. Çavçavadze. «Ermoni alimləri və fəryad edən daşlar». Bakı 1995.

33. Салех бей «Армянство», Баку, 1994
34. «Armenian allecations -myth and reality» Washington 1982
35. Əsgər Abdullayev «Erməni terrorizmi və cinayətləri: Azərbaycanda, Türkiyədə və Dünyada». Bakı 1994.
36. Газета «Содружество НГ» 22 июнь 1999
37. http://www.ours com./ kesab//kesab-or htm.
38. «Azadlıq» qəzeti - 25-27 dekabr 1999
39. «Elçi» qəzeti - 26 sentyabr - 02 oktyabr 1999
40. Qulu Kəngərli «Erməni lobbisi: Azərbaycan faciəsi». Bakı 1992
41. «Millət» qəzeti - 30 dekabr 1997
42. «Yeni Azərbaycan» qəzeti - 30 sentyabr 1999
43. «Azadlıq» qəzeti 10 oktyabr 1997.
44. «Rezonans» qəzeti 28-31 mart 1998
45. Journal «Azerbaijan in the international multilateral intercommunicaton's», 22-23 November. Baku, 1995
46. http://www.vestris.com/cgi-aqnes/one/agnes? Armenia agnes Armenia agnes html/articlet14,2-and-
http://www.yahoo com/bin/query?p+interest+group+Azerbaijan hc+ 08hc=0.
47. Vaqif Arzumanlı, Adil Hüseynov. «Azərbaycan ünvanlı». Bakı 1994
48. «Xalq» qəzeti 22 oktyabr 1997
49. «Xalq» qəzeti19 sentyabr 1997
50. «Ekspress» qəzeti 26 yanvar 1999
51. William M. Lunch « The Nationalzation of American Politics» New-York 1997
52. Christopher J. Derring « Congressional politics» New-York 1996
53. David-Luban «Lawyers and Justige in Etnical study» New-York 1996
54. Газета «Панорама» 10 февраля 1996
55. «Миграция и мигранты в мире капитала» Киев, 1990
56. «Факты об Израиле». Тель-Авив, 1995
57. И.В.Прудин «Сионисеое лобби в США», Минск, 1994
58. http://www.cdn.-Friends -/CEJ.ca/Israeln/092998. html.
59. «Государство Израиль». Тель-Авив, 1991
60. Rolef, Susan Hattis «Political dictionary of the state of Israel» NewYork 1987
61. Eric Alterman «Why democracy matters in Foreign policy» Who speaks for America» Washington 1997
62. «Oil and the Arab-Israeli conflict» 1948-63 New-York 1999
63. И.О.Геевский С.А.Червонная «Национальный вопрос в общественно-политической жизни США», Москва, 1985.
64. http://www.bsos. umd. edu/c ss97/papers/anolerson. html.
65. Yuri Andreyev « Zionism - preaching and practice» Moscow 1987
66. «Сионизм - теория и практика», Москва, 1983
67. «Сионизм - слово и дело» Москва. 1987



68. В.А.Соловьев «Ближневосточный жандарм» Москва 1983
69. Pabinovich Itamar «Israel in the Middle East « Documentys and reading on Society politics and foreign realitions» New-York 1984
70. «Международный сионизм на службе империалистической реакции». Москва, 1984
71. «Ближний Восток и Международное право». Москва, 1992
72. http://www.mfa.gov.il/mfa/go.asp? mfan.oorvo.
73. http://www.mfo.gov.il/mfa/go.asp? mfan oosmo.
74. «Пульс планеты» 22 декабря 1999
75. «Paritet» - гэзети 7-9 октјабр 2000
76. «Türkler - ermeniler ve Avrupa» Ankara 1994
77. Saleh bəy «Dünyanın taleyi». Bakı 1998
78. «Osmanli belgelerinde ermeniler (1915-1920)» Ankara 1994
79. Сабир Асадов «Миф о Великой Армении», Баку, 1999
80. Тγrkozu K.H. «Dγnkγ ve bγgγnkγ Ermeni terrorizmi ve dγııγndγkleri» Istanbul 1985
81. «Ermenilerin yaptiklari katliyamlar» Ankara 1994
82. Кямрун Гюрюн «Армянское досье», Баку, 1993
83. Əsgər Abdullayev. «Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq siyasəti» Bakı, 1998
84. Əsgər Abdullayev. «Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq siyasəti tarixindən». Bakı 1995
85. Жорж де Малевил «Армянская трагедия 1915 года» Баку, 1990
86. http://gazeta.msk.ru/dosier/27-04-1999-html.
87 «Независимая газета» 12 апреля 2000
88. Газета «Зеркало» 15 марта 2000
89. http://www.ermenisorunu.gen.tr
90. Журналь «Новое время» 13 май 2000
91. http://www.aaainc.org/genocideintro/html.
92. «Xalq» qəzeti 25 aprel 2000.
93. http://www.aaainc.org/record/congress-list htr.
94. «Azadlıq» qəzeti 3-5 iyun 2000.
95. «Respublika» qəzeti 5 oktyabr 2000
96. «Azadlıq» qəzeti 22 sentyabr 2000
97. http://infoart.gord.ttn.ru/misc/NEWS/00/02/26-027.htm.
98. С.В.Лурье «Историческая этнология», Москва, 1999
99. «Конфликт в Нагорном Карабахе» , Баку 1990
100. Elman Nəsirov. «Azərbaycan-ABŞ münasibətləri». Bakı 1998
101. www.park.ru/newsarhive/medimax/index.htm
102. «Qanun» jurnalı N 4. 1999-cu il
103. The material Concering «section 907» freedom support act. (usis)
104. «Xalq qəzeti» 26 dekabr 1997 - 1 yanvar. 1998
105. http://Azer.com/aiweb/categories/magazinehtm/64,FOLDER/64 articles/64 mareska.html.
106. www.ca-c.org/journal/cac04-1999/st-21-rzajev.shtml

107. Журналъ «Возрождение-XXI век» №3 Баку 1999
108. /http://www/aaainc.org/cong-preofiles/Caucasus.html.
109. «Journal of Commers» 25 September 1996
110. /http://www.aaainc.org./armenia-nkr/silk road.htm.
111. «Yeni Müsavat» qəzeti 4 fevral 2000.
112. «Xalq qəzeti» 13 sentyabr 2000.
113. «Xalq qəzeti» 10 sentyabr 2000.
114. «Xalq qəzeti» 9 sentyabr 2000.
115. **Newspaper** «Washington Post» 3 February, 1999
116. «Azadlıq» qəzeti 14 yanvar 2000.
117. «Qanun» jurnalı N 6. 1999-cu il



# Kitabın içindəkilər

GİRİŞ ........................................................................................ 3

I FƏSİL

Diasporların formalaşması tarixindən ........................................... 9
Yəhudi diasporu ........................................................................ 20
Erməni diasporu ........................................................................ 28
Azərbaycan diasporu ................................................................. 36

II FƏSİL

Regional etnosiyasi münaqişələrdə diasporların rolu ........................ 44
1. Ərəb-İsrail münaqişəsi və ərəb-yəhudi diasporlarının mövqeyi .......... 53
2. «Erməni genosidi» və erməni-türk diasporlarının qarşıdurması ........... 71
3. 907-ci düzəliş və erməni-azərbaycan diasporlarının mübarizəsi ........ 118
NƏTİCƏ ................................................................................... 140
Ədəbiyyat siyahısı ..................................................................... 145

Kompüter yığımı: **İbrahimov Əli**
**Salmanov Anar**

Korrektor: **Əliyeva Aytən**

Zaur Əliyev.
**Beynəlxalq münasibətlərdə diasporların rolu.**
Bakı, "Nurlan" - 2001. 150 səh.



Formatı 60x84 1/16. Həcmi 9ç.v.
Tirajı 100. Sifariş 99.